# Azərbaycan mülki müdafiə sahəsində beynəlxalq əməkdaşlığa böyük önəm verir

## Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyasının iştirakçılarına

Hörmətli sessiya iştirakçıları!

Sizi Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyasının açılışı münasibətilə Bakı şəhərində səmimi-qəlbdən salamlayıram.

Dünyada insanların təhlükəsizliyi, əmin-amanlığı və rifahının təmin edilməsi üçün həyati əhəmiyyət kəsb edən məsələlərə həsr olunmuş bu yüksəksəviyyəli beynəlxalq tədbirə evsahibliyi etməkdən məmnunluq duyuruq. Bu sessiyanın Azərbaycanda keçirilməsi ölkəmizin qlobal təhlükəsizlik, fəlakət risklərinin azaldılması və mülki müdafiə məsələlərinə verdiyi önəmin bariz nümunəsidir.

Hazırkı sessiya bəşəriyyət üçün həlledici bir məqama - təbii və texnogen fəlakətlərin sayının artdığı, iqlim böhranlarının dərinləşdiyi, dövlətlərin yeni təhlükələr və çağırışlarla üzləşdiyi və mülki müdafiə sistemlərinin ciddi sınaqdan keçirildiyi vaxta təsadüf edir. Bu xüsusda, mülki müdafiə və əhalinin mühafizəsi sahəsində çoxtərəfli əməkdaşlığın inkişafını təşviq edən və bu sahədə qlobal koordinasiyanı təmin edən beynəlxalq səviyyədə ixtisaslaşmış yeganə hökumətlərarası təşkilat olaraq Beynəlxalq Mülki Müdafiə Təşkilatının aparıcı və unikal rolu xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq Mülki Müdafiə Təşkilatı milli strukturların gücləndirilməsinə dəstək göstərir, müxtəlif inkişaf səviyyəsinə və resurslara malik ölkələr arasında təcrübə və bilik mübadiləsini asanlaşdırır, mülki müdafiə xidmətləri arasında həmrəylik və tərəfdaşlıq ruhunu möhkəmləndirir.

Bu gün burada böhranlara və fəlakətlərə qarşı mübarizənin ön cərgəsində duran, həyatını cəmiyyətə xidmətə həsr etmiş, müxtəlif ölkələri təmsil edən peşəkarlar və mütəxəssislər toplaşıblar. Mən qlobal mülki müdafiə, o cümlədən fövqəladə hallara hazırlıq, fəlakətlərə reaksiya sahəsində dost ölkələrin aidiyyəti orqanları arasında dinamik surətdə inkişaf edən tərəfdaşlıq əlaqələrini yüksək qiymətləndirirəm.

Azərbaycan mülki müdafiə sahəsində beynəlxalq əməkdaşlığa böyük önəm verir. Beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü kimi ölkəmiz insan həyatının müdafiəsinə, ətraf mühitin və infrastrukturun qorunmasına yönəlmiş qlobal təşəbbüslərin formalaşmasında və həyata keçməsində yaxından iştirak edir. Azərbaycanın evsahibliyi etdiyi bir sıra mühüm beynəlxalq tədbirlər, xüsusilə də keçən il baş tutmuş COP29 və gələn il keçiriləcək Ümumdünya Şəhərsalma Forumu bəşəriyyəti narahat edən ən aktual problemlərin həllinə, onların fəsadlarının aradan qaldırılmasına və ümumilikdə qlobal həmrəyliyin gücləndirilməsinə xidmət edir.

Bu gün mülki müdafiə mexanizmlərinin inkişafı üçün universal platforma olan Beynəlxalq Mülki Müdafiə Təşkilatının beynəlxalq arenada davamlılığını və nüfuzunu gücləndirmək üçün bütün üzv dövlətlərin səylərinin səfərbər olunması və birgə fəaliyyətinin təmin edilməsi strateji əhəmiyyət daşıyır. Müasir dünyamızda artan risklər fonunda dövrün çağırışlarına cavab verə bilən, ona uyğunlaşan, beynəlxalq həmrəylik və qarşılıqlı yardımın effektiv aləti kimi güclü Beynəlxalq Mülki Müdafiə Təşkilatının olması olduqca labüddür.

Məhz bu kontekstdə, sessiya zamanı keçiriləcək Baş katib vəzifəsinə seçkilər təşkilatın gələcək inkişaf istiqamətlərinin müəyyən olunmasında həlledici mərhələ olacaqdır. Seçkiyə təqdim olunan namizədlər arasında Azərbaycan Respublikasının nümayəndəsi də yer almaqdadır. İnanıram ki, ölkəmizi təmsil edən nümayəndə Baş katib seçiləcəyi təqdirdə Beynəlxalq Mülki Müdafiə Təşkilatının fəaliyyətində səmərəliliyin artırılması, şəffaflığın təmin olunması və hesabatlı idarəçilik prinsiplərinin möhkəmləndirilməsi, beynəlxalq tərəfdaşların tam etimad bəslədiyi, çevik və effektiv bir təşkilati modelin formalaşdırılması istiqamətində ardıcıl və prinsipial səylər göstərəcəkdir.

Əminəm ki, Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyası beynəlxalq mülki müdafiə sisteminin daha da möhkəmlənməsinə və təşkilatın fəaliyyətinin təkmilləşdirilməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, tədbirin işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,10 iyul 2025-ci il*

Azərbaycan.-2025.- 11 iyul (№ 140).- S.1.

# Bakıda Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyası keçirilib

## Azərbaycan FHN-in əməkdaşı Beynəlxalq Mülki Müdafiə Təşkilatının baş katibi seçilib








**İyulun 10-da Bakıda Beynəlxalq Mülki Müdafiə Təşkilatının (BMMT) Baş Assambleyasının 3-cü növbədənkənar sessiyası keçirilib.**

Bu barədə AZƏRTAC-a Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Əvvəlcə BMMT-nin himni səsləndirilib.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyasının iştirakçılarına müraciəti səsləndirilib. Müraciəti Azərbaycanın Baş naziri Əli Əsədov oxuyub.

Təşkilatın İcraiyyə Şurasının vitse-prezidenti Vinisio Feliks Çavarria Bayez və BMMT-nin Baş katibinin səlahiyyətlərini icra edən Roman Lapin çıxışlarında sessiyanın qarşısında duran məsələlərdən danışıblar.

Daha sonra Təşkilatın Etimad Komitəsinin hesabatı dinlənilib, sessiyanın gündəliyi təsdiq olunub. BMMT-nin Baş katibi vəzifəsinə namizədlərin təqdimatından sonra səsvermə keçirilib. Səsvermənin nəticəsinə əsasən, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi Beynəlxalq əlaqələr idarəsinin rəisi polkovnik Ərgüc Kələntərli yekdilliklə Beynəlxalq Mülki Müdafiə Təşkilatının baş katibi seçilib. Qeyd edək ki, baş katib vəzifəsinə seçkilərdə təşkilata üzv 4 ölkə – Azərbaycan, Serbiya, Burkina Faso və Tunisdən olan namizədlər mübarizə aparırdılar.

Səsvermənin hesabatı dinlənildikdən sonra BMMT-nin yeni baş katibi Ərgüc Kələntərli çıxış edərək, ona göstərilən etimada görə təşəkkürünü bildirib, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səylə çalışacağını deyib.

Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov tədbirdə yekun nitq söyləyib.

Nazir BMMT-nin Baş Assambleyasının 3-cü növbədənkənar sessiyasının bütün iştirakçılarına məhsuldar və konstruktiv fəaliyyətlərinə görə səmimi təşəkkürünü bildirib. K.Heydərov Prezident İlham Əliyevə mülki müdafiə sahəsində beynəlxalq əməkdaşlıq məsələlərinə göstərdiyi hərtərəfli dəstəyə, strateji baxışına və davamlı diqqətinə görə dərin minnətdarlığını çatdırıb.

Nazir BMMT-nin Bakıda keçirilən sessiyalarının fövqəladə hallarla mübarizə məsələlərində real və müsbət nəticələrin yalnız birgə və əlaqəli fəaliyyət sayəsində əldə edilməsinin mümkünlüyünü bir daha göstərdiyini vurğulayıb. Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə beynəlxalq əməkdaşlığın fəal və məsuliyyətli iştirakçısı kimi ölkəmizin bundan sonra da BMMT-nin fəaliyyətini dəstəkləməkdə, onun inkişafına əməli töhfə verməkdə davam edəcəyini diqqətə çatdırıb.

Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının Bakıda keçirilən 3-cü növbədənkənar sessiyasının işinə BMMT-nin himninin səsləndirilməsi ilə yekun vurulub.

# Baş nazir Əli Əsədov Pakistanın federal hüquq və ədliyyə naziri ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 10-da Pakistan İslam Respublikasının federal hüquq və ədliyyə naziri Azam Nazir Tarar ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Pakistan arasında mövcud olan strateji tərəfdaşlığın uzun illərə söykənən dostluq və qardaşlıq prinsiplərinə əsaslandığı bildirilib. Dövlətlərarası münasibətlərin bütün sahələrdə yüksək inkişaf dinamikasından məmnunluq ifadə olunub.

İki ölkənin məhkəmə-hüquq sistemləri arasında əməkdaşlığın səviyyəsi yüksək qiymətləndirilib, xüsusilə də ədliyyə nazirlikləri arasında həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində hüquqi sahədə səmərəli tərəfdaşlığın həyata keçirildiyi vurğulanıb.

Görüş zamanı Azərbaycan ilə Pakistan arasında müxtəlif istiqamətlərdə, o cümlədən məhkəmə-hüquq sahəsində qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

# Azərbaycanla Pakistan arasında hüquqi sahədə əməkdaşlıq genişləndiriləcək

**Azərbaycan və Pakistan arasında hüquqi sahədə əlaqələrin möhkəmləndirilməsi məqsədilə Pakistan İslam Respublikasının hüquq və ədliyyə naziri Azam Nazir Tararın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdədir.**



Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, səfər çərçivəsində nümayəndə heyəti Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Ardınca Şəhidlər xiyabanı, Zəfər parkı və Zəfər abidəsi ziyarət olunub, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi anılıb.

Daha sonra ədliyyə naziri Fərid Əhmədov pakistanlı həmkarı ilə görüş keçirib. Görüş zamanı iki ölkə arasında hüquqi sahədə mövcud əməkdaşlığın yüksək səviyyədə olduğu vurğulanıb, həmçinin siyasi, iqtisadi, ticarət və digər sahələrdə münasibətlərin uğurla inkişaf etdiyi qeyd olunub.

Tərəflər Prezident İlham Əliyevin 2024-cü ilin iyul ayında Pakistana dövlət səfəri zamanı imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə Nazirliyi arasında Əməkdaşlıq Memorandumu"nun əhəmiyyətinə toxunublar.

Memorandumun icrası məqsədilə görüşdə beynəlxalq müqavilə olmayan "Əməkdaşlıq Proqramı" imzalanıb. Proqram çərçivəsində rəqəmsal ədliyyə, ədalət mühakiməsində süni intellektin tətbiqi, hüquq sahəsində elmi tədqiqatların aparılması, eləcə də təhsil və tədrisin təşkil edilməsi, qanunvericiliyin işlənməsi, mübahisələrin alternativ həlli sahəsində əməkdaşlıq və digər aktual istiqamətlər üzrə təlimlərin təşkili planlaşdırılır. "Əməkdaşlıq Proqramı"nın icrası məqsədilə tərəflər Fəaliyyət Planının hazırlanması barədə də razılığa gəliblər.

Görüş zamanı Azərbaycan və Pakistan arasında strateji tərəfdaşlığın yüksək qiymətləndirildiyi bildirilib, qarşılıqlı səfər və təmasların hüquqi sahədə əməkdaşlığın daha da inkişafına töhfə verdiyi vurğulanıb. Həmçinin tərəflər gələcək əməkdaşlıq perspektivlərini və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# FHN-in təşkilatçılığı ilə "Bakı 2025" əməliyyat-taktiki təlimi





**Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (FHN) təşkilatçılığı ilə Bakı şəhəri, Qaradağ rayonunun Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Limanının ərazisində "Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində dövlət orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili" mövzusunda "Bakı 2025" əməliyyat-taktiki təlimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, təlimi fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov, Beynəlxalq Mülki Müdafiə Təşkilatına (BMMT) üzv ölkələrin fövqəladə hallarla mübarizə üzrə məsul qurumlarının rəhbər şəxsləri, Müdafiə, Daxili İşlər, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirlikləri, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, Dövlət Ehtiyatları Agentliyi, ANAMA, TƏBİB, AZCON, SOCAR, BP, FHN yanında İctimai Şura və digər qurumların rəhbər vəzifəli şəxsləri izləyiblər. Təlim irimiqyaslı fövqəladə hallar zamanı xilasetmə qüvvə və vasitələrinin birgə fəaliyyət mexanizminin həyata keçirilməsi, real imkanlarının müəyyən edilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi və bununla bağlı qərargahların əməliyyat hazırlığının yüksəldilməsi, qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması, qarşılıqlı fəaliyyət və hərtərəfli təminatın təşkili məqsədilə keçirilib.

Əvvəlcə FHN-in, həmçinin təlimdə iştirak edən digər qurumların texnika və avadanlıqlarına baxış keçirilib.

Sonra təlim qərargahında fövqəladə halların idarə edilməsinə məsul qurumların böhranların idarəedilməsi üzrə mərkəzləri ilə videorabitə vasitəsilə əlaqə yaradılıb, aidiyyəti qurumlar tərəfindən təlimlə bağlı görülən işlər barədə məruzələr edilib.

Daha sonra təlimin praktiki hissəsinə başlanılıb. Təlim planına uyğun olaraq, episentri Xəzər dənizində olmaqla, Bakı şəhərindən 110 kilometr cənub-şərqdə şərti dağıdıcı zəlzələ baş verib. "Zəlzələ" nəticəsində bir sıra şəhər və rayonlarda hündürmərtəbəli binalar və sənaye müəssisələrində dağıntılar yaranıb, infrastruktur şəbəkələri sıradan çıxıb. Vətəndaşlar arasında ölənlərin və dağıntılar altında qalanların olduğu bildirilib. Şərti hadisə ilə əlaqədar FHN-in qüvvələri tərəfindən aidiyyəti dövlət qurumları ilə koordinasiyalı şəkildə dərhal axtarış-xilasetmə, zəlzələ nəticəsində yaranmış yanğınların söndürülməsi və digər zəruri, təxirəsalınmaz tədbirlərin görülməsinə başlanılıb. Şərti zəlzələnin nəticələrinin aradan qaldırılması ilə əlaqədar "yanğın-xilasetmə əməliyyatı" uğurla həyata keçirilib. Sonda Azərbaycanın Dövlət Bayrağı və BMMT-nin bayrağı ilə təlim ərazisi üzərindən uçan helikopterlərin paradı keçirilib.

Qeyd edək ki, təlimdə FHN ilə yanaşı Müdafiə, Daxili İşlər, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirlikləri, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, Dövlət Ehtiyatları Agentliyi, ANAMA, TƏBİB, AZCON, SOCAR və BP-nin ümumilikdə 1250 nəfərdən ibarət canlı qüvvəsi, 8 ədəd helikopteri, 277 ədəd xüsusi təyinatlı texnikası və 14 baş xüsusi təlim görmüş iti iştirak edib.

Uğurla reallaşdırılan təlimdə qarşıya qoyulan məqsədlərə nail olunub.

# Türkiyənin Ali Məhkəməsinin sədr müavini "ASAN xidmət"də olub

**Ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Ali Məhkəməsinin (Yargıtay) sədr müavini Adem Albayrakın başçılıq etdiyi nümayəndə heyəti "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub.**



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, qonaqlara Prezident İlham Əliyevin təşəbbüsü əsasında yaradılmış "ASAN xidmət" mərkəzləri və sosial innovasiyalar istiqamətində həyata keçirilən layihələr barədə məlumat verilib, hazırda Azərbaycanın həmin intellektual brendinin 30-dan çox ölkəyə ixrac edildiyi diqqətə çatdırılıb.

Nümayəndələr Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə yaradılan "ASAN xidmət"in onlarda yüksək təəssürat yaratdığını və əhalinin dövlət xidmətlərinə əlçatanlığının təmin edilməsində mühüm rol oynadığını vurğulayıblar. Həmçinin nümayəndə heyətinə "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, Səyyar ASAN xidmət, "Bilim Bakı" mərkəzi və "ABAD" publik hüquqi şəxsin fəaliyyəti ilə əlaqədar ətraflı məlumat verilib.

# OECD-nin ekspertləri Azərbaycanda korrupsiyaya qarşı mübarizə tədbirlərini yüksək qiymətləndiriblər

**İyulun 7-10-da İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Fransanın Paris şəhərindəki qərargahında Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin (ACN) 24-cü Plenar iclası və Şəbəkənin İdarə Heyətinin 30-cu görüşü keçirilib.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qeyd edilən tədbirlərdə ölkəmiz Azərbaycan Respublikasının Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbovun rəhbərlik etdiyi, Ali Məhkəmənin sədr müavini, Məhkəmə-Hüquq Şurasının üzvü Çingiz Əsgərov, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Səbuhi Alıyev, Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyanın katibi Təbriz Musayev və digər əməkdaşlardan ibarət nümayəndə heyəti tərəfindən təmsil olunub.

Plenar iclasda Şəbəkənin İstanbul Antikorrupsiya Fəaliyyət Planının V monitorinq mərhələsi çərçivəsində ölkəmiz üzrə daha əvvəl təqdim olunmuş tövsiyələrin icrası ilə əlaqədar tərəqqi hesabatı müzakirə edilərək qəbul olunub.

Dəyərləndirmə nəticəsində ixtisaslaşmış antikorrupsiya qurumunun fəaliyyəti, dövlət satınalmalarında şəffaflıq, həmçinin məhkəmə sisteminin müstəqilliyinin təmini və digər istiqamətlərdə görülmüş tədbirlərin müsbət nəticələri vurğulanıb. Xüsusilə qeyd edilməlidir ki, ölkəmizdə həyata keçirilən korrupsiyaya qarşı mübarizə üzrə dövlət siyasəti ekspertlər tərəfindən olduqca yüksək qiymətləndirilib və müvafiq sahədə əldə etdiyi nəticələrə görə Azərbaycan region ölkələri arasında ilk yerlərdən birini tutur.

Bununla yanaşı, iclasda Ukrayna, Moldova və digər ölkələr üzrə dəyərləndirmə hesabatları qəbul edilib, Şəbəkənin 2023-2026-cı illər üzrə İş Proqramının icrası, habelə həyata keçirilmiş müxtəlif regional layihələr müzakirə olunub.

Nümayəndə heyətimiz Şəbəkənin İdarə Heyətinin iclasında çıxış edərək son dövrdə ölkəmizdə korrupsiya və oxşar neqativ halların qarşısının alınması və ona qarşı mübarizə ilə bağlı həyata keçirilmiş tədbirlər barəsində geniş məlumat verib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Bosniya və Herseqovinaya işgüzar səfərə gedib





İyulun 10-da Milli Məclisin Sədri Sahibə Qafarova Bosniya və Herseqovinaya işgüzar səfərə gedib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Tuzla şəhərinin beynəlxalq aeroportunda Milli Məclisin Sədrini Bosniya və Herseqovina parlamentinin deputatı Nihad Omeroviç və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarova Serebrenitsa qurbanlarının Anım mərasimində iştirak edəcək, həlak olanların xatirələrini yad edərək Memorial abidə üzərinə gül dəstəsi qoyacaqdır.

*"Azərbaycan"*

# Daxili İşlər Nazirliyində 6 ayın yekunları müzakirə olunub





**İyulun 10-da Daxili İşlər Nazirliyində 2025-ci ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov cari ilin birinci yarısında cinayətkarlıqla mübarizədə müsbət nəticələrin əldə edildiyini, kütləvi tədbirlərdə asayişin və təhlükəsizliyin peşəkarlıqla təmin olunduğunu, eyni zamanda qarşıda mühüm vəzifələrin durduğunu və onların ətraflı müzakirəsinin, xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün əlavə təşkilati tədbirlərin müəyyən edilib həyata keçirilməsinin vacibliyini nəzərə çatdırıb.

İclasda hesabat məruzəsi və məruzə ətrafı çıxışlar dinlənilib.

Qeyd olunub ki, ötən 6 ayda əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 17049 cinayət qeydə alınıb, onların 94,4 faizi daxili işlər və prokurorluq orqanları tərəfindən prosessual qaydada araşdırılan hüquqazidd əməllər olub. 2024-cü ilin analoji dövrü ilə müqayisədə ağır və xüsusilə ağır cinayətlər 18,9 odlu silahın tətbiqi ilə törədilənlər 2 dəfə, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilənlər 19,8, qrup halında baş verənlər 18,8, məişət zəminində törədilənlər 5,5, qəsdən adam öldürmələr 39,1, mülkiyyət əleyhinə olanlar 4,2, o cümlədən oğurluqlar 6,2, dələduzluqlar 7,3 faiz azalıb.

Həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat tədbirləri ilə cinayətlərin 92,8 faizi, o cümlədən prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 232, görülmüş operativ cavab tədbirləri ilə 2196 cinayət açılıb, 4344 hüquqazidd əməlin qarşısı alınıb, axtarışda olan təqsirləndirilən şəxslərin 79,7 faizi tutulub, 3378 ədəd müxtəlif növ atıcı silah yığılıb və tapılıb.

Baş Prokurorluq və Daxili İşlər Nazirliyi tərəfindən əvvəlki illərdən bağlı qalmış cinayətlərin açılması ilə bağlı yaradılmış birgə işçi qrupun istintaq və əməliyyat-axtarış tədbirlərinin müsbət nəticələr verdiyini vurğulayan nazir vətəndaşların qanuni mənafelərinin qorunmasına və qanunçuluğun möhkəmlənməsinə xidmət etdiyini, o cümlədən cinayətlərin, onların ağır və xüsusilə ağır növlərinin azaldığını, açılması və istintaqı sahəsində əhəmiyyətli irəliləyişlərin əldə olunduğunu diqqətə çatdırıb.

Mütəşəkkil cinayətkarlıqla mübarizə tədbirləri çərçivəsində 305, o cümlədən ağır və xüsusilə ağır cinayətlər törətmiş 103 kriminal qrup zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 82 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Qeyri-leqal dövriyyədən 2 ton 958 kiloqram narkotik vasitə çıxarılıb və 151 tondan artıq narkotik xassəli bitki aşkarlanaraq məhv edilib.

Vətəndaşların qəbulu və müraciətlərinə baxılması işinin xüsusi nəzarətdə olduğu, bu baxımdan mediada qabaqcadan məlumat verilməklə 4032 şəxsin qəbul edildiyi və qaldırılan məsələlərin əksəriyyətinin öz qanuni həllini tapdığı vurğulanıb.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların hesabat dövründə bütövlükdə layiqincə yerinə yetirildiyini qeyd edib, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunan müsbət nəticələrin inkişaf etdirilməsi üçün fəaliyyətin effektivliyinin artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Vurğulanıb ki, hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, cəmiyyətin təhlükəsizlik tələblərinə cavab verən kadr potensialının formalaşdırılması DİN-in strateji prioritetlərindəndir. Müasir dövrün çağırışlarına cavab verən, qabaqcıl texnologiyaları və süni intellekt imkanlarını əməliyyat-xidməti fəaliyyətə inteqrasiya edə bilən, eyni zamanda hüququn aliliyinə sadiq, vətənpərvər və mənəvi cəhətdən formalaşmış polis əməkdaşlarının hazırlanması diqqətdə saxlanılır.

Bu baxımdan, daxili işlər orqanlarında xidmət etmək istəyən gənclərin peşəyə düzgün istiqamətləndirilməsi, onların Polis Akademiyası və Daxili Qoşunların Hərbi İnstitutuna qəbulunun təşviqi xüsusi əhəmiyyət daşıyır.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov bildirib ki, bu sahədə həyata keçirilən tədbirlər yalnız kadr çatışmazlığının aradan qaldırılması deyil, eyni zamanda yüksək mənəvi-psixoloji keyfiyyətlərə malik, intizamlı və vətənpərvər gənclərin daxili işlər orqanlarında xidmətə cəlb olunmasına yönəlib.

Qeyd olunub ki, Polis Akademiyası və Hərbi İnstitut bu gün yalnız hüquq-mühafizə sahəsi üzrə deyil, ümumilikdə dövlətçilik ideallarına sadiq, ictimai maraqlara cavab verən kadrların yetişdirilməsi baxımından strateji əhəmiyyət daşıyan xüsusi təyinatlı təhsil ocaqlarıdır. Bu məqsədlə, Polis Akademiyası və Daxili Qoşunların Hərbi İnstitutu çərçivəsində kadr hazırlığı prosesi təkcə hüquq bilikləri ilə məhdudlaşmır. Tədris proqramları qabaqcıl beynəlxalq standartlara uyğunlaşdırılır, innovativ yanaşmalar tətbiq olunur, gənclər süni intellekt, informasiya texnologiyaları, kiber təhlükəsizlik, hüquq və psixologiya kimi sahələrdə geniş bilik və bacarıqlarla təmin olunurlar.

Cəmiyyətin narkotiklərlə mübarizədə polislə həmrəyliyinə toxunan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov bu sahədə profilaktik və maarifləndirici tədbirlərin davam etdirilməsinin əhəmiyyətini qeyd edib, bütün şəxsi heyətə antinarkotik təbliğatın daha da genişləndirilməsi, gənclərin zərərli vərdişlərdən qorunması və ictimai yanaşmanın formalaşdırılması istiqamətində konkret tapşırıqlar və tövsiyələr verib.

Qeyd olunub ki, narkotiklərlə mübarizə yalnız hüquq-mühafizə orqanlarının deyil, eyni zamanda ictimaiyyətin də birgə səylərini tələb edən mühüm bir məsələdir. Bu kontekstdə vətəndaş cəmiyyəti institutlarının, media nümayəndələrinin və ictimai fəalların bu sahədəki dəstəyi xüsusi önəm daşıyır.

Nazir narkotiklərlə mübarizəyə dair təşəbbüslərdə aktiv iştirak edən jurnalistlərə, ictimaiyyət nümayəndələrinə və qeyri-hökumət təşkilatlarının nümayəndələrinə təşəkkürünü ifadə edib.

Eyni zamanda o da diqqətə çatdırılıb ki, aidiyyəti qurumlarla birgə reabilitasiya mərkəzlərinin fəaliyyəti dəstəklənməli, süni maneələr yaradılmamalı, narkotik asılılığından əziyyət çəkən şəxslərin yenidən cəmiyyətə inteqrasiyası istiqamətində səmərəli addımlar atılmalıdır.

Vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu vurğulayan nazir cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanın siyasi partiyaları sədrlərinin Qarabağa növbəti səfəri Ağdam şəhərinə təşkil edilib








Ölkədə fəaliyyət göstərən siyasi partiya sədrlərinin və nümayəndələrinin növbəti səfəri iyulun 10-da Ağdam şəhərinə təşkil olunub.

AZƏRTAC xəbər verir ki, siyasi partiya sədrlərinin işğaldan azad olunmuş ərazilərə səfərləri ölkəmizdə təşviq edilən siyasi dialoq mühitinin ayrılmaz hissəsidir. Demokratik ənənələrin dərinləşməsinə xidmət edən bu təcrübə Azərbaycan cəmiyyəti tərəfindən rəğbətlə qarşılanır və fəal şəkildə dəstəklənir. Dialoq mühiti siyasi müstəvidə tərəflər arasında etibarlı və güvənli münasibətlərin formalaşdırılmasına xidmət edir.

Son illər ərzində Ağdam, Şuşa (2 dəfə), Zəngilan (2 dəfə), Xocalı, Əsgəran, Xankəndi, Laçın və Cəbrayıla təşkil olunmuş bu cür səfərlər artıq müsbət demokratik ənənəyə çevrilmiş, onların reallaşdırılması isə cəmiyyətdə həmrəylik mühitinin qorunmasına, habelə xalqın intellektual potensialının səfərbər edilməsinə xidmət edir. Təsadüfi deyil ki, ölkənin siyasi ritorikasında ən çox rast gəlinən "siyasi dialoq" məfhumu, eyni zamanda Azərbaycanın siyasi gündəliyinə də daxil olub. Ölkədə fəaliyyət göstərən siyasi partiya sədrlərinin Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə növbəti səkkizinci birgə səfəri də məhz ölkədə mövcud açıq iqtidar-müxalifət dialoqunun bilavasitə təzahürüdür.

Prezident İlham Əliyevin təşəbbüsü ilə təşviq edilən siyasi dialoq mühiti çərçivəsində Azərbaycanda son beş il ərzində siyasi partiyaların iştirakı ilə mütəmadi olaraq müxtəlif səpkili layihələr icra edilir. Bütün təşəbbüslərin strateji hədəfi milli həmrəyliyin qorunması, habelə dövlət və cəmiyyətin inkişafı naminə vətənpərvər qüvvələrin səfərbər olunmasıdır. Siyasi proseslərdə açıq və etibarlı münasibətlərin yaşanması bilavasitə dövlətimizin başçısının məsələ ilə bağlı ali siyasi iradəsinin nümayişinin nəticəsidir. Prezident İlham Əliyev siyasətdə sağlam münasibətlərin bərqərar edilməsini və konstruktiv əməkdaşlığın vacibliyini çıxış və müsahibələrində hər zaman prinsipial olaraq vurğulayır.

İşgüzar və fəal fikir mübadiləsi şəraitində keçirilmiş səfər zamanı Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Ağdamda siyasilərin qarşısında çıxış edərək demokratik ənənələrin dərinləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində görülmüş işlər haqqında geniş məlumat verib.

Sağlam və etibarlı əməkdaşlıq mühitinin siyasi sabitliyin, dayanıqlı inkişafın əsas və prinsipial göstəricilərindən olduğunu vurğulayan Administrasiya rəsmisi bildirib ki, mövcud istiqamətdə əldə edilmiş bütün uğurların əsasında məhz Prezident İlham Əliyev tərəfindən nümayiş olunan siyasi iradə dayanıb.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbənin müasir Azərbaycan tarixinin ən qürurlu səhifəsi olduğunu bildirən Ədalət Vəliyev qeyd edib ki, bütün uğurların qorunmasında həmrəylik mühitinin müstəsna rolu var. Siyasi sabitlik, xalqın əzmkarlığı, cəmiyyətimizdə yaşanan milli həmrəylik mühiti və dönməz ali siyasi iradə Azərbaycanın inkişafının və beynəlxalq müstəvidə nüfuzunun artırılmasının əsaslarıdır.

Ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların sədr və nümayəndələri, habelə politoloq, siyasi şərhçi, internet televiziyalarının rəhbərləri və qəzet redaktorlarının iştirak etdiyi Ağdam səfərinin proqramı kifayət qədər zəngin idi. Belə ki, səfər çərçivəsində partiya sədrləri Ağdam Dəmiryol və Avtovağzal Kompleksinin fəaliyyəti ilə yaxından tanış olublar. Daha sonra səfər iştirakçılarına Xıdırlı kəndində görülən inşaat işləri haqqında geniş məlumat verilib. Ağdam Muğam Mərkəzi, Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbi, Ağdam Konqres Mərkəzi və Ağdam City Hotel mehmanxanasında olmuş qonaqlar, eyni zamanda İmarət Kompleksi və Cümə Məscidini də ziyarət ediblər.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov qonaqların qarşısında çıxış edərək bildirib ki, Ağdamda qısa müddət ərzində görülən işlərin timsalında işğaldan azad olunmuş bütün ərazilərdə aparılan genişmiqyaslı işlər Azərbaycan dövlətinin iqtisadi qüdrətini nümayiş etdirir. Qeyd olunub ki, görülən işlərin sürəti və yüksək keyfiyyəti Qarabağın dünyanın ən füsunkar məkanlarından birinə çevriləcəyindən xəbər verir.

Eyni zamanda Ağdam Sənaye Parkı haqqında da geniş məlumat verilib. Parkda ümumi investisiyalarının məbləği 238 milyon manatdan çox olan 27 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu 33 sahibkarlıq subyekti tərəfindən sənaye parkında ümumilikdə 2090 iş yerinin yaradılması nəzərdə tutulur. Artıq bu günədək rezidentlər tərəfindən sənaye parkına 72 milyon manatdan çox investisiya yatırılıb, 300-dək daimi iş yeri yaradılıb.

"Böyük Qayıdış" Proqramı çərçivəsində görülən işlər haqqında səfər iştirakçılarına məlumatların verilməsi zamanı bildirilib ki, Ağdamın turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə uzlaşdırılacaq. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcək. Yaradılacaq yeni infrastruktur layihələri Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq. Ağdamda beynəlxalq tədbirlərin keçirilməsi faktı isə bütün Qarabağın dünyanın siyasi xəritəsində nüfuzlu məkanlarından birinə çevrilməsi deməkdir.

# 27 şəhər və rayonda sosial reabilitasiya mərkəzləri fəaliyyətə başlayıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin əlilliyi olan uşaqlarla bağlı layihəsi çərçivəsində 27 şəhər və rayonda sosial reabilitasiya mərkəzləri fəaliyyətə başlayıb.

Agentliyin sosial sifarişləri əsasında yaradılan bu mərkəzlər Ağcabədi, Ağstafa, Balakən, Bərdə, Daşkəsən, Füzuli, Kürdəmir, Gəncə, Göygöl, Qax, Qazax, Qəbələ, Qobustan, Mingəçevir, Naftalan, Oğuz, Sabirabad, Samux, Şabran, Şamaxı, Şəki, Tərtər, Tovuz, Yardımlı, Yevlax, Zaqatala və Zərdab rayonlarını əhatə edir.

Yeni fəaliyyətə başlayan mərkəzlərdə əlilliyi olan uşaqlara sosial-psixoloji reabilitasiya və abilitasiya xidmətləri göstərilir. Bu xidmətlər çərçivəsində uşaqlarla fərdi və qrup şəklində psixoloji məşğələlər keçirilir, həmçinin onların sosial ünsiyyət və özünəqulluq bacarıqları inkişaf etdirilir.

Layihənin məqsədi əlilliyi olan uşaqların sosial reabilitasiya xidmətləri ilə əhatə olunaraq, onların cəmiyyətə inteqrasiyasının dəstəklənməsidir. Layihə çərçivəsində ümumilikdə əlilliyi olan 1400-dək uşağa xidmətlərin göstərilməsi nəzərdə tutulur.

# "Tərlan - 2025" PUA təlimi yekunlaşıb



Azərbaycan və Qazaxıstanın hərbi qulluqçularının iştirakı ilə ölkəmizdə keçirilən Pilotsuz Uçuş Aparatları (PUA) sahəsində "Tərlan - 2025" birgə taktiki-uçuş təlimi uğurla başa çatıb.

Müdafiə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a verilən məlumata görə, təlim çərçivəsində qarşıya qoyulmuş tapşırıqlar hər iki ölkənin hərbi qulluqçuları tərəfindən dəqiqliklə yerinə yetirilib. Plana uyğun olaraq, mərhələlər üzrə qarşılıqlı əlaqədə icra olunan fəaliyyətlər zamanı iştirakçılar yüksək döyüş hazırlığı və peşəkarlıq nümayiş etdiriblər. Təlimdə taktiki və əməliyyat PUA-larının uçuşları həyata keçirilib. Əraziyə çıxarılan mini PUA-lar vasitəsilə əvvəlcədən aşkarlanmış hədəflər barədə detallı kəşfiyyat məlumatları toplanıb, sonra isə əməliyyat-taktiki PUA-lar vasitəsilə həmin hədəflər zərərsizləşdirilib.

Təlim rəhbərliyi şəxsi heyətin peşəkarlığını və hazırlıq səviyyəsini yüksək qiymətləndirib. Sonda "Tərlan-2025" birgə taktiki-uçuş təlimində xüsusi fərqlənən Azərbaycan və Qazaxıstanın hərbi qulluqçuları "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı və qiymətli hədiyyələrlə mükafatlandırılıb, iştirakçılara sertifikatlar təqdim olunub.

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider



## Azərbaycanın başlatdığı sülh prosesi bəhrəsini verir

### Tərəflər heç bir vasitəçiyə ehtiyac görmədən ikitərəfli danışıqlar apardılar

**"Bizə bu məsələdə vasitəçi lazım deyil. Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq. Beş məlum prinsipin də müəllifi biz olmuşuq. Sülh müqaviləsinin mətnini də biz yazmışıq, Ermənistan tərəfinə göndərmişik. İndi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək".**

Ötən il fevralın 14-də keçirilən inaqurasiya mərasimindəki çıxışında Prezident İlham Əliyevin bəyan etdiyi kimi, Bakının həyata keçirdiyi qətiyyətli siyasət sayəsində üç onillik boyu bölgədə yaşanan münaqişəyə son qoyulub. Vasitəçilər tərəfindən düz 25 il sürdürülən, amma heç bir nəticə əldə edilməyən mənasız danışıqlara yekun vurulub. Azərbaycanın qətiyyəti, gücü sayəsində "Qarabağ münaqişəsi" birdəfəlik həll edilib, regionda yeni reallıqlar yaranıb və davamlı sülh üçün mühüm zəmin formalaşıb.

44 günlük Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində torpaqlarını işğaldan azad edən və suverenliyini tam təmin edən Azərbaycan Ermənistanla münasibətlərin normallaşması istiqamətində də praktiki və effektiv addımlar atıb. İkinci Qarabağ müharibəsi bitdikdən dərhal sonra rəsmi Bakı İrəvana təkmil sülh modeli irəli sürüb.

Ötən müddətdə Azərbaycan-Ermənistan normallaşma prosesinin yalnız tərəflər arasında nizamlanması, üçüncü tərəflərə lüzum görülmədən həyata keçirilməsi xüsusi diqqət çəkir.

Faktdır ki, həm münaqişə, həm də postmünaqişə dövründə məhz tərəflər arasında vasitəçilik etmək istəyən dairələrin qərəzli mövqe sərgiləmələri Ermənistan-Azərbaycan arasında barışın əldə olunmasına birbaşa əngəl yaradan faktorlardan olub.

Bu mənada Azərbaycanın səyləri ilə iki ölkə arasında artıq ikitərəfli danışıqlar aparılması mühüm irəliləyiş kimi dəyərləndirilməlidir.

#### Normallaşma istiqamətində mühüm addımlar atılır

Vurğuladığımız kimi, Azərbaycanın bölgədə yaratdığı gerçəklərdən biri də İkinci Qarabağ müharibəsinə qədər düşmən olan ölkələrin aralarında olan problemləri, məsələləri dialoq yolu ilə çözməyə üstünlük verilməsidir.

Hələ 2023-cü ilin dekabrında Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası baş nazirinin aparatı birgə açıqlama yaymışdılar: "Azərbaycan Respublikası və Ermənistan Respublikası regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün tarixi fürsətin yarandığı fikrini bölüşür. İki ölkə münasibətləri normallaşdırmaq, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında sülh sazişinə nail olmaq niyyətini bir daha təsdiq edir".

Açıqlamada o da qeyd olunur ki, Azərbaycan və Ermənistan yaxın gələcəkdə əlavə etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi üçün müzakirələri davam etdirəcəklər və beynəlxalq ictimaiyyəti iki ölkənin qarşılıqlı etimadın yaradılmasına töhfə verəcək, bütün Cənubi Qafqaz regionuna müsbət təsir göstərəcək səylərini dəstəkləməyə çağırırlar.

Ötən il Ermənistan ilə Azərbaycan arasında sülh istiqamətində xeyli vacib addımlar atıldı. Vasitəçilərə ehtiyac görmədən iki ölkə dialoqlara başladı, razılaşmalar əldə edildi. 2024-cü ilin fevralında Almaniyada Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanın görüşü zamanı sülh gündəliyinin irəlilədilməsinə dair müsbət müzakirələr aparıldı. Həmin ilin fevralında Berlində Ermənistan ilə Azərbaycan arasında sülh sazişi layihəsini müzakirə etmək üçün iki ölkənin xarici işlər nazirləri arasında ikitərəfli görüş keçirildi.

2024-cü ilin 10-11 mayında Azərbaycan və Ermənistan XİN rəhbərləri arasında Qazaxıstanın Almatı şəhərində danışıqlar aparıldı.

Tərəflər arasında birbaşa danışıqların aparılması sülh sazişinin imzalanması ilə bağlı real müstəvidə də mühüm nəticələrə nail olunmasına gətirib çıxardı. Belə ki, sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə artıq start verildi, sərhəd dirəklərinin quraşdırılmasına başlanıldı. Qazax rayonunun işğal altında olan kəndləri - Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndləri qaytarıldı.

Əldə olunmuş razılıq delimitasiya istiqamətində atılan ilk addımdır və delimitasiyanın məhz bu istiqamətdən başlaması Azərbaycanın təkidi ilə olub. Tərəflər razılaşıblar ki, delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaqlar.

#### Sülh və dövlətlərarası münasibətlərin qurulması

Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsinin mətni ətrafında danışıqlar prosesinin yekunlaşması normallaşma istiqamətində vacib əhəmiyyət daşıyır.

Bu il martın 13-də Ermənistanla Azərbaycan arasında sülh sazişi layihəsi ilə bağlı danışıqlar prosesinin yekunlaşması barədə hər iki ölkənin rəsmiləri məlumat verdilər. Azərbaycan Xarici İşlər Nazirliyinin Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşmasına dair yaydığı bəyanatda deyilir ki, iki ölkə arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşdığını məmnunluqla qeyd edirik. Bununla yanaşı, danışıq aparılmış mətnin imzalanması üçün əsas şərtin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaların aradan qaldırılması məqsədilə Ermənistanın konstitusiyasına dəyişiklik edilməsi olduğu barədə Azərbaycanın uzunmüddətli və prinsipial mövqeyini bir daha diqqətə çatdırırıq. Eyni zamanda ATƏT-in köhnəlmiş və qeyri-funksional Minsk qrupunun və aidiyyəti strukturların rəsmi şəkildə ləğv olunmasının zəruriliyini vurğulayırıq: "İki ölkə arasında normallaşma prosesi ilə bağlı bu və digər məsələlər üzrə ikitərəfli dialoqu davam etdirməyə hazırıq".

Vurğulayaq ki, Azərbaycanın səyləri ilə əldə olunan bu müsbət irəliləyişlər beynəlxalq ictimaiyyət tərəfindən də alqışlanır.

#### İkitərəfli görüş sülh gündəliyinin irəliləməsində mühüm rol oynayacaq

Bu il iyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü də sülh prosesində vacib məqam kimi qiymətləndirilməlidir. Azərbaycan və Ermənistan liderlərinin ikitərəfli görüşü sülh gündəliyinin irəliləməsi baxımından mühüm əhəmiyyətə malik olacaq. Sözügedən mühüm görüşdə iki ölkə arasında sülh və normallaşma istiqamətində reallaşdırılacaq məsələlərlə bağlı müzakirələr aparılıb, razılaşmalar əldə edilib.

Azərbaycan Xarici İşlər Nazirliyinin Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Əbu-Dabi şəhərində keçirilmiş görüşün yekunlarına dair mətbuat məlumatında da vurğulanır ki, görüşdə Azərbaycan-Ermənistan dövlətlərarası normallaşma gündəliyinin müxtəlif aspektləri müzakirə edilib.

İkitərəfli danışıqların normallaşma prosesi ilə bağlı bütün məsələlərin həlli üçün ən səmərəli format olduğu təsdiqlənib və bu əsasda belə nəticəyönümlü dialoqun davam etdirilməsi razılaşdırılıb.

Sərhədin delimitasiyası prosesi ilə bağlı əldə olunmuş nailiyyətləri dəyərləndirən liderlər bu istiqamətdə əməli işlərin davam etdirilməsi üçün müvafiq dövlət komissiyalarına tapşırıqlar veriblər.

Tərəflər həmçinin iki ölkə arasında ikitərəfli danışıqları və etimad quruculuğu tədbirlərini davam etdirmək barədə razılığa gəliblər.

Rəsmi Bakı hər zaman sülh gündəliyinə sadiqlik nümayiş etdirir və regionda barışın əldə olunması üçün aktiv fəaliyyət göstərir. Sülh təşəbbüsünün müəllifi olan Azərbaycan müqavilənin imzalanması üçün beynəlxalq hüquqa dayanan şərtlərini də qətiyyətlə bildirib. Ermənistan Azərbaycan ərazilərinə iddia olan konstitusiyasını dəyişdirməli və ATƏT-in keçmiş Minsk qrupunun ləğvi ilə bağlı ölkəmizlə birgə müraciət etməlidir. Ermənistan konstitusiyasının preambula hissəsində müstəqillik bəyannaməsinə istinadən ərazi iddiaları yer alır. Həmçinin dünyada artıq Qarabağ münaqişəsi adlı bir münaqişə mövcud olmadığı üçün ATƏT-in keçmiş Minsk qrupuna da ehtiyac yoxdur və sadəcə ölü qurumun de-yuri ləğvi lazımdır.

Bütün bunlardan sonra bölgədə birbaşa təhlükəsizliyin, inkişafın, tərəqqinin açarı olan sülh müqaviləsinin imzalanması üçün heç bir əngəl qalmayacaq.

Ermənistan ilə Azərbaycan arasında normallaşma istiqamətində müşahidə edilən müsbət irəliləyişlər, əldə olunan razılaşmalar, həmçinin Fransa, Rusiya və digər kənar vasitəçilərə ehtiyac görmədən ikitərəfli danışıqların aparılması isə onu göstərir ki, Azərbaycanın başlatdığı sülh prosesi addım-addım məntiqi sonluğuna yetişir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Əbu-Dabi görüşü İrəvan üçün əhəmiyyətli ola bilər

### Ermənistan konstitusiyasında dəyişiklik olmayınca, sülh müqaviləsi imzalanmayacaq

İyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş keçirilib.

Görüşün əhəmiyyətindən danışan Milli Məclisin deputatı Arzu Nağıyev qəzetimizə açıqlamasında bildirib ki, bu gün Ermənistan daxilində baş verən hadisələr, siyasi gedişlər, eyni zamanda 2026-cı ildə Ermənistanda nəzərdə tutulan seçkilər və sair bu məsələlər fonunda Azərbaycan Prezidenti ilə keçirilən görüş Ermənistan üçün əhəmiyyətli ola bilər: "Azərbaycanı maraqlandıran əsas məsələ sülh müqaviləsinin imzalanması və regionda sabitliyin bərqərar olmasıdır. Bunun üçün Azərbaycan tərəfi bir neçə şərt irəli sürüb. Bu görüşdə deklorativ bəyanatlar deyil, imzalana biləcək müqavilənin detalları, onları necə həyata keçirmək məsələləri əsas müzakirə mövzusudur. Ermənistan konstitusiyasında dəyişiklər, Avropa İttifaqının vizual kəşfiyyatçılarının sərhəddə apardığı müşahidələrin dayandırılması, ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciət ölkəmizin əsas şərtidir. Hər üç məsələyə Ermənistan aydınlıq gətirməli və problemlər öz həllini tapmalıdır".

Deputat qeyd edib ki, əsas problemlərdən biri də Zəngəzur dəhlizi ilə bağlıdır. Dəhlizlə bağlı Ermənistanın mövqeyi məlumdur. Bunun hansı problemlər gətirdiyi, eyni zamanda Rusiya, İran və digər dövlətlərin mövqeyi hələ açıq qalır. Azərbaycanın birmənalı şəkildə təkidi və tələbi odur ki, Zəngəzur dəhlizi açılmalıdır. Son vaxtlar ABŞ-də dəh-



lizlə bağlı bəyanatlar verilir. Bu dəhlizin açılmasında Amerika da mararqlıdır. Bunların hamısına aydınlıq gətirilməlidir. "Bugün hamı ciddi-cəhdlə çalışır ki, iki ölkə arasında danışıqlarda vasitəçi rolunu öz üzərinə götürsün. Bundan başqa, Ermənistan konstitusiyasında dəyişikliyin necə ediləcəyi, siyasi məsələlərdə bu ölkənin seçiciləri və ya vətəndaşlarının mövqeyinin necə olacağı əsas məqamlardır", - deyə o bildirib.

A.Nağıyev düşünür ki, bu görüş yaranmış gərginlikləri aradan qaldırmaq üçün imkan yaradıb. Onun fikrincə, 2026-cı ildə Ermənistanda keçiriləcək seçkilərə qədər sülh müqaviləsi imzalanmayacaq. Ermənistan konstitusiyasında dəyişiklik olmasa, bu problem yenidən yarana bilər, hətta sülh sazişi Ermənistan parlamentində ratifikasiyadan keçməz.

Deputat deyib ki, Paşinyanın hakimiyyətdə qalması ilə, təbii ki, irəli sürülən şərtləri yerinə yetirdiyi halda sülh sazişinin imzalanması da mümkün ola bilər. "Sülh sazişinin imzalanması 2026-cı ilin ikinci yarısı və ya 2027-ci ildə gözləniləndir. Bu, Ermənistandakı siyasi proseslər, həmçinin Avropa İttifaqının, Qərbin, Rusiyanın təkidi və təsirindən də asılıdır. Azərbaycan bu gün müstəqil olaraq daxili və xarici siyasətini həyata keçirir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun istər daxili, istərsə də xarici siyasətdə islahatlar aparılır. Bu məsələlərdə də əsas diktə edən tərəfin Azərbaycan olduğunu görürük. Bu, aparılan stabil siyasətin təzahürüdür", - deyə Arzu Nağıyev sonda bildirib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Əbu-Dabi görüşü normallaşma gündəliyinin ən tarixi görüşlərindən biridir



"Əbu-Dabidə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüş tarixi olmaqla yanaşı, həm də region üçün çox mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, Əbu-Dabi iki ölkə arasında baş verənlərlə bağlı neytral mövqedədir və Azərbaycan tərəfinin də görüş yeri kimi Birləşmiş Ərəb Əmirliklərini seçməsinin ən əsas səbəblərindən biri budur. BƏƏ görüşdə heç bir tərəf rolunu oynamır, sadəcə, görüş üçün şəraiti və mühiti təmin edir. Danışıqlar da sırf ikitərəfli xarakterlidir və vasitəçiyə ehtiyac yoxdur, problemlərin iki ölkə arasında birbaşa həll olunması ən optimal variantdır. Biz daha əvvəl 30 illik işğal dövründə kənar müdaxilələrin "fəaliyyətinin" və fəaliyyətsizliyinin çox yaxından şahidi olmuşuq. Düşünürəm ki, bu görüş sülh müqaviləsinə gedən yolda önəmli addım və prosesin mühüm halqası kimi dəyərləndirilməlidir".

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Ülviyyə Zülfiqar söyləyib.

O bildirib ki, görüşdə sərhədin delimitasiyası prosesi ilə bağlı əməli işlərin davam etdirilməsi üçün müvafiq dövlət komissiyalarına tapşırıqlar verilib. Bu da regionun kommunikasiya xətlərinin açılması və münasibətlərin normallaşdırılması baxımından böyük əhəmiyyət daşıyan məqamdır. Bütün bunlar bir daha göstərir ki, Bakı ilə İrəvan arasında real və praqmatik dialoq üçün yeni imkanlar yaranıb. Ermənistan tərəfi bu imkanı yaxşı dəyərləndirməli, regionda öz işğalçılıq siyasəti ucbatından bu günə kimi yaşadığı blokadadan çıxmaq üçün və ölkəsinin rifahı naminə sülh prosesinə sadiq qalmalıdır.

## Əbu-Dabi görüşü Azərbaycanın sülh gündəliyində təşəbbüskar tərəf olduğunu bir daha nümayiş etdirdi



"Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Birləşmiş Ərəb Əmirliklərində keçirilən son görüş regional sabitlik və sülh gündəliyinin irəlilədilməsi baxımından mühüm mərhələ sayıla bilər. Görüşün konstruktiv və qarşılıqlı anlaşma mühitində keçməsi, tərəflərin əsas məsələlər üzrə, o cümlədən sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizinin açılması və sülh müqaviləsinin paraflanması istiqamətində ciddi və substantiv müzakirələr aparması diqqət çəkir. Bu görüşün ən önəmli tərəfi odur ki, prosesin liderliyini Azərbaycan öz üzərinə götürüb. Prezident İlham Əliyevin hərbi, siyasi və diplomatik müstəvidə ardıcıl, prinsipial mövqeyi Azərbaycanın sülh gündəliyində təşəbbüskar tərəf olduğunu bir daha nümayiş etdirdi. Bakı yalnız regional kommunikasiyaların bərpasının və inteqrasiyanın təmin olunması ilə maraqlanmadığını, eyni zamanda Cənubi Qafqazda dayanıqlı sülhə nail olmaq üçün real siyasi iradə ortaya qoyduğunu sübut etdi".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Züriyə Qarayeva söyləyib.

O bildirib ki, Azərbaycanın bu istiqamətdə atdığı addımlar Ermənistan tərəfindən də artıq müəyyən mənada qəbul olunur və bu, BƏƏ-dəki görüşdə konstruktiv ab-havanın yaranmasında əhəmiyyətli rol oynayıb. Bu kontekstdə görüşün BƏƏ kimi neytral və regional maraqları olmayan bir ölkədə keçirilməsi də səmimiyyəti və qarşılıqlı güvəni artıran amil kimi çıxış edib. "Nəticə etibarilə BƏƏ görüşü Azərbaycanın diplomatik çevikliyi, strateji düşüncəsi və liderlik qabiliyyəti fonunda regionda yeni reallıqların formalaşmasında mühüm addım kimi qiymətləndirilə bilər. Sülh müqaviləsinə aparan yolda bu cür təmasların davam etdirilməsi isə Bakının irəli sürdüyü konstruktiv xəttin bölgədə nə qədər cəlbedici və rasional olduğunu bir daha təsdiqləyir", - deyə politoloq vurğulayıb.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Məsafə qısalır, çatdırılma sürətlənir, xərclər azalır

### Bakı-Tbilisi-Qars dəmir yolu Şərqlə Qərbi birləşdirən strateji nəqliyyat arteriyasına çevrilir

Müasir dövrdə ölkələr arasında əlaqələrin məzmunu yeni keyfiyyət dəyişikliklərinə məruz qalsa da, ticari və iqtisadi dəhlizlərin əhəmiyyəti öz aktuallığını yenə də qoruyub saxlayır. Xüsusən qloballaşan dünyamızın yeni geoiqtisadi çağırışları kontekstində ölkəmizin bu sahədə rolu artaraq strateji əhəmiyyət kəsb edir.




Tarixi İpək yolunun keçdiyi Azərbaycanın yerləşdiyi ərazi bütün dövrlərdə Avropa və Asiyanı, ən uzaq dövlətləri birləşdirən, strateji ticari-iqtisadi dəhlizlərin qovuşduğu məkanlardan biri olub. Azərbaycan qısa zaman ərzində nəqliyyat infrastrukturunu getdikcə daha da möhkəmləndirərək, dəniz nəqliyyatına, dəmir yoluna böyük investisiyalar yatırıb. Bu sərmayələr artıq ölkəmizə böyük iqtisadi və siyasi uğurlar gətirməkdədir.

Bu gün Cənubi Qafqazın ən böyük və ən perspektivli dövləti sayılan Azərbaycan regionda gedən əsas proseslərin və transmilli maraqların mərkəzində dayanmaqla geoiqtisadi cəhətdən dünyanın aparıcı dövlətləri, böyük şirkətləri üçün cəlbedici tərəfdaş hesab olunur.

#### Okeanlara çıxışı olmayan ölkənin yüksələn tranzit potensialı

Unikal coğrafi geosiyasi şəraitə malik olan Azərbaycan dünya təsərrüfatının nəqliyyat sektorunda baş verən proseslərdən kənarda qalmır.

Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə həyata keçirilən nəhəng qlobal layihələr ölkəmizin nəqliyyat qovşağına çevrilməsinə, tranzit potensialının güclənməsinə xidmət edir. Digər sahələrdə olduğu kimi, ölkə iqtisadiyyatında da əhəmiyyəti böyük olan nəqliyyat sektorunun inkişafı, tranzit imkanlarının genişləndirilməsi üçün mühüm işlər görülür. Ölkəmizin daxilində həm müasir nəqliyyat infrastrukturu yaradılır, həm də tranzit potensialı gücləndirilir.

Bəllidir ki, Azərbaycanın açıq dənizlərə, okeanlara çıxışı yoxdur. Bu səbəbdən də ölkənin bütün nəqliyyat, enerji, kommunikasiya xətləri başqa digər dövlətlərin ərazisindən keçməlidir. Buna nail olmaq üçün mütləq öncə qonşu dövlətlərlə və daha böyük coğrafiyanı əhatə edən ölkələrlə sıx dostluq münasibətləri yaradılmalıdır.

İlham Əliyevin həyata keçirdiyi müstəqil xarici siyasət nəticəsində Azərbaycan Ermənistan istisna olunmaqla bölgədəki bütün dövlətlərlə çox yaxşı dostluq münasibətləri qurub. Bu münasibətlər sayəsində isə beynəlxalq layihələr gerçəkləşdirilib. İnfrastruktur obyektlərinin yaradılması, logistika sistemlərinin təkmilləşdirilməsi etibarlı və təhlükəsiz nəqliyyat sisteminin fəaliyyəti, Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizlərinin inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

Ölkəmiz həmçinin Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropa dövlətlərini birləşdirən "Şərq-Qərb", həmçinin Pakistan, Hindistan, İran, Rusiya, Şimali Avropa ölkələrini qovuşduran "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin iştirakçısıdır.

Ümumiyyətlə, bu nəqliyyat dəhlizlərində iştirak edən ölkələrin sayına, onların gücünə baxsaq, görərik ki, bu, doğrudan da, genişmiqyaslı beynəlxalq əməkdaşlıq formatıdır.

Prezident İlham Əliyev Azərbaycanın bu istiqamətdəki uğurlarını dəyərləndirərkən vurğulayıb ki, bu nəqliyyat bağlılığı, eyni zamanda mehriban qonşuluğa da gözəl şərait yaradır. Heç bir ölkə, əgər qonşularla yaxşı münasibətləri yoxdursa, heç vaxt etibarlı tranzit məntəqəsinə çevrilə bilməz. Ona görə Azərbaycanın enerji, nəqliyyat, infrastruktur layihələri ölkələr arasındakı əməkdaşlığı stimullaşdırır.

Nəzər yetirsək görərik ki, son 20 ildə Azərbaycanda çox müasir nəqliyyat infrastrukturu yaradılıb. Bunların sırasında 9 beynəlxalq hava limanı, ölkəmizi bütün qonşu ölkələrlə bağlayan 21 min kilometrdən çox avtomobil yolları, Xəzər hövzəsində böyük ticarət donanması, Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanını göstərmək olar.

Bu il may ayının 21-də Macarıstanın paytaxtı Budapeştdə Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Prezident İlham Əliyev Azərbaycanın bu sahədə həyata keçirdiyi layihələrdən söz açaraq deyib ki, son illər ərzində ölkəmizdə nəqliyyat infrastrukturuna - avtomobil yollarına, dəmir yolu xətlərinə, dəniz limanına, gəmiqayırma zavoduna, hava nəqliyyatına böyük həcmdə sərmayələr qoyulub. Nəticədə açıq dənizlərə çıxışı olmasa da, Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilib.

Türkiyənin və Mərkəzi Asiya dövlətlərinin Azərbaycan ərazisindən tranzit keçən daşımalarının həcmi 2024-cü ildə 11 milyon ton təşkil edib.

Orta dəhlizin bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun daşıma qabiliyyəti keçən il Azərbaycanın vəsaiti hesabına 5 milyon tona çatdırılıb. Bu da onu göstərir ki, Azərbaycan Orta dəhlizin rəqəmsallaşdırılmasına böyük önəm verir. Hazırda Xəzər dənizi limanları arasında nəqliyyat əməliyyatlarının və ticarətin sadələşdirilməsini nəzərdə tutan vahid rəqəmsal platformanın yaradılması layihəsi üzərində işlər davam etdirilir. Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Hazırda Bakı gəmiqayırma zavodunda 10 yeni gəmi inşa edilir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyəti 15 milyon tondan 25 milyon tona çatacaq.

#### Bakı-Tbilisi-Qars dəmir yolunun imkanları genişləndirilir

Qitələrarası daşımalar üçün geniş imkanlar açan Bakı-Tbilisi-Qars dəmir yolu Çin ilə Avropa ölkələri arasında ən qısa marşrut hesab olunur. Bu yol yüklərin daşınmasına sərf edilən vaxtı iki dəfədən çox qısaltmağa imkan verir.

Bakı-Tbilisi-Qars dəmir yolu Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır.

Bu il Azərbaycanla Çin arasında imzalanmış müxtəlif sazişlər onu deməyə əsas verir ki, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin potensialı daha da gücləndiriləcək.

Prezident İlham Əliyevin aprelin 22-də Çinə dövlət səfəri ikitərəfli münasibətlərin inkişafında mühüm mərhələ olub. Əməkdaşlığın əsas elementlərindən biri Azərbaycanın Şərqlə Qərb arasında mühüm tranzit əlaqəsi kimi qəbul etdiyi Orta dəhlizin inkişafıdır. Çin-Qazaxıstan-Azərbaycan-Gürcüstan-Avropa marşrutu üzrə müntəzəm daşımalar çatdırılma müddətinin azaldılmasına və logistik həllərin şaxələndirilməsinə kömək edir. Səmərəli əməkdaşlığın nəticəsi olaraq 2024-cü ildə iki ölkə arasında dəmiryol nəqliyyatı ilə daşınan yüklərin həcmi 47 faiz artaraq 612 min ton təşkil edib. 2024-cü ildə Çindən 287 blok-qatar qəbul edilib, bu ilin 6 ayı ərzində bu göstərici artıq 199 blok-qatar təşkil edib. İlin sonunadək isə 400-dən çox blok-qatarın qəbulu gözlənilir.

Bu günlərdə "Azərbaycan Dəmir Yolları" QSC və "Çin Dəmir Yolları" Dövlət Korporasiyası arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, iki ölkə beynəlxalq nəqliyyat dəhlizlərinin və yükdaşıma əməliyyatlarının inkişafı üzrə fəal əməkdaşlıq edəcək. Bu sənəd Bakı-Pekin münasibətlərinə yeni dinamika qazandırmaqla yanaşı, Avrasiya boyunca fasiləsiz bağlantı üçün mühüm addım kimi qiymətləndirilir.

Sənəddə əsas diqqət Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin gücləndirilməsinə yönəlib. İki qurum Türkiyəyə, ardınca Avropaya çıxış imkanı verən Bakı-Tbilisi-Qars marşrutu üzrə nəqliyyat əlaqəsinin inkişaf etdirilməsi barədə razılığa gəlib. Bu xətt vasitəsilə Çin istehsal mərkəzlərinin Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropa bazarlarına çıxışı daha da sürətlənəcək. Bundan başqa, tərəflər dəmir yolu və liman imkanlarının birgə inkişafı, Xəzər dənizi üzərindən konteyner daşımalarının genişləndirilməsi, gündəlik blok-qatarların sayının artırılması və 10 qatarın keçidinə nail olunması istiqamətində əməkdaşlığı dərinləşdirməyə razılaşıblar.

Artıq Bakı-Tbilisi-Qars bu hədəflər fonunda Şərqlə Qərbi birləşdirən, yüksək ötürmə qabiliyyətli strateji nəqliyyat arteriyasına çevrilməkdədir. Bu istiqamətdə mühüm işlər görülüb və proses davam etməkdədir. Belə ki, 2023-2024-cü illərdə ADY tərəfindən Orta dəhlizin vacib seqmenti olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Gürcüstan hissəsində modernləşdirmə işləri aparılıb. Bu, ölkəmizin tranzit potensialının artırılması və bütövlükdə Orta dəhlizin rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində mühüm addımdır.

Onu da vurğulayaq ki, Çindən Orta dəhliz vasitəsilə iyulun 9-da Avropaya yeni yük qatarı marşrutu açılıb. Çinin qərbindəki ən iri 2 şəhəri olan Çendu və Çonçindən yükləri götürən ultraekspres blok-qatarı Sincan Uyğur Muxtar Rayonundakı Horqos terminalından Qazaxıstana keçəcək. Kommunikasiya avadanlığı, avtomobil hissələri və digər mallarla yüklənmiş qatar Orta dəhlizlə yolunu davam edərək, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyədən keçərək yükləri Avropa ölkələrinə çatdıracaq.

Bu, son 10 gün ərzində Çindən Orta dəhliz vasitəsilə Avropaya açılan 2-ci yük qatarı marşrutudur. İyunun 30-da paytaxt Pekindən Avropaya ilk yük qatarı yola salınıb. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) üzrə hərəkət edən qatarın yola düşəndən 15 gün sonra Bakıya çatması gözlənilir. Qatar ənənəvi dəniz yolu ilə müqayisədə yükləri Bakıya 30 gün daha tez çatdıracaq. Qatardakı bəzi yüklər Bakıdan Gürcüstan, Türkiyə və Serbiyaya yola salınacaq.

Göründüyü kimi, Azərbaycan-Çin əlaqələrinin inkişafı həm də Avrasiyanın nəqliyyat əlaqəsinin gücləndirilməsinə və dayanıqlı logistika zəncirlərinin inkişafına mühüm töhfə verir.

Bütün bunlar, əlbəttə ki, onu deməyə əsas verir ki, Azərbaycan Avrasiya məkanının mühüm logistik mərkəzlərindən birinə çevrilərək yeni təşəbbüslər irəli sürməkdə davam edir. İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan respublikamız müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə də etibarlı təminat verir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Uğurlu və səmərəli əməkdaşlıq

### Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri ilə birgə həyata keçirdiyi "yaşıl enerji" layihələri xüsusi əhəmiyyət kəsb edir

"Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında bir çox sahədə əlaqələr mövcuddur. Enerji sahəsində əməkdaşlıq isə xüsusi qeyd olunmalıdır. 2023-cü ildə SOCAR ilə Əbu-Dabi Milli Neft şirkəti (ADNOC) arasında strateji əməkdaşlıq sazişi bağlanıb. Müqavilə Dubayda keçirilən COP28 tədbiri çərçivəsində imzalanıb".



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib. O bildirib ki, alternativ enerjidən istifadə edilməsi məqsədilə ölkələrimizin birgə həyata keçirdiyi "yaşıl enerji" layihələri xüsusi əhəmiyyət kəsb edir. BƏƏ-nin "Masdar" şirkəti ölkəmizdə nəhəng günəş elektrik stansiyası qurub ki, bu, MDB-də ən böyük GES-dir. "Dubayda keçirilən COP28 tədbirinin təşkili zamanı əldə edilən təcrübə mübadiləsi də COP29-un uğurlu təşkilati məsələlərinə töhfə verib. Üçlük formatında "COP28-COP30" - BƏƏ, Azərbaycan, Braziliya üçlüyünün qrupu yaradılıb ki, bu da iqlim dəyişmələri ilə mübarizə sahəsində uğurlu əməkdaşlığın artırılmasına xidmət edir. Həmçinin bu formatla təkcə ekologiya sahəsində deyil, eyni zamanda mədəniyyət, səhiyyə, təhsil, iqtisadiyyat, hətta qeyri-hökumət təşkilatlarının əməkdaşlığı bu 3 ölkənin müvafiq sahələri ilə əlaqələri genişləndirib", - deyə deputat bildirib.

P.Vəliyeva vurğulayıb ki, COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında Prezident İlham Əliyevin "Masdar" şirkətinin adını çəkməsi də təsadüfi deyil, bu, iki ölkə arasında qarşılıqlı səmimi münasibətlərdən xəbər verir. Əbu-Dabi Azərbaycanla Ermənistan arasında sülh danışıqlarına evsahibliyi edir. Azərbaycan dünyaya sülh mesajlarını BƏƏ-dən çatdırır, taleyüklü məsələnin müzakirəsi bu ölkədə aparılır. Regionda yeni reallıqlar yaradan, üç onillik hökm sürən ədalətsizliyə son qoyaraq mövcud nizamı öz xeyrinə dəyişən Azərbaycan sülh təşəbbüskarı və tərəfdarı olaraq bu mövqedə prinsipialdır və proqnozlaşdırmaq olar ki, sülh yaxındır.

Deputat qeyd edib ki, Azərbaycanın bu addımı bütün dünyaya və münaqişə şəraitində olan ölkələrə nümunədir. Prezident İlham Əliyevin qətiyyəti və güclü iradəsi sayəsində ərazilərimiz işğaldan azad olunduğu və hazırda dirçəldiyi kimi, bütün proseslərin davamında imzalanacaq sülhlə də Cənubi Qafqaza yeni bir dövr gələ və regionun sürətli dirçəlişi baş verə bilər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Azərbaycanın dostu və tərəfdaşı

Azərbaycanın xarici siyasətində əsas istiqamətlərdən birini ərəb dünyası ilə münasibətlər təşkil edir. Bu ölkələr də Azərbaycanla əlaqələrə xüsusi önəm verir, respublikamızın regionda və qlobal səviyyədə yerini və rolunu düzgün qiymətləndirirlər. Prezident İlham Əliyevin bu günlərdə Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) işgüzar səfəri də deyilənləri təsdiqləyir.



#### Yüksək siyasi və iqtisadi əlaqələr

Birləşmiş Ərəb Əmirlikləri yalnız yerləşdiyi coğrafiyada və ya müsəlman aləmində deyil, dünyada özünəməxsus inkişaf göstəriciləri ilə fərqlənir. Azərbaycan-BƏƏ münasibətləri isə hər zaman yüksələn xətlə inkişaf edib, müxtəlif əməkdaşlıq sferalarını əhatə edib. Hazırda iki ölkə arasında həm siyasi, həm də ticari-iqtisadi sferada geniş əməkdaşlıq əlaqələri mövcuddur. BƏƏ Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü daim dəstəkləyib. Azərbaycana xaricdən məhsul idxalında, o cümlədən respublikamızın ixracatında BƏƏ əsas tərəfdaş dövlətlərdən biridir. "Made in Azerbaijan" brendini BƏƏ bazarında daha çox tanıtmaq üçün bu ölkədə "Azərbaycan Ticarət Evi" fəaliyyət göstərir.

Əlbəttə ki, əlaqələrin inkişafında dövlət başçılarının qarşılıqlı səfərləri xüsusi rol oynayır. Prezident İlham Əliyev indiyə kimi bir neçə dəfə bu ölkədə rəsmi və işgüzar səfərdə olub. Dövlətimizin başçısı bu ilin yanvarında da BƏƏ-də işgüzar səfərdə olub, Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışı və Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimində iştirak edib. Əbu-Dabi Dayanıqlılıq Həftəsində 13 dövlət və hökumət başçısı, eləcə də 140-dan çox nazir və digər rəsmi şəxslər iştirak edirdi. Dəvət olunan prezidentlərdən birinin İlham Əliyev olması dövlətimizin başçısının yüksək qlobal siyasi nüfuzunun və Azərbaycan - BƏƏ siyasi münasibətlərinin təcəssümü idi.

2024-cü ilin yanvarında isə BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Azərbaycana rəsmi səfər edib. Həmin səfər zamanı iki dövlət arasında münasibətlərin hüquqi bazasının daha da genişlənməsinə gətirib çıxaran sənədlər imzalanıb. O cümlədən "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb.

#### "Yaşıl enerji" sahəsində uğurlu əməkdaşlıq

Azərbaycanla BƏƏ arasında münasibətlər son illərdə yeni əməkdaşlıq sferalarını əhatə edib. Bunların arasında "yaşıl enerji" istehsalı sahəsində əməkdaşlıq xüsusi qeyd olunmalıdır. 2022-ci il martın 15-də Pezident İlham Əliyevin iştirakı ilə BƏƏ-nin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının təməli qoyulub. Pezident İlham Əliyev təməlqoyma mərasimində çıxışında Azərbaycan-BƏƏ münasibətlərinə toxunaraq deyib: "Masdar" şirkəti bizim üçün dost ölkəni - Birləşmiş Ərəb Əmirliklərini təmsil edir. Bizim ikitərəfli münasibətlərimiz çox yüksək səviyyədədir. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə uğurla əməkdaşlıq edirik. Ticarət əlaqələrimiz artır, turizm sahəsində çox böyük imkanlar var və şadam ki, bu sahədə də artım göz qabağındadır. Bir sözlə, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında əlaqələrin böyük perspektivi var. Şadam ki, bərpaolunan enerji istehsalı sahəsində də əməkdaşlığa bu gün start verilir".

Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyası olan Qaradağ Günəş-Elektrik Stansiyasının tikintisi yüksək səviyyədə həyata keçirilib və 2023-cü il oktyabrın 26-da açılışı olub. 262 milyon ABŞ dollarına başa gələn bu layihə həm də ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş-elektrik stansiyasıdır.

Elə həmin gün Azərbaycan hökuməti ilə "Masdar" şirkəti arasında gələcək əməkdaşlıqlara dair yeni sənədlər imzalanıb. BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın 2024-cü ilin yanvarında Azərbaycana etdiyi rəsmi səfər zamanı isə "Azərbaycan Respublikasının Energetika Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin İnvestisiya Nazirliyi arasında elektrik enerjisinin ötürülməsi layihələri üzrə İnvestisiya Əməkdaşlığına dair Anlaşma Memorandumu", "Azərbaycanın bərpaolunan və təmiz enerji potensialından istifadənin daha da gücləndirilməsi və "Yaşıl Enerji"nin İxracı Əməliyyatlarına imkan verən Strateji Əməkdaşlıq üzrə Çərçivə Müqaviləsi", "Azərbaycanda quruda quraşdırılacaq 1 GVt gücündə günəş və külək layihələrinin inşası üçün Tədbirlər Təqvimi", "ADNOC və SOCAR şirkətləri arasında Strateji Əməkdaşlıq Sazişi" imzalanıb.

#### Əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığı bəyan olundu

Azərbaycanla BƏƏ-nin geniş əməkdaşlıq gündəliyi münasibətlərin möhkəm təməllərə söykəndiyini göstərir. Bu həm də iki dövlətin dostluğunu və qardaşlığını nümayiş etdirir. Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri əlaqələrinin dostluq və qardaşlığa əsaslandığı Prezident İlham Əliyevin Əbu-Dabiyə işgüzar səfəri zamanı BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşündə bir daha ifadə olundu. Prezidentlərin görüşündə iki dövlət arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığı, siyasi münasibətlərin yüksək səviyyədə olduğu, iqtisadi-ticari əməkdaşlığın inkişaf etdiyi vurğulandı.

Həmçinin Prezident İlham Əliyevin bu ilin yanvarında Birləşmiş Ərəb Əmirliklərinə, Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın isə Azərbaycana səfərləri məmnunluqla xatırlandı. Həmin səfərlər zamanı müxtəlif sahələri əhatə edən ikitərəfli gündəliklə bağlı geniş müzakirələrin aparıldığı qeyd olundu.

Görüşdə ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparıldı, enerji, o cümlədən bərpaolunan enerji sahəsində ölkələrimiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu və bu istiqamətdə perspektiv layihələr müzakirə edildi. SOCAR-la ADNOC, həmçinin ölkəmizlə "Masdar" şirkəti arasında bərpaolunan enerji sahəsində əməkdaşlıqdan məmnunluq bildirildi.

Prezident İlham Əliyevin BƏƏ-yə işgüzar səfəri zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" də imzalandı. Görünən odur ki, hər iki dövlət əlaqələrin daha da inkişaf etdirilməsi üçün böyük siyasi iradə nümayiş etdirir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Aviasiya Akademiyasında "Süni İntellekt Texnologiyaları və Aerokosmik Problemlər" III Beynəlxalq Elmi-Praktik Konfransı keçirilib

İyulun 9-da Milli Aviasiya Akademiyasında (MAA) "Süni İntellekt Texnologiyaları və Aerokosmik Problemlər" III Beynəlxalq Elmi-Praktik Konfransı keçirilib.



MAA-dan AZƏRTAC-a bildirilib ki, akademiyanın birinci prorektoru Ədalət Səmədov çıxışında MAA-nın rektoru, akademik Arif Paşayevin salamlarını iştirakçılara çatdırıb, onlara uğurlar arzulayıb. Qeyd olunub ki, konfransın konseptual və praktiki əsasını Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" təşkil edir.

Akademik Rasim Əliquliyev süni intellekt strategiyası barədə konfrans iştirakçılarına ətraflı məlumat verib. O, həmçinin süni intellekt texnologiyalarının sürətli inkişafını və bu baxımdan konfransın əhəmiyyətini xüsusi vurğulayıb.

Konfransın əsas məqsədi Azərbaycanın milli süni intellekt strategiyasına dəstək verən praktiki tövsiyələrin hazırlanması, aviasiyanın və aerokosmik sahənin inkişafında süni intellektin rolunun müəyyənləşdirilməsi, süni intellekt vasitəsilə aerokosmik texnologiyaların inkişaf etdirilməsi, gənc tədqiqatçıların bu istiqamətdə yaradıcı potensialının artırılması, alimlərin və sənaye mütəxəssislərinin bir araya gətirilməsi, elmi yanaşma və texnologiyaların müzakirə olunduğu akademik platformaların yaradılmasıdır.

Sonra Azərbaycan-İsrail Cəmiyyətinin direktoru Yeganə Salman, Odessa Milli Politexnik Universitetinin Kompüter Elmləri İnstitutunun direktoru, professor Svetlana Antoşuk, Azərbaycan-Yaponiya Cəmiyyətinin sədri, professor Xəlil Kələntər çıxış edərək konfransın beynəlxalq elmi əməkdaşlıq üçün əhəmiyyətini vurğulayıblar. Çıxışçılar həmçinin insan kapitalının formalaşması, nəqliyyat və logistika sistemlərinin idarə olunması, rəqəmsal bacarıqların inkişafında süni intellektin rolundan danışıblar.

Türkiyə, Yaponiya, İsrail, Almaniya, Böyük Britaniya, Qazaxıstan və Ukraynadan tanınmış mütəxəssislər, elmi-tədqiqat institutlarının nümayəndələri, texnologiya şirkətlərinin təmsilçiləri və süni intellekt sahəsində fəaliyyət göstərən ekspertlərin iştirak etdiyi konfrans çərçivəsində 80-dən çox elmi məruzə dinlənilib, "dəyirmi masa", tematik panel və təqdimat keçirilib. Tədbirdə eyni zamanda Milli Aviasiya Akademiyasında yeni yaradılmış Süni İntellekt Klubunun da təqdimatı olub.

İki gün davam edən beynəlxalq konfransda "Aviasiya sistemlərində süni intellekt, "Aerokosmik monitorinq problemlərinin həllində süni intellekt texnologiyaları", "Süni intellekt simulyatorları və öyrənmə prosesi", "Aviasiya təhlükəsizliyində süni intellekt texnologiyaları", "Süni intellektin tətbiqinin sosial və hüquqi problemləri", "İqtisadiyyat və menecmentdə süni intellektin innovativ tətbiqləri" kimi mövzular müzakirə olunub.

Tədbirə Azərbaycanın müxtəlif şəhər və rayonlarından, o cümlədən Bakı, Gəncə, Sumqayıt və Naxçıvandan 15-dən çox ali təhsil müəssisəsinin nümayəndələri, doktorantlar və gənc tədqiqatçılar qatılıblar.

# BMU ilə Lanzhou Maliyyə və İqtisadiyyat Universiteti arasında memorandum imzalanıb

Çin Xalq Respublikasının Lanzhou Maliyyə və İqtisadiyyat Universitetinin nümayəndə heyəti Bakı Mühəndislik Universitetində (BMU) olub.



BMU-dan AZƏRTAC-a bildirilib ki, görüşdə rektor Yaqub Piriyev Çin ilə Azərbaycan arasında dostluq, tərəfdaşlıq münasibətlərini, Azərbaycanın Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən dövlətlərdən biri olduğunu, iki ölkənin rəhbərlərinin apardıqları uğurlu siyasət nəticəsində iqtisadi əlaqələrin daha da möhkəmləndiyini, elm və təhsil sahəsində əməkdaşlığın genişləndiyini vurğulayıb. Rektor xüsusilə son aylarda bu ölkənin ali məktəbləri ilə BMU arasında yaranan münasibətlərə, icra olunan ikili diplom proqramlarına diqqət çəkib və əməkdaşlığın elmə, eləcə də müasir texnoloji bacarıqlara uyğun kadrların yetişdirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edib. BMU-nun yaranma tarixi, tədris olunan ixtisaslar haqqında məlumat verən Yaqub Piriyev son iki ildə həyata keçirilən mühüm islahatlara, ali təhsil ocağının dünyanın nüfuzlu QS reytinqində ilk minliyə daxil olmasına toxunaraq, bunu universitetin böyük uğuru kimi səciyyələndirib. Lanzhou Maliyyə və İqtisadiyyat Universiteti ilə əməkdaşlıq istiqamətlərinə diqqət çəkən rektor bu sırada "Bir kəmər, bir yol" təşəbbüsü ilə bağlı ortaq elmi tədqiqatların aparılması, ikili diplom proqramının icrası, tələbələr üçün yay məktəbinin təşkilini və s. qeyd edib.

Nümayəndə heyətinin rəhbəri, Lanzhou Maliyyə və İqtisadiyyat Universitetinin prorektoru professor Huang Hengjun BMU ilə əlaqələrin qurulmasına maraqlı olduqlarını, əməkdaşlığın hər iki ali məktəbə fayda verəcəyinə inandıqlarını söyləyib. Təmsil etdikləri ali təhsil ocağı haqqında məlumatları diqqətə çatdıran prorektor bildirib ki, universitet Çinin Qansu əyalətinin Lanzhou şəhərində yerləşən və 1952-ci ildə yaradılmış dövlət ali təhsil müəssisəsidir. Ali məktəbdə maliyyə, iqtisadiyyat, menecment, hüquq, kompüter elmləri, statistika, ümumilikdə 62 ixtisas üzrə kadr hazırlanır. Tədris əsasən Çin, müəyyən beynəlxalq proqramlarda isə ingilis dillərində aparılan universitetin bakalavriat, magistratur, doktorantura səviyyələrində 36 min tələbəsi var. Həmçinin bir çox beynəlxalq universitet və akademik institutla elmi, tələbə mübadiləsi proqramları həyata keçirir.

Görüş zamanı BMU ilə Lanzhou Maliyyə və İqtisadiyyat Universiteti arasında tədqiqat təşəbbüsləri, ikili diplom, müəllim və tələbə mübadiləsi proqramları, tələbələr üçün yay məktəbinin təşkili, eləcə də digər akademik əməkdaşlıq imkanları müzakirə olunub. Həmçinin qarşılıqlı maraq doğuran əlavə mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

Sonda BMU ilə Lanzhou Maliyyə və İqtisadiyyat Universiteti arasında qarşılıqlı Anlaşma Memorandumu imzalanıb. Memorandum tədris və elmi-tədqiqat fəaliyyətinə marağın artırılması, birgə tədqiqatlar üçün təkliflər hazırlamaq, müəllim-tələbə mübadiləsini asanlaşdırmaq məqsədi daşıyır. Sənədə əsasən, tərəflər birgə tədqiqat, ömürboyu təhsil proqramlarının həyata keçirilməsi, innovativ tədris və idarəetmə üsulları haqqında məlumat mübadiləsi, ətraf mühitin idarə edilməsi üzrə birgə tədbirlərin təşkili və s. istiqamətlərdə əməkdaşlıq üçün razılığa gəliblər.

İmzalanmanın ardınca qonaqlar BMU-nun tədris korpusları, laboratoriyaları ilə tanış olublar.

# Ukraynadan olan daha 30 uşaq reabilitasiya xidmətləri ilə təmin edilmək üçün Azərbaycana gətirilib

Ukraynadakı müharibədən əziyyət çəkmiş uşaqların ölkəmizə gətirilərək reabilitasiya xidmətlərinə cəlb olunması işləri davam etdirilir. AZƏRTAC xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin (SXA) təşkilatçılığı ilə daha 30 ukraynalı uşaq sosial-psixoloji reabilitasiya xidmətləri ilə təmin edilmək üçün ölkəmizə gətirilib.










SXA-nın İdarə Heyəti sədrinin müavini Zaur İbrahimov müsahibəsində bildirib ki, Bakı şəhərində yerləşən düşərgədə uşaqlar üçün milli rəqs dərsləri və peşəkar psixoloq tərəfindən fərdi konsultasiyalar təşkil ediləcək. Həmçinin onlar İçərişəhər, Qız qalası və Şirvanşahlar saray kompleksi, dənizkənarı bulvar, Atəşgah məbədi, Yanardağ abidəsi ilə tanış olmaq və burada maraqlı vaxt keçirmək imkanı qazanacaqlar.

Diqqətə çatdırılıb ki, növbəti günlərdə onların Bakı və bölgələrimizdə bir sıra qrup terapiyaları, meditasiya və yoqa məşğələləri, eyni zamanda psixososial təlimlər, milli mətbəxlə tanışlıq və digər ustad dərslərinə cəlb olunmaları nəzərdə tutulur. Düşərgə iştirakçıları Qəbələ və Şəki şəhərlərinin tarixi və görməli yerləri ilə də tanış ola biləcəklər.

Zaur İbrahimovun sözlərinə görə, ongünlük sosial reabilitasiya proqramı çərçivəsində uşaqların emosional vəziyyətlərinin stabilləşməsinə, eləcə də cəmiyyətə inteqrasiyalarının təmin edilməsinə dəstək göstəriləcək. Ukraynanın Azərbaycandakı səfirinin birinci katibi Andrey Onişenko ukraynalı uşaqların reabilitasiyasına yaradılan şəraitə görə Azərbaycana minnətdarlığını bildirib. Ölkəmizin mədəniyyəti, memarlıq abidələri, tarixi yerləri haqqında məlumatlı olduqlarını deyən ukraynalı uşaqlar isə gəzməli-görməli yerlərlə tanışlığı səbirsizliklə gözlədiklərini deyiblər.

Qeyd edək ki, ötən dövrdə ümumilikdə 230-dan çox ukraynalı uşaq ölkəmizə gətirilərək sosial-psixoloji reabilitasiya xidmətləri ilə təmin edilib.

# Qarabağda sahibkarlığın inkişafına yeni təkan

"Azərbaycan vətəndaşları üçün işğaldan azad edilmiş ərazilərə səfərləri daha əlçatan və planlı hala gətirmək məqsədilə "Yolumuz Qarabağa" portalı üzərindən əldə olunan icazələrin müddəti 2 gündən 5 günədək uzadılıb. Bu dəyişiklik artıq həmin bölgələrə yalnız ekspress yox, daha uzunmüddətli və rahat səyahətlər etməyə imkan verir. Əvvəllər fərdi minik avtomobilləri ilə bu ərazilərə səfərlər üçün verilən icazələr cəmi 2 günlük müddəti əhatə edirdi. Lakin bu, ailəvi və ya planlı istirahət üçün bəzən yetərli olmurdu. Yeni mexanizm çərçivəsində artıq vətəndaşlar Qarabağ və Şərqi Zəngəzur bölgələrində 5 günədək qalmaq imkanına malikdirlər ki, bu da turizm potensialının daha effektiv reallaşdırılmasına xidmət edir".

Bunu AZƏRTAC-a açıqlamasında Azərbaycan Ekoturizm Assosiasiyasının sədri Samir Dübəndi deyib.



Onun sözlərinə görə, təqdirəlayiq yeniliklərdən biri də hotellərdə rezervasiya edən şəxslərə giriş icazəsinin avtomatik verilməsidir.

"Artıq vətəndaşlarımız əgər işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən bir hotelə rezervasiya ediblərsə, əlavə icazə prosedurlarına ehtiyac duymurlar - giriş icazəsi hotel tərəfindən onların adından sistem üzərindən alınır. Bu addım həm vaxt qənaəti, həm də səfərlərin daha çevik planlaşdırılması baxımından mühüm irəliləyişdir. Turistlər üçün operativlik və rahatlıq təmin edilir, xidmət təminatçıları üçünsə səmərəli əlaqələndirmə imkanı yaranır. Qəbul edilmiş qərarlar regionda sahibkarlığın inkişafına, yeni iş yerlərinin yaradılmasına və iqtisadi fəallığın yüksəlməsinə səbəb olacaq. Turist axınının artması ilə bərabər, yerli sahibkarlar üçün də yeni hotel və qonaq evləri açmaq, ictimai iaşə obyektlərini genişləndirmək, turizm xidmətləri göstərmək (bələdçilik, nəqliyyat, ekskursiya paketləri) kimi sahələrdə real fürsətlər meydana çıxır. Bu baxımdan Qarabağ yalnız bərpa prosesi ilə deyil, aktiv iqtisadi zona kimi də ön plana çıxmağa başlayır. Vurğulanmalıdır ki, ərazilərə giriş hələ də icazə əsasında həyata keçirilir və bu tələbin əsas məqsədi təhlükəsizliyi təmin etməkdir. Səfər edən şəxslər mina təhlükəsizliyi ilə bağlı maarifləndirici materiallarla tanış olmalı, marşrutdan kənara çıxmamalı və səfər iştirakçılarını da məlumatlandırmalıdırlar", - deyə o əlavə edib.

Hotellərin təqdim etdiyi avtomatlaşdırılmış icazə xidmətinin sadələşdirilmiş alternativ seçim rolu oynadığını diqqətə çatdıran Samir Dübəndi söyləyib: "Bu, vətəndaşlara əlavə rahatlıq təqdim edir, lakin yalnız hotel rezervasiyası ilə məhdudlaşmır - vətəndaşlar istəsələr, əvvəlki qaydada portaldan birbaşa da icazə ala bilərlər. Yeni qərarlar xüsusilə ailəvi və qrup şəklində səfərləri stimullaşdırır. Minik avtomobili ilə səfər üçün 9 nəfərlik limit (1 sürücü + 8 sərnişin) tam bir ailənin və ya kiçik tur qrupunun səyahəti üçün idealdır. 5 günlük müddət isə bu səfərin yalnız ziyarət deyil, faydalı istirahətə və emosional bağların möhkəmlənməsinə çevrilməsini təmin edir. Bu qərarlar Qarabağın və Şərqi Zəngəzurun dayanıqlı turizm inkişafı, rəqəmsal idarəetmə praktikasının tətbiqi, ictimai xidmətlərin vətəndaşa yaxınlaşdırılması və iqtisadi reinteqrasiya baxımından strateji addımlardır. Yeni qərarlar Qarabağın turizm, iqtisadiyyat və reinteqrasiya sahələrində strateji inkişafını gücləndirir. Sadələşdirilmiş icazə prosesi, rəqəmsal alətlərin tətbiqi və sahibkarlığa açılan qapılar göstərir ki, Qarabağ artıq təkcə tarixi torpaq deyil, həm də aktiv həyatın, sivil inkişafın və sabit gələcəyin mərkəzinə çevrilməkdədir. Vətəndaşlarımız artıq rahat şəkildə səfərlərini planlaya, rezervasiya edə və təhlükəsiz şəkildə Qarabağda istirahət edə bilərlər. Qarabağ - yalnız tarix yox, həm də gələcəyin turizm istiqamətidir".

# "Səfər prosedurlarının sadələşdirilməsi gediş-gəlişin asanlaşmasına və ziyarətçilərin çoxalmasına səbəb olacaq"

"Otuzillik həsrətin iki gündə ovudulması mümkündürmü? Əlbəttə, yox. Açığını etiraf etmək lazımdır ki, indiyədək doğma yerlərə çoxdan gözlənilən səfərlər zamanı, necə deyərlər, həmişə bir ayağın qaçaq olurdu. Suyu diş donduran buz bulağın birinə baş çəkirdin, o birinin suyundan içməyə vaxt qalmırdı, üstündə dünyaya gəldiyin doğma ata ocağına baş çəkirdin, dağlar, meşələr, dərələr qalırdı. İki gün bir göz qırpımında gəlib keçirdi, bir növ gözün səni bu dünyaya bəxş eləyən yurd yerlərinin dağında-dərəsində qalırdı. Babalarının uyuduqları, əzizlərinin, doğmalarının həsrəti ilə yaşayıb dünyadan köçdükləri doğma yerləri gözü dolusu görə bilmirdin…"

Bu sözləri AZƏRTAC-a "Yolumuz Qarabağa" (www.yolumuzqarabaga.az) portalı üzərindən əldə olunan icazələrin müddətinin 2 gündən 5 günədək uzadılmasına münasibət bildirərkən turizm eksperti Cəfər Qarayev söyləyib.

O, söhbətini davam etdirərək deyib: "Çox ölkədə, çox səfərdə olmuşam, amma cənnət Qarabağın torpağı kimi münbit torpaq, havası kimi saf hava, suyu kimi soyuq və təmiz su, adamları kimi qaynar və mehriban camaat görməmişəm. Obrazlı alınmasın, təbiət bu yerlərə pay verəndə səxavət payını bol edib. Dağları əzəmətli, qayaları sıldırım, dərələri dərin, çölləri geniş, tarlaları bar-bərəkətli, çəmənləri ətirli… Məsələn, adicə bir misal deyim. Şuşa kimi o qədər böyük olmayan bir şəhərdə nə qədər tarixi abidə, qala, məkan olar? Həqiqətən hər addımından tarix boylanır. Bu qədər zəngin məkana qədəm qoyan sakin, müsafir və ya turist iki gün ərzində onları necə ziyarət etsin? Bu mənada belə bir icazənin uzadılması tarixi yurd yerlərini gəzib-dolaşmaq istəyən hər kəsin ürəyincə oldu.

Qarabağ və Şərqi Zəngəzurun öz əbədi və əzəli sahibinə qovuşmasından illər keçsə də, doğma ata-baba ocaqlarını ziyarət etmək üçün üz tutanların sayı getdikcə artır. Sadələşdirilmiş icazə proseduru, işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən hotellərdə rezervasiya edən vətəndaşlara həmin ərazilərə giriş icazəsinin avtomatik şəkildə təqdim edilməsi çox təqdirəlayiq haldır. İşin bu cür təşkili onlara əlavə müraciətə ehtiyac yaratmadan vaxtlarına qənaət etmək, üz tutduqları məkanda daha sürətli və rahat hərəkət etmək üçün çox əlverişlidir. İslam peyğəmbərinin gözəl bir sözü var: "Çətinləşdirməyin, asanlaşdırın". Şübhəsiz ki, gediş-gəlişin, səfər proqramının bu cür sadələşdirilməsi və asanlaşdırılması bölgəyə üz tutanların işini yüngülləşdirməklə yanaşı, turizmin inkişafına da böyük təkan verəcəkdir. Uzun illər erməni işğalçılarının bütövlüyünü parçalamağa cəhd göstərdiyi vətənimizin uca dağları, yaşıl meşələri, sərin sulu bulaqları, babaların izlərini yaşadan müqəddəs abidələri qollarını açıb öz ziyarətçilərini gözləyir".

"Yenə də hansısa yazıçının sözüdür: "Doğma yurdun məktub zərfi boyda olan yerindən bir roman yazmaq olar". Doğrudan da elədir. İndi öz doğma sakinlərinə qovuşan müqəddəs vətən torpağı hər qarışı, hər addımı keçmişimizin yadigarı, tarixdən soraq verən ünvan və xatirələr beşiyidir. İyulun 8-də tətbiq olunmağa başlayan prosedurlar qəlbində Vətən həsrəti olan hər kəs tərəfindən rəğbətlə qarşılanır. Lakin bütün bunlarla yanaşı, qaydalara da əməl etmək lazımdır. Tələsiklik etmək, düşünülməmiş addımlar atmaq fəlakətli nəticələrə səbəb ola bilər. Hər kəsə yaxşı məlumdur ki, hələ həmin ərazilərin minalardan təmizlənməsi işi başa çatmayıb. Səfər zamanı hara gəldi getmək, qadağan olan ərazilərə üz tutmamaq və bir sıra qaydalara əməl etmək tələb olunur. Bunu da mütləq şəkildə nəzərə almaq, mina təhlükəsizliyi qaydaları ilə tanış olmaq, xüsusi işarə qoyulmuş, icazə verilməyən yerlərə getməmək, təhlükəli ərazilərdən uzaq olmaq lazımdır. Hesab edirəm ki, bütün təhlükəsizlik tədbirlərinə əməl etməklə azad nəfəs alan torpaqlarımıza yaddaqalan və unudulmaz səfərlər təşkil etmək olar. Hər kəsə bunu arzulayıram", - deyə Cəfər Qarayev bildirib.

# "Karbon bazarının potensialı 2050-ci ilədək 1 trilyon dollara çata bilər"




**Vyanada keçirilən 9-cu OPEC Beynəlxalq Seminarı çərçivəsində Azərbaycan Respublikası Prezidentinin İqlim məsələləri üzrə xüsusi nümayəndəsi Muxtar Babayev "COP29-dan COP30-a doğru" adlı yüksəksəviyyəli paneldə çıxış edib.**

AZƏRTAC xəbər verir ki, Muxtar Babayev hazırkı mürəkkəb geosiyasi dövrü qeyd edərək dünyada müharibələr, enerji böhranı, müxtəlif ölkələrdə seçkilər və enerji bazarlarında proqnozlaşdırılmayan dəyişikliklər fonunda çoxtərəfli əməkdaşlıq və beynəlxalq razılaşmaların təşviqinin son dərəcə vacib olduğunu bildirib. Onun sözlərinə görə, bu baxımdan OPEC Seminarı mühüm nümunədir, burada OPEC, OPEC+ və digər ölkələrdən olan nazirlərin iştirakı ilə ölkələr bir araya gələrək enerji bazarının gələcəyi ilə bağlı mühüm məsələlər üzrə fikir mübadiləsi aparırlar.

Muxtar Babayev çıxışında COP29-da əldə olunan əsas nəticələrdən danışaraq bildirib ki, Qlazqo, Şarm əl-Şeyx və Dubayda keçirilmiş əvvəlki konfransların davamı olaraq, Bakıda mühüm razılıq əldə olunub. Belə ki, inkişaf etmiş ölkələr iqlim maliyyəsi üçün inkişaf etməkdə olan ölkələrə 300 milyard dollar ayırmağı öhdələrinə götürüblər. Bu məbləğ, əvvəlki 100 milyard dollarlıq vədə nisbətən üç dəfə çoxdur.

Digər mühüm nəticə isə karbon bazarının tənzimlənməsi ilə bağlıdır. Paris Sazişinin 6-cı maddəsi çərçivəsində qəbul olunan qaydalar və qeydiyyat prosedurlarının təsdiqi nəticəsində xüsusilə inkişaf etməkdə olan ölkələrdə özəl sektorun bu bazara daxil olması üçün şərait yaradılıb. Muxtar Babayev bildirib ki, bu bazarın indiki tutumu 250 milyard dollar səviyyəsində qiymətləndirilir və 2050-ci ilə qədər bu rəqəmin 1 trilyon dollara çatacağı proqnozlaşdırılır. Onun sözlərinə görə, bu sahəyə əsas sərmayə mənbəyi özəl sektor olacaq.

O əlavə edib ki, karbon bazarının tam işlək olması üçün şəffaflıq mexanizmlərinin tətbiqi də zəruridir. Ölkələr bu layihələrin necə həyata keçirildiyini aydın şəkildə göstərməlidirlər ki, əlavə sərmayələr cəlb oluna bilsin.

Muxtar Babayev həmçinin qeyd edib ki, dünyanın bir çox enerji şirkəti artıq özləri üçün dekarbonizasiya və xalis sıfır hədəfləri qəbul ediblər. Onların əksəriyyəti "yaşıl enerji" siyasəti həyata keçirir. O vurğulayıb ki, artıq dünya üzrə hər üç sərmayə dollarından ikisi alternativ enerjiyə yönəldilir. Bu, ölkə və şirkətlərin "yaşıl enerji"yə yönəldiyini göstərir və bu prosesin gələcək illərdə daha da intensivləşəcəyi gözlənilir.

Sonda o bildirib ki, son illərdə COP-a evsahibliyi edən Misir, BƏƏ, Azərbaycan və gələcəkdə Braziliya kimi ölkələrin ortaq xüsusiyyəti onların hər birinin iri neft və qaz istehsalçısı olmasıdır. Lakin bu, onların enerji keçidinə sadiqliyinə mane olmur. Əksinə, bu ölkələr öz regionlarında enerji keçidində liderlik edirlər, bərpaolunan enerji zonaları, enerji dəhlizləri və "yaşıl şəbəkə" layihələri həyata keçirirlər. Muxtar Babayev bildirib ki, Braziliya da bu baxımdan böyük potensiala malikdir və inklüziv enerji keçidinə töhfə verə bilər.

# *Muxtar BABAYEV:* "OPEC ölkələrinin dekarbonizasiya və "yaşıl enerji" yanaşmaları maraq doğurur"

"Enerji sistemlərinin gələcəyi ilə bağlı təqdim olunan məlumatlar və statistik göstəricilər xüsusi diqqət cəlb edir".




Bunu AZƏRTAC-a açıqlamasında Vyanada keçirilən 9-cu OPEC Beynəlxalq Seminarında iştirak edən Azərbaycan Respublikası Prezidentinin İqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev bildirib.

"OPEC-in çox zəngin statistik bazası var. Burada həm keçmişdəki investisiyalar, istehsalat və istehlak göstəriciləri, həm də logistika və gələcəyə yönəlmiş layihələr üzrə geniş statistik məlumatlar və trendlər təqdim olunur", - deyə Muxtar Babayev deyib.

O əlavə edib ki, seminarda aparıcı enerji istehsalçılarının əksəriyyəti təmsil olunub və bu da gələcək enerji istehsalı və istehlakı ilə bağlı ümumi yanaşmalarla tanış olmaq baxımından faydalıdır.

Muxtar Babayev vurğulayıb ki, bir sıra ölkələr artıq xalis sıfır və dekarbonizasiya proqramlarını qəbul edib və bu proqramlar çərçivəsində "yaşıl enerji"yə xüsusi yer ayrılır: "Yaşıl hidrogen" və digər alternativ enerji layihələri, eləcə də onların logistik imkanları ilə bağlı müxtəlif baxışlar və perspektivlər burada müzakirə olunur".

Muxtar Babayev bildirib ki, seminarda COP29 və COP30 komandaları da təmsil olunub. İyulun 10-da seminar çərçivəsində "COP29-dan COP30-a doğru" adlı yüksəksəviyyəli panel müzakirəsi təşkil olunacaq və gündəlikdəki məsələlər interaktiv formatda müzakirə ediləcək.

# *Ruslan QULİYEV:* "Yeni qərar Qarabağ və Şərqi Zəngəzurda turizm marşrutlarının inkişafına dəstək olacaq"

"Azərbaycan vətəndaşlarının işğaldan azad edilmiş ərazilərə səfərlərinin daha rahat və planlı həyata keçirilməsi üçün müddət iki gündən beş günə uzadıldı. Biz inanırıq ki, bu müddət gələcəkdə daha da uzadılacaq. Bu, Qarabağ və Şərqi Zəngəzurda müxtəlif turizm marşrutlarının şaxələndirilmiş inkişafına dəstək olacaq".



Bunu AZƏRTAC-a açıqlamasında Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının prezidenti, "Milenium Konqres Turizm" şirkətinin rəhbəri, turizm mütəxəssisi Ruslan Quliyev deyib.

Onun sözlərinə görə, Şuşa və Laçına "Zəfər yolu" ilə gedən turistlər həmin bölgələri ziyarət etdikdən sonra rahat şəkildə Kəlbəcərə gedə biləcəklər. Gələcəkdə isə "Qırmızı Körpü" vasitəsilə Gəncə üzərindən Naftalan, Tapqaraqoyunlu və Suqovuşan marşrutu ilə Ağdərə, Xankəndi və geri dönüşdə Ağdam və digər istiqamətləri də ziyarət etmək mümkün olacaq. Bu isə həm ekoloji marşrutların müxtəlifləşməsi baxımından ekoturizmin inkişafına, həm də sağlamlıq və təhsil turizminin formalaşmasına, mədəni marşrutların daha geniş tətbiqinə imkan yaradacaq. Həmçinin portalda qeydiyyatdan keçdikdən sonra turistlərin bu bölgələri daha geniş şəkildə və kifayət qədər vaxtla ziyarət etməsi mümkün olacaq", - deyə R.Quliyev diqqətə çatdırıb.

O, əlavə edib ki, Azərbaycan Hava Yolları ilə Füzuliyə bilet alan şəxslərin avtomatik olaraq portaldan qeydiyyatdan keçməsi və mehmanxana bronları zamanı sistemə inteqrasiya olunması bu prosesləri daha rahat edir. Bu, insanların bölgəyə səfər etməsini asanlaşdırır və kütləviliyin artırılması baxımından çox əhəmiyyətlidir.

## 11 İyul Beynəlxalq Əhali Günüdür

# İnsan amili Azərbaycanda daim prioritetdir

**Hər bir cəmiyyətin əsasında dayanan insanın sayı, rifahı və inkişaf potensialı dövlətin gələcəyini müəyyən edir. Məhz buna görə də hər il iyulun 11-i dünyada Beynəlxalq Əhali Günü kimi qeyd olunur. İnsanın hüquq və sosial təminatının diqqət mərkəzində olmasının rəmzinə çevrilən bu günün qeyd edilməsində əsas məqsəd ailə planlamasının əhəmiyyəti, gender bərabərliyi, yoxsulluq və sağlamlıq kimi dünya əhalisi ilə bağlı müxtəlif məsələlər barədə məlumatlılığı artırmaq, insanların problemlərinə xüsusi diqqət yetirmək və ümumi inkişafa nail olmaqdır.**



Birləşmiş Millətlər Təşkilatının (BMT) İnkişaf Proqramı (UNDP) 1989-cu ildə dünya əhalisinin 5 milyarda çatdığı 11 iyul 1987-ci il tarixini Dünya Əhali Günü kimi tanıyıb. Əlamətdar gün BMT-nin əhali problemlərinin həllinə yardım göstərən ən iri beynəlxalq təşkilatı olan Əhali Fondu (UNFPA) tərəfindən təsis edilib və ilk dəfə 1990-cı ildə 90-dan artıq ölkədə qeyd olunub.

### 2100-cü ilə qədər dünya əhalisinin sayı 10,4 milyarda çatacaq

Almaniyanın Dünya Əhali Fondu (DSW) tərəfindən təqdim edilən məlumatlara görə, 2024-cü ildə dünya əhalisi bir il əvvəlki ilə nisbətən təxminən 82 milyon nəfər artıb. Hazırkı məlumatlara əsasən, dünya əhalisi 8 milyard 233 min nəfəri keçib. Əhalisi ən sürətlə artan qitə Afrikadır. Burada doğum səviyyəsi yüksək, ömür uzunluğu isə artmaqdadır. Fondun ekspertləri bildirirlər ki, növbəti iki onillikdə bu qitədə yaşayan insanların sayı iki dəfədən çox arta bilər.

2023-cü ilin sonunda Hindistan əhalisinə görə Çini geridə qoyaraq dünyanın ən sıx məskunlaşan ölkəsi olub. BMT-nin əhali təxminlərinə görə, 2024-cü ildə ən çox əhalisi olan ölkə 1 milyard 451 milyon nəfərlə Hindistan, ikinci yerdə 1 milyard 419 milyon nəfərlə Çin və 345 milyon 427 min nəfərlə ABŞ gəlir. Bu üç ölkə dünya əhalisinin 39,4 faizini təşkil edir.

2024-cü ildə dünya əhalisinin 29,6 faizini uşaqlar təşkil edib. Uşaqların sayının ən yüksək olduğu ölkə Mərkəzi Afrika Respublikası, ən az olduğu ölkə isə Cənubi Koreya Respublikasıdır. Avropa İttifaqına (Aİ) üzv olan 27 ölkədə uşaq sayının ən yüksək olduğu ölkələr İrlandiya, İsveç və Fransa, ən aşağı olduğu ölkələr isə İtaliya, Malta və Portuqaliyadır.

Birləşmiş Millətlər Təşkilatının dünya əhalisinin proqnozlarına görə, ölkələrin ümumi əhalisi içərisində 65 və daha yuxarı yaşlı əhalinin nisbəti araşdırıldığında, 2024-cü ildə yaşlı əhalinin ən yüksək nisbətinə malik ölkə Monako olub. Bu ölkəni Yaponiya və İtaliya izləyib. Yaşlı əhalinin ən aşağı nisbətinə malik ölkələr isə Qətər, BƏƏ və Zambiyadır.

BMT-nin İqtisadi və Sosial Məsələlər üzrə Departamentinin məlumatına görə, 2037-ci ildə dünya əhalisi ilk dəfə olaraq 9 milyardı keçəcək. Hazırda planetin ümumi əhalisinin təxminən 28 faizinin yaşadığı 63 ölkədə artım pik həddi keçib. Belə ölkələr arasında Rusiya, Çin, Almaniya və Yaponiya var. Dünya əhalisinin 10 faizinin yaşadığı 48 ölkədə insanların sayı yaxın illərdə artacaq və 2025-2054-cü illər arasında pik həddə çatacaq. BMT-nin proqnozlarına əsasən, yaxın 60 ildə dünya əhalisinin sayı artmaqda davam edəcək və 2100-cü ilə qədər dünya əhalisi 10,4 milyarda çatacaq. Sonra isə artım sürəti tədricən zəifləyəcək, əsrin sonuna qədər isə tədricən 10,2 milyard nəfərə enəcək.

Əhali artımının mənfi tərəfləri də az deyil. Bu artım insan potensialının gücünü göstərməklə yanaşı, bəzi ölkələrdə sosial və iqtisadi təzyiqləri artırır, ərzaq təhlükəsizliyi, su ehtiyatları, enerji tələbatı, iqlim dəyişikliyi, səhiyyə xidmətlərinə çıxış və gender bərabərliyi kimi bir sıra ciddi problemləri də gündəmə gətirir. Bu səbəbdən Əhali Günü həm əhalinin artım tempinə, həm də onun keyfiyyətinə - təhsilə, səhiyyəyə, məşğulluğa və rifaha yönəlmiş düşünülmüş siyasətlərin vacibliyini vurğulayır. Əhali artımı dayanıqlı inkişafla uzlaşdırılarsa, bu həm cəmiyyətə, həm də gələcək nəsillərə fayda gətirə bilər.

### Azərbaycan əhalisinin sayı 10 milyonu ötüb

Əhalinin ümumi rifah halının yüksəldilməsi Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ümumdünya Əhali Günü 2005-ci ildən etibarən ölkəmizdə də qeyd olunur. MDB məkanında ilk dəfə olaraq Azərbaycanda elmi əsaslarla işlənilib, demoqrafiya sahəsində dövlət strategiyasını müəyyən edən "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" təsdiq edilib. Konsepsiya onu da göstərir ki, insan amili Azərbaycanda daim prioritetdir.

Əhalinin sağlamlığının qorunması, təhsil imkanlarının genişləndirilməsi, gənclərin inkişafı, ailə institutunun gücləndirilməsi və gender bərabərliyi sahəsində ölkəmizdə mühüm addımlar atılır. Regional balansın qorunması, miqrasiyanın idarə olunması və işsizliyin azaldılması kimi məsələlər də əhali ilə bağlı siyasətin əsas istiqamətlərindəndir.

Dövlət Statistika Komitəsinin 2025-ci il mayın 1-nə olan məlumatına görə, Azərbaycan əhalisinin sayı 10 milyon 270 min nəfərə yaxındır. Ölkə əhalisinin sayı ilin əvvəlindən 11 min 338 nəfər və ya 0,1 faiz artıb. Əhalinin ümumi sayının 54,4 faizini şəhər, 45,6 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

Ümumdünya Əhali Günü təkcə rəqəmləri yox, bu rəqəmlərin arxasında dayanan insan həyatlarını, sosial siyasətləri və planetin gələcəyini düşünmək üçün bir fürsətdir. Dünya əhalisinin artımı təbii ehtiyatların azalması, şəhərləşmənin sürətlənməsi və ətraf mühitin çirklənməsi kimi problemləri də gündəmə gətirir. Bu baxımdan əhalinin idarəolunan şəkildə artımı, dayanıqlı inkişaf strategiyalarının tətbiqi, təhsil və səhiyyə kimi sahələrdə bərabər imkanların yaradılması mühüm əhəmiyyət kəsb edir. Gələcək nəsillər üçün daha yaxşı dünya miras qoymaq məqsədilə dünya ölkələrinin birgə və koordinasiyalı şəkildə hərəkət etməsi zəruridir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# 2025-ci ilin ilk yarısı:

## Azərbaycanın hava nəqliyyatında rekord göstəricilər, tranzit üstünlüyü və sabit inkişaf




2025-ci ilin ilk yarısı Azərbaycanın hava nəqliyyatı sektoru üçün təkcə statistik yox, həm də strateji baxımdan əhəmiyyətli bir dövr olub. Heydər Əliyev Beynəlxalq Aeroportundan AZƏRTAC-a bildirilib ki, uçuşların intensivləşməsi, tranzit yüklənməsinin artması və sərnişindaşımada müşahidə olunan sabit yüksəliş ölkəmizin beynəlxalq aviasiya sistemindəki mövqeyinin daha da möhkəmləndiyini nümayiş etdirir.

### Azərbaycanın hava məkanı: tranzit üçün prioritet marşrut

2025-ci ilin yanvar-iyun aylarında "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsi tərəfindən Azərbaycanın hava məkanında, ümumilikdə, 162 min 500-dən çox aviareysə xidmət göstərilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 20 faizlik artım deməkdir. 2024-cü ilin ilk yarısında bu göstərici 135 min 500 təşkil etmişdi.

Bu aviareyslərin 77 faizi, yəni 125 min 600 reys tranzit uçuşlar olub. Tranzit axınında 28 faizlik artım Azərbaycanın hava məkanının Avropa ilə Asiyanı birləşdirən etibarlı və səmərəli hava dəhlizi statusunu daha da möhkəmləndirib.

Azərbaycan üzərindən ən çox uçuş həyata keçirən aparıcı beynəlxalq aviaşirkətlər arasında "Turkish Airlines", "Singapore Airlines", "Thai Airways", "Cathay Pacific" və "Air India" ön sıralarda yer alıblar.

İyunda isə tarixi rekord qeydə alınıb: bir ayda 29 min 300 uçuş. İyunun 28-də isə bir gündə 1057 uçuşa xidmət göstərilib. Bu, Azərbaycanın aviasiya tarixində ən yüksək günlük göstəricidir.

### Heydər Əliyev Beynəlxalq Aeroportu: sərnişin dövriyyəsində sabit artım




Azərbaycanın əsas hava qapısı olan Heydər Əliyev Beynəlxalq Aeroportu tərəfindən 2025-ci ilin ilk 6 ayında 3 milyon 452 min sərnişinə xidmət göstərilib. Bu, ötən ilin müvafiq dövründə qeydə alınan 3 milyon 388 min sərnişin göstəricisi ilə müqayisədə 2 faizlik artımı əks etdirir.

Bu müddət ərzində 39 aviaşirkət (onlardan 16-sı loukoster) tərəfindən, ümumilikdə, 27 min 91 uçuş həyata keçirilib. Beynəlxalq sərnişinlərin sayı 3 milyon 114 min nəfərə çatıb və bu axının 51 faizi xarici aviadaşıyıcıların payına düşüb. Bakı hava limanından 34 ölkə və 69 şəhərə birbaşa uçuşlar icra olunub.

Tranzit sərnişin axınında da güclü dinamika müşahidə olunub: bu göstərici 17 faiz artaraq 196 min 498 nəfərə yüksəlib. Ən çox səyahət edilən beynəlxalq istiqamətlər sırasına İstanbul, Moskva, Tbilisi, Dubay və Əbu-Dabi daxildir.

### AZAL: beynəlxalq inkişaf və daxili optimallaşdırma

Milli aviadaşıyıcı "Azərbaycan Hava Yolları" (AZAL) 2025-ci ilin ilk yarısında 1 milyon 857 min sərnişin daşıyaraq, 2024-cü ilin eyni dövründə qeydə alınan 1 milyon 811 min sərnişinlə müqayisədə 3 faizlik artıma nail olub. Bu sərnişinlərin 1 milyon 514 mini beynəlxalq reyslərin payına düşür ki, bu da ötən illə müqayisədə 4 faizlik artım deməkdir.

Daxili istiqamətlərdə, xüsusilə Bakı-Naxçıvan-Bakı marşrutu üzrə 1 713 reys yerinə yetirilib və 339 mindən çox sərnişin daşınıb. Sərnişin sayında 2 faiz azalma müşahidə olunsa da, reyslərin sayındakı 6 faizlik artım bu marşrutun çevik və tələbə uyğun planlaşdırıldığını göstərir.

Beləliklə, 2025-ci ilin ilk yarısında əldə olunan nəticələr Azərbaycanın hava nəqliyyatı sektorunun dayanıqlığını, çevikliyini və beynəlxalq inteqrasiya potensialını bir daha nümayiş etdirib. Qarşıdakı dövrdə bu dinamika rəqəmsallaşma, logistik transformasiya və beynəlxalq əməkdaşlıqların genişləndirilməsi baxımından mühüm strateji imkanlar açır.



# İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycan-BƏƏ: "Yaşıl enerji" tərəfdaşlığının tarixi az, nəticələri çoxdur

**Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında əlaqələr strateji tərəfdaşlıq xarakteri daşıyır, siyasi münasibətlərin yüksək səviyyədə olması iqtisadi əməkdaşlığın inkişafına təkan verir. Prezident İlham Əliyevin iyulun 9-da Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü zamanı bu, bir daha vurğulanıb.**




Görüşdə enerji, o cümlədən bərpaolunan enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub və perspektiv layihələr müzakirə edilib. SOCAR-la (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) ADNOC (Əbu-Dabi Milli Neft Şirkəti), həmçinin ölkəmizlə "Masdar" şirkəti arasında bərpaolunan enerji sahəsində əməkdaşlıqdan məmnunluq bildirilib.

Azərbaycan dünyada etibarlı tərəfdaş imici qazanıb. Neft-qaz sahəsində uzun müddətdir tərəfdaşlıq etdiyimiz onlarca şirkət var. İndi onların sayı "yaşıl enerji" layihələrindəki birgə iş sayəsində daha da artır. Bərpaolunan enerji hədəflərimizi bir sıra dünyaşöhrətli şirkətlərlə reallaşdırırıq ki, bunlardan da biri BƏƏ-nin "Masdar" şirkətidir.

Bu şirkətlə tərəfdaşlığın tarixi qısa olsa da, görülən işlərin nəticəsi hər iki ölkəyə məmnunluq gətirir. Belə ki, 2023-cü il oktyabrın 26-da şirkətin tikdiyi 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası işə salındı. "Qaradağ" Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyasıdır. Stansiya 262 milyon dollar dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş-elektrik stansiyasıdır.

Stansiyada hər il 500 milyon kilovatsaat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib. Stansiya 110 mindən çox evi elektrik enerjisi ilə təmin edəcək.

Elə bu stansiyanın açılış mərasimi çərçivəsində dövlətimizin başçısının iştirakı ilə Azərbaycan Hökuməti və "Masdar" şirkəti arasında ümumi gücü 1000 MVt olan "yaşıl enerji" layihələri üzrə üç investisiya müqaviləsi imzalanıb. İnvestisiya müqavilələri Biləsuvar rayonunda 445 MVt gücündə, Neftçala rayonunda 315 MVt gücündə günəş-elektrik stansiyaları və Abşeron-Qaradağ rayonunda 240 MVt gücündə külək-elektrik stansiyası layihələrinin icrasını nəzərdə tutur. İnvestisiya müqavilələri 2022-ci ilin iyun ayında şirkətlə bərpaolunan enerji mənbələri üzrə 4 QVt gücündə "Meqa" layihələrin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı imzalanmış icra müqavilələrinin birinci mərhələsini əhatə edir.

Keçən il iyunun 4-də isə Bakı Enerji Həftəsinin açılışı günü eyni zamanda sözügedən stansiyaların təməli qoyuldu. "Bakı-Ekspo" Mərkəzində təməlqoymadan əvvəlki çıxışında Prezident İlham Əliyev bildirmişdir ki, "bu, sadəcə, başlanğıcdır, çünki potensialımız nəhəngdir. Bizim tərəfdaşlarımız qlobal səviyyədə aparıcı şirkətlərdir və "Masdar" "yaşıl enerji"yə keçid sahəsində ən öndə gedən şirkətdir".

"Yaşıl enerji" sahəsində yaxın və böyük tərəfdaşımız "Masdar" şirkətinin Azərbaycandakı fəaliyyəti COP29-da da vurğulandı. Liderlər Sammitinin açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev "Masdar" şirkətinin adını çəkdi.

Qeyd edək ki, "Masdar" dünyanın ən sürətlə inkişaf edən bərpaolunan enerji şirkətlərindən biridir. Şirkət 2030-cu ilədək 100 QVt-lıq bərpaolunan enerji portfeli yaratmağı və "yaşıl hidrogen" istehsalında da öndə olmağı hədəfləyir. Qlobal təmiz enerji lideri kimi "Masdar" günəş, külək, geotermal, enerjisaxlama batareyası və "yaşıl hidrogen" sahələrində layihələr həyata keçirərək, enerji keçidini sürətləndirməyə çalışır. 2006-cı ildən etibarən 40-dan çox ölkədə layihələrə sərmayə qoyan şirkət təmiz və sərfəli enerji təminatına töhfə verir. Onun fəaliyyət göstərdiyi ölkələr sırasında BƏƏ ilə yanaşı, Səudiyyə Ərəbistanı, İordaniya, Misir, Mərakeş, Böyük Britaniya, ABŞ, Avstraliya, Serbiya, Hindistan, İndoneziya, Özbəkistan və bir çox başqaları var. "Masdar"ın ölkəmizlə də əməkdaşlığının perspektivlərinin böyük olduğu şəksizdir.

ADNOC da yaxın tərəfdaşımızdır. Bu şirkət Xəzərin Azərbaycan sektorundakı "Abşeron" qaz yatağı layihəsində sanballı iştirak payına malikdir. Əslində, ADNOC bir çox sahəni əhatə edən böyük kampaniyadır. Belə ki, onun müxtəlif ölkələrdə quru və dəniz yataqlarında neft və qaz hasilatı ilə, qazma, emal, daşıma, alqı-satqı ilə məşğul olan bir çox şirkəti var. ADNOC Azərbaycanla enerji keçidi sahəsində də fəaliyyət göstərmək fikrindədir.

Beləliklə, BƏƏ ilə "yaşıl enerji" tərəfdaşlığımızın tarixi qısa, nəticələri diqqətəlayiq, perspektivləri böyükdür.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Əsas kapitala 8,07 milyard manatdan çox investisiya yönəldilib

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyun aylarında əsas kapitala 8 milyard 73,5 milyon manat məbləğində investisiya yönəldilmişdir.**

Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 23,8 faiz azalmış, qeyri-neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 13,5 faiz artmışdır. İstifadə olunmuş investisiyanın 4 milyard 67,9 milyon manatı və ya 50,4 faizi məhsul istehsalı sahələrinə, 2 milyard 672 milyon manatı (33,1 faizi) xidmət sahələrinə, 1 milyard 333,6 milyon manatı (16,5 faizi) isə yaşayış evlərinin tikintisinə sərf edilmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 75,2 faizini daxili investisiyalar təşkil etmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 78,2 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

## Bir ayda 1200-dək şəxs üçün kiçik təsərrüfatlar qurulub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramı iştirakçılarının aktivlərlə təminatı davam etdirilir.**

Ötən ay paytaxt və regionlarda 1 192 işsiz və işaxtaran şəxs bu proqram çərçivəsində mal və materiallar formasında aktivlərlə təmin olunub.

Verilmiş aktivlər hesabına proqram iştirakçıları üçün kənd təsərrüfatı, istehsal, xidmət sahələri üzrə kiçik təsərrüfatlar yaradılıb. Proqrama cəlb olunanlar üçün ilk mərhələdə təlimlər təşkil edilir, onlara kiçik biznesin təşkili və idarə olunması üzrə bilik və bacarıqlar öyrədilir.

Təlimləri bitirənlərə biznes planlarına uyğun aktivlər verilir.

## Sənaye məhsulları istehsalı qeyri-neft-qaz sektorunda 6,3 faiz artıb

**Yanvar-iyun aylarında ölkə üzrə 31,2 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 3,1 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 6,3 faiz artmışdır.**



Dövlət Statistika Komitəsi açıqlayıb ki, sənaye məhsullarının 61,8 faizi mədənçıxarma, 31,6 faizi emal, 5,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,0 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

# Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya layihələri icra olunur

**44 günlük Vətən müharibəsində əldə edilən tarixi Zəfərdən sonrakı mərhələdə dövlət başçısının tapşırığına əsasən, şəhid ailələrinin üzvləri və qazilər dövlət qayğısı ilə tam əhatə olunurlar. O cümlədən müharibə əlilləri cəmiyyətə inteqrasiya olunmaları üçün yüksək texnologiyalı protezlərlə təmin edilirlər.**

Şəhid ailələri və müharibə əlillərinə verilən təqaüd və müavinətlər də artırılır. Təkcə son illər bu təbəqədən olan insanların təqaüdlərinin artımı üç dəfə olub. Onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması və avtomobillərlə təmin edilməsi də davam edir. 2021-2025-ci illər ərzində şəhid ailələri, müharibə əlilləri və digər həssas qrupa aid insanların mənzillə tam təminatının həyata keçirilməsi üçün qəbul olunmuş dövlət proqramının icrası da uğurla yekunlaşır. Eyni zamanda qazilərin sağlamlığının qorunması, onların müasir protezlərlə təminatı, reabilitasiya kurslarını keçməsi üçün çox mühüm addımlar atılır ki, bu da onlara sağlamlıqlarını bərpa etməyə, normal həyata qayıtmağa imkan verir. Ümumiyyətlə, əlilliyi olan vətəndaşların sosial problemlərinə dövlət xüsusi həssaslıqla yanaşır və onları məmnun etmək üçün müxtəlif sosial layihələr icra edilir.




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyindən verilən məlumata görə, 2022-ci ildən icrasına başlanmış "RehaBus" (Reabilitasiya Avtobusu) layihəsi çərçivəsində əlilliyi olan 2,1 min şəxsə müxtəlif xidmətlər göstərilib. Bu layihənin məqsədi əlilliyi olan şəxslərin ambulator və icma əsaslı reabilitasiya xidmətlərinə əlçatanlığını artırmaq üçün reabilitasiya müəssisəsinə asan və rahat şəkildə çatmalarını təmin etməkdir. Reabilitasiya avtobusları Bakı və Sumqayıt şəhərlərinin, Abşeron rayonunda əvvəlcədən təyin edilmiş gözləmə məntəqələrindən əlilliyi olan uşaqları (onları müşayiət edən yaxınları ilə birgə) götürərək paytaxtdakı 2 saylı Uşaq Reabilitasiya Mərkəzinə çatdırır. Reabilitasiya proseduru bitdikdən sonra isə onlar yenidən gəldikləri ünvana geri qaytarılırlar.

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi əlilliyi olan şəxslər üçün ilk dəfə olaraq yeni veloreabilitasiya layihəsinə də başlayıb. Bu dəfə məqsəd əlilliyi olan şəxslərin asudə vaxtlarının səmərəli təşkilinə, idmana, o cümlədən paravelosiped idman növünə marağının artırılmasına, onların cəmiyyətə inteqrasiyasına dəstək verməkdir. Agentliyin reabilitasiya mərkəzlərində xidmətlərə cəlb edilən əlilliyi olan şəxslər üçün nəzərdə tutulan layihə Dənizkənarı Milli Parkda icra olunur və 3 ay davam edəcək. Layihə Heydər Əliyev Fondunun dəstəyi, Dənizkənarı Bulvar İdarəsinin təşkilati dəstəyi və "Azərbaycan Əlil Velosipedçilərə Dəstək" İctimai Birliyinin təşəbbüsü ilə həyata keçirilir.

Qeyd edək ki, əl velosipedləri əzələlərin aktivliyini artırır, qan dövranını yaxşılaşdırır, stresin azalmasına, əhvalın yüksəlməsinə və özünə inamın artmasına səbəb olur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Getdikcə daha çox sahibkarın uğur yolu KOB evindən keçir

**İlin birinci yarısında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) KOB evlərində sahibkarlara göstərilən xidmətlərin sayı 260 minə yaxın olub. Bu rəqəmi ölkədə sahibkarlığın inkişafına göstərilən növbəti diqqət və dəstək kimi qiymətləndirmək də mümkündür.**

Qeyd edək ki, KOB evləri konsepsiyası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşəbbüsü ilə sahibkarlıq subyektlərinə "bir pəncərə" prinsipi əsasında çoxsaylı dövlət və qeyri-dövlət xidmətlərinin operativ şəkildə göstərilməsini təmin etmək üçün yaradılıb. Mərkəzlərdə vergi, gömrük, bank, hüquqi məsləhət, lisenziyalaşdırma, dövlət qeydiyyatı, kadr hazırlığı və digər istiqamətlərdə xidmətlər vahid məkanda təqdim olunur. KOBİA-nın məlumatına görə, bu ilin 6 ayında həmin xidmətlərin 170 minə yaxını "Bakı KOB evi"nin, 54 minə yaxını "Yevlax KOB evi"nin, 34 minə yaxını isə "Xaçmaz KOB evi" və onun Xudat şəhərindəki xidmət mərkəzinin payına düşüb. Xidmətlərin 232 mindən çoxu dövlət ("G2B"), 24 mindən çoxu isə biznes qurumları ("B2B") tərəfindən həyata keçirilib ki, bu da sahibkarlara həm vaxtlarına, həm də resurslarına qənaət etməyə imkan verib. Sahibkarlar KOB evlərinə daha çox yükdaşımaları həyata keçirmək üçün icazə blankı, fərqlənmə nişanı, mənşə sertifikatı, fiziki şəxsin vergi uçotuna alınması, vergi, gömrük, kommunal xidmətlər və s. üçün müraciət ediblər.

Statistik rəqəmlərdən yola çıxaraq deyə bilərik ki, ilin birinci yarısında təqdim olunan xidmətlərin sayının artması bir neçə amillə bağlıdır. Bunlardan biri sahibkarlar arasında KOB evlərinin fəaliyyətinə olan inamın yüksəlməsi, digəri bu mərkəzlərin sayının və funksionallığının genişləndirilməsidir. KOB evlərində göstərilən xidmətlərin keyfiyyəti və çevikliyi də sahibkarlar tərəfindən yüksək qiymətləndirilir. Burada fəaliyyət göstərən əməkdaşlar müraciətləri fərdi qaydada araşdırır, sahibkarlara konkret ehtiyaclarına uyğun məsləhətlər verir və zəruri hallarda dövlət qurumları ilə əlaqələndirici funksiyanı yerinə yetirirlər. KOBİA-nın məlumatında bu faktla bağlı qeyd olunub ki, sahibkarların KOB evlərində göstərilən xidmətlərdən məmnunluq səviyyəsi 98 faiz təşkil edir.

KOB evlərində sahibkarlığın dəstəklənməsi yalnız xidmətlərin təqdimatı ilə məhdudlaşmır. Burada onlar üçün müxtəlif təlimlər, seminarlar, maarifləndirici tədbirlər də təşkil olunur. Həmin tədbirlər həm sahibkarların bilik və bacarıqlarını artırır, həm də dövlətin təqdim etdiyi güzəşt və proqramlarla onları daha yaxından tanış edir. Üstəlik bu tədbirlər sahibkarlar arasında qarşılıqlı təcrübə mübadiləsinə və potensial əməkdaşlıqlara şərait yaradır. Ona görə də KOB evlərinə əməkdaşlıq imkanlarının genişlənməsinə şərait yaradan vahid məkan, daha doğrusu, vacib platforma desək, yanılmarıq. Burada keçirilən görüşlər və təlimlər yeni tərəfdaşlıqların, eləcə də birgə layihələrin formalaşmasına stimul verir.




KOB evləri həmçinin regionlarda sahibkarlığın inkişafına töhfə verən bir infrastruktur elementi kimi çıxış edir. Regionlarda fəaliyyət göstərən bisnes strukturları üçün birbaşa və operativ xidmətlərə çıxış imkanı yaradan bu evlər iqtisadi fəallığın bölgələrə yayılmasını və yerli potensialın üzə çıxarılmasını dəstəkləyir. Söz düşmüşkən qeyd edək ki, Bakı, Xaçmaz və Yevlax şəhərlərində fəaliyyət göstərən KOB evlərində sahibkarlara 50-yə yaxın dövlət və özəl qurum tərəfindən 400-dən çox "G2B" və "B2B" tipli xidmətlər təqdim olunur. Bu da öz növbəsində sahibkarlara həm vaxtlarına və resurslarına qənaət etmələrinə, həm də fəaliyyətlərini daha səmərəli və şəffaf şəkildə qurmalarına imkan verir. Bu baxımdan təkcə 6 ayda 260 minə yaxın xidmətin göstərilməsi yalnız statistik rəqəm deyil, həmçinin yüzlərlə sahibkarın işinin asanlaşmasıdır. Başqa sözlə, sahibkarların dövlət qurumlarına müraciət prosesinin sadələşməsi, bürokratik əngəllərin minimuma enməsi və xidmətlərə çıxış müddətinin qısalmasıdır. Mərkəzlərə yaxınlıq, xidmətlərin əlçatanlığı və eyni məkanda bir çox qurumun cəmləşməsi həm də xüsusən bölgələrdə fəaliyyət göstərən sahibkarların imkanlarını artırır, onları innovativ yanaşmalara və rəqabətqabiliyyətli məhsul istehsalına həvəsləndirir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## 27 sosial reabilitasiya mərkəzi fəaliyyətə başlayıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin əlilliyi olan uşaqlarla bağlı layihəsi çərçivəsində 27 şəhər və rayonda sosial reabilitasiya mərkəzləri fəaliyyətə başlayıb.**

Agentliyin sosial sifarişləri əsasında yaradılan bu mərkəzlər Ağcabədi, Ağstafa, Balakən, Bərdə, Daşkəsən, Füzuli, Kürdəmir, Gəncə, Göygöl, Qax, Qazax, Qəbələ, Qobustan, Mingəçevir, Naftalan, Oğuz, Sabirabad, Samux, Şabran, Şamaxı, Şəki, Tərtər, Tovuz, Yardımlı, Yevlax, Zaqatala və Zərdab rayonlarını əhatə edir.



Yeni fəaliyyətə başlayan mərkəzlərdə əlilliyi olan uşaqlara sosial-psixoloji reabilitasiya və abilitasiya xidmətləri göstərilir. Bu xidmətlər çərçivəsində uşaqlarla fərdi və qrup şəklində psixoloji məşğələlər keçirilir, həmçinin onların sosial ünsiyyət və özünəqulluq bacarıqları inkişaf etdirilir.

# Dünya səyyahları Şuşa, Xankəndi, Füzuli və Ağdamda olublar











Dünyaşöhrətli MTP (Most Traveled People) beynəlxalq səyahətçilər klubunun 30 nəfərlik heyəti Qarabağa və Şərqi Zəngəzura səfəri çərçivəsində Şuşa şəhəri ilə tanış olub.

MTP klubunun təsisçisi, amerikalı Çarlz Vilinin rəhbərlik etdiyi səyyahlar əvvəlcə Şuşa şəhərinin mərkəzi meydanında Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərinə baxıblar. Qonaqlara Şuşa şəhəri, onun işğal dövründəki vəziyyəti və burada həyata keçirilən yenidənqurma işləri barədə məlumat verilib. Bildirilib ki, otuzillik işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

On beş ölkədən səyyahların yer aldığı heyət sonra Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı olan ərazi və qala divarları, Şuşa türməsi ilə tanış olub.

Sonda Cıdır düzünə gələn səyyahlar buradan açılan əsrarəngiz mənzərəni seyr ediblər.

Heyətin 3 gün ərzində avtomobil yolu ilə Füzuli-Xocavənd-Şuşa-Xankəndi-Xocalı-Ağdam-Kəlbəcər-Laçın-Zəngilan-Cəbrayıl marşrutu üzrə hərəkət etməyi planlaşdırılır. Bu səfər işğaldan azad edilmiş ərazilərin "dark tourism" çərçivəsində tanıdılması, nəhəng quruculuq-bərpa işlərinin nümayişi üçün böyük imkan yaradır.

Qeyd edək ki, son 4 il ərzində dünyanın əsas beynəlxalq səyahətçilər klublarının xətti ilə Qarabağ və Şərqi Zəngəzura 13 dəfə beynəlxalq səyahətçilər səfər edib.

❖ ❖ ❖

Dünyanın 30 ölkəsindən Qarabağa səfər edən səyyahlar iyulun 10-da Füzuli və Şuşadan sonra Xankəndi şəhərinə gəliblər. Səyyahlar Xankəndi şəhərinin mərkəzi meydanında həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri ilə tanış olublar.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları qonaqlara Xankəndi azad edildikdən sonra görülən işlər barədə məlumat veriblər. Bildirilib ki, infrastrukturun qurulması ilə yanaşı, şəhərin əsl tarixi siması özünə qayıdır və bu gün Xankəndi Azərbaycanın ən gözəl şəhərlərindən birinə çevrilir.

Şuşa şəhərində olduğu kimi, Xankəndi şəhər poçtundan da İrlandiya və Kanadaya məktub göndərilib.

❖ ❖ ❖

Dünən dünyaşöhrətli MTP (Most Traveled People) beynəlxalq səyyahlar klubunun Qarabağ və Şərqi Zəngəzura səfəri başlayıb. Onlar ilk olaraq Füzuli şəhərinə gəliblər.

Səfərin ilk günündə səyyahlar Füzuli Beynəlxalq Hava Limanı ilə tanış olublar. Sonra işğal dövründə dağıdılan ərazilərə baxıb, eyni zamanda azad edilən Füzulidə dövlətimizin apardığı tikinti-quruculuq işlərinin şahidi olublar.

On beş ölkədən səyyahların yer aldığı heyətə MTP klubunun təsisçisi, amerikalı Çarlz Vili rəhbərlik edir. Heyət 3 gün ərzində Füzuli-Xocavənd-Şuşa-Xankəndi-Xocalı-Ağdam-Kəlbəcər-Laçın-Zəngilan-Cəbrayıl marşrutu üzrə hərəkət etməyi planlaşdırır. Bu səfər işğaldan azad edilmiş ərazilərin "dark tourism" çərçivəsində tanıdılması, nəhəng bərpa-quruculuq işlərinin nümayişi üçün böyük imkan yaradır.

❖ ❖ ❖

Dünyaşöhrətli "Most Traveled People" (MTP) beynəlxalq səyyahlar klubunun 30 nəfərlik heyəti Qarabağa və Şərqi Zəngəzura səfər çərçivəsində iyulun 10-da Ağdama gəlib. On beş ölkədən səyyahların yer aldığı heyətə MTP klubunun təsisçisi, amerikalı Çarlz Vili rəhbərlik edir.

Şuşa və Xankəndidən sonra Ağdam şəhərindəki Şəhidlər xiyabanına gələn səyyahlara burada Birinci Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladlarının, o cümlədən Xocalı soyqırımında qətlə yetirilən dinc sakinlərin bir hissəsinin dəfn edildiyi bildirilib. Qeyd olunub ki, Ağdam şəhərini yerlə-yeksan edən erməni vandalları Şəhidlər xiyabanındakı qəbirləri də dağıdıblar.

Səyyahlar Ağdam şəhərinin dağıntılarına və yeni inşa olunan yaşayış binalarına baxıblar. Prezidentin xüsusi nümayəndəliyinin əməkdaşı onlara ermənilərin işğal dövründə törətdikləri vandalizm və Ağdam işğaldan azad olunandan sonra Azərbaycan dövlətinin həyata keçirdiyi tikinti-quruculuq işləri barədə məlumat verib. Sonra Ağdam şəhər Cümə məscidi ilə tanışlıq olub. Bildirilib ki, 1868-1870-ci illərdə inşa edilmiş məscid də digər tarixi-dini abidələr kimi, erməni vandalizminə məruz qalıb. Məscidin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb. Erməni vandalları Ağdam Cümə məscidində malqara saxlayıblar. Ağdam şəhəri işğaldan azad edildikdən sonra məscid Azərbaycan dövləti tərəfindən bərpa olunub.

Beynəlxalq səyyahlar 3 gün ərzində Füzuli-Xocavənd-Şuşa-Xankəndi-Xocalı-Ağdam-Kəlbəcər-Laçın-Zəngilan-Cəbrayıl marşrutu üzrə hərəkət edəcəklər. Bu səfər işğaldan azad edilmiş ərazilərin "dark tourism" çərçivəsində tanıdılması, nəhəng bərpa-quruculuq işlərinin nümayişi üçün böyük imkan yaradır.

***AZƏRTAC***

# Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğal etməsi zamanı əsirlikdə və girovluqda dəhşətli işgəncələrə məruz qalmış şəxslər məhkəmədə ifadə veriblər

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 10-da davam etdirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş Vüqar Eminov deyib ki, 1994-cü ildə Ağdamın Güllücə kəndində yaralı vəziyyətdə əsir götürülüb. Əvvəlcə Xankəndiyə, sonra Şuşaya aparılaraq həbsxanada saxlanılıb. Əsirlikdə saxlandığı müddətdə ona dəhşətli işgəncələr verilib. Hər gün rezin dəyənək, dəmir parçası ilə döyülüb, bədəninə elektrik cərəyanı verilib. Məcburi əməyə cəlb edilib, uzun müddət çətin işlərdə işlədilib. Dövlət ittihamçısı Vüsal Abdullayevin sualına cavabında bildirib ki, onunla birlikdə saxlanılan bəzi əsirlər verilmiş işgəncələr nəticəsində dünyasını dəyişib. O, 1995-ci ildə əsirlikdən azad olunub.

Zərərçəkmiş Teyyub İsmayılov da Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində zərər çəkib. O, ifadəsində bildirib ki, bu müharibə nəticəsində yaralanıb və sağlamlığını itirib. Dövlət ittihamçısı Təranə Məmmədovanın sualına cavabında bildirib ki, həmin vaxt Ermənistan silahlı qüvvələri yaşayış məntəqələrimizə iriçaplı silahlar və ağır texnika ilə hücum edib.

Məhkəmədə ifadə verən İmran Quliyev deyib ki, Ermənistan Xocalını işğal edəndə bacısı Zöhrə Quliyeva şəhid olub, özü isə yaralanıb. Düşmən ona bacısının nəşini götürməyə belə imkan verməyib. İ.Quliyev buna üç gündən sonra böyük çətinliklə nail olub. Qardaşı Zakir Quliyevin taleyindən isə indiyədək xəbər yoxdur. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualına cavabında bildirib ki, həmin vaxt mühasirədə olan Xocalının dinc sakinləri hər gün atəşə tutulub.

Zərərçəkmiş Ramil Ələkbərov ailə üzvləri ilə Xocalıda Qala dərəsi adlandırılan yerdə yaşadıqlarını, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə - Xocalı soyqırımı zamanı ermənilərin mülki azərbaycanlıları atəşə tutduğunu, nəticədə ölənlərin olduğunu, özünün isə sağ ayağından yaralandığını, 200 nəfərdən çox azərbaycanlı ilə birlikdə girov götürüldüyünü bildirib. Həmin vaxt 12 yaşı olan zərərçəkmiş deyib ki, orada aralarından 12-13 nəfər girov şəxs ermənilər tərəfindən çölə çıxarılıb. Həmin şəxslərin hamısı güllələnərək qətlə yetirilib. Girovlardan bir qismi isə seçilərək avtomobillə naməlum istiqamətə aparılıb.

Ramin Əzizov Xocalı soyqırımı zamanı doğmalarının qətlə yetirildiyini söyləyib. O, hadisələr zamanı 14 yaşının olduğunu, ermənilərin atdığı "Alazan" raketinin partlaması nəticəsində bədəninin müxtəlif nahiyələrindən xəsarətlər aldığını deyib. R.Əzizov fevralın 26-da digər azərbaycanlılarla birlikdə ermənilər tərəfindən girov götürüldüyünü, martın 3-də azad edildiyini bildirib. Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında deyib: "Yaşımın az olmasına baxmayaraq, mənə də işgəncə verirdilər, döyürdülər. İşgəncə verənlərdən Edik adlı erməninin adı yadımda qalıb".

Xocalı işğal olunanda zərərçəkmiş Mübariz Həmidovun isə 13 yaşı olub. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə atəş, partlayış və insanların qışqırıq səsinə yuxudan oyanıb. Ermənistan silahlı qüvvələri şəhərə hücum edərək evləri yandırıb, insanları güllələyiblər. Mülki əhali canını qurtarmaq üçün qarda, şaxtada ayaqyalın, başıaçıq Kətik meşəsinə üz tutub. Amma düşmən onlara qaçmağa da imkan verməyib. Yolda insanlara atəş açaraq gülləbaran ediblər. Mübariz Həmidov dövlət ittihamçısı Fuad Musayevin sualına cavabında deyib ki, o, canını birtəhər qurtararaq Ağdamın Şelli kəndinə gəlib. Hadisə zamanı anasını, dayısını və daha bir neçə nəfər doğmasını itirib. İndiyədək anasının taleyindən xəbər yoxdur. Həmin vaxt ayaqları donduğundan həkimlər onun barmaqlarından üçünü amputasiya etməli olub.

Ramin Bağırov Xocalı faciəsi zamanı azyaşlı olduğunu, yaxınları ilə birlikdə Dəhraz adlı yerdə girov götürüldüyünü bildirib. Onlar donuz fermasında saxlanılıb. Fevralın 29-da digər azərbaycanlılarla birlikdə girovluqdan azad edilib. Xocalı hadisələri zamanı əmisi və dayısı itkin düşüb, onlardan hələ də məlumat yoxdur.

Rövşən Xudayarov Xocalı soyqırımı zamanı 19 yaşının olduğunu, hücumla əlaqədar qardaşları, bacıları və digər doğmaları ilə birlikdə yaşadıqları ərazini tərk etmək məcburiyyətində qaldıqlarını bildirib. O, digər qohumları və həmyerliləri ilə birlikdə meşədə qaldıqlarını, fevralın 28-də Ermənistan silahlı qüvvələri tərəfindən girov götürüldüklərini bildirib. Girov düşən zaman onlara atəş açılıb. Nəticədə ölənlər və yaralananlar olub. Həmin vaxt R.Xudayarov da yaralanıb.

Xaliq Mirzəyev ifadəsində 1996-cı ilin avqust ayında Gədəbəy rayonunun Qaravəlilər kəndində meşədə gəzərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürüldüyünü bildirib. 45 gündən sonra Azərbaycana qaytarılıb.

Vaqif Namazov ifadəsində Xocalı soyqırımı zamanı çoxsaylı qəlpə yaraları aldığını, qəlpələrdən təxminən 20-sinin hələ də bədənində qaldığını bildirib. Qeyd edib ki, Ermənistan hərbçiləri onu girov götürərək Əsgərana aparıb. Fevralın 27-də isə Azərbaycana qaytarılıb.

Ceyhun Əbdülov ifadəsində Xocalıda anadan olduğunu, soyqırımı zamanı ailə üzvləri ilə Xocalını tərk etdiklərini bildirib. Həmin vaxt o, yaralanıb və anası ilə birlikdə girov götürülüb. Zərərçəkmiş daha sonra Xankəndiyə aparılıb. Girovluqda üç ay saxlanılıb.

Mürvət Məmmədov deyib ki, onun ailəsi Qərbi Azərbaycandan məcburi şəkildə didərgin salınanlardandır. 1988-ci ildə Xocalıda məskunlaşıblar. Xocalı soyqırımı törədiləndə yaralanıb. Ailəsi ilə birlikdə girov götürülüb. Atasının və qardaşlarının başını kəsiblər. Onun gözü qarşısında Xocalıdan olan Əhməd adlı azyaşlı oğlanın isə əlinin içinə odlu silahla atəş açıblar. Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualına cavabında deyib ki, 7 gün girovluqda saxlandığı zaman ona müxtəlif işgəncələr verilib. Onunla bərabər digər beş ailə üzvü də girovluqda saxlanılıb və işgəncələrə məruz qalıb.

"Atamın və qardaşlarımın başlarını kəsiblər. Onların indiyə qədər meyitləri tapılmayıb", - deyə o əlavə edib.

Bildirib ki, yeddi gün girovluqda saxlanılıb, həmin müddətdə işgəncələrə məruz qalıb.

Ələsgər Abbasov ifadəsində 1992-ci ildə Qazax rayonunun kəndlərinin müdafiəsi uğrunda gedən döyüşlərdə yaralandığını bildirib.

Vahid Quliyev 1992-ci ildə Qırmızıbazarda yaralanaraq əsir götürüldüyünü, 1 ay 4 gün sonra Azərbaycana təhvil verildiyini və həmin müddət ərzində amansız işgəncələrə məruz qaldığını deyib.

Səfər Sadıqov Fərrux dağı uğrunda gedən döyüşlərdə yaralandığını və əsir götürüldüyünü deyib. O, əsirlik müddətində müxtəlif ağır işgəncələrə məruz qaldığını söyləyib.

Mehman Yusifov, Əli İsmayılov, Adil Yusifov və Nazim Hüseynov 1992-ci ildə Qazaxın Quşçu Ayrım kəndinin müdafiəsi uğrunda gedən döyüşlərdə Ermənistan ordusunun açdığı atəşlər nəticəsində yaralandıqlarını bildirib.

Təhsin Həsənov 1991-ci ildə, Famil Məmmədov 2003-cü ildə Qazax rayonunda girov götürüldüklərini söyləyib. Hər iki şəxs girovluqda olan zaman işgəncələrə məruz qaldıqlarını qeyd edib.

Mikayıl İbrahimov 1992-ci ildə Qazaxın Balacəfərli kəndində ermənilərin mülki avtomobili atəşə tutması nəticəsində yaralandığını deyib.

Aydın Süleymanov 1995-ci ildə Qazax rayonunun Kəmərli kəndində heyvan otaran zaman girov götürülüb, 3 gün sonra Azərbaycana qaytarılıb. Həmin müddət ərzində müxtəlif işgəncələrə məruz qalıb və döyülüb.

Zaur Əliyev ifadəsində 1992-ci ildə Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı atasının qabırğasının, əmisinin çənəsinin və dişlərinin qırıldığını deyib. Onların evi talan edilib, özləri Xankəndiyə aparılıb. Əmisi 4 ay, atası 5 ay girovluqda olub. Özü isə Ermənistanın Qafan rayonunda ermənilərdən birinin evinin həyətində damda saxlanılıb. İki həftə ayağından kəndirlə bağlı vəziyyətdə qalıb. Ümumilikdə 6 ay girovluqda saxlanılıb. Girov götürülən zaman onun 9 yaşı olub.

Bəşir Qarayev ifadəsində 1993-cü ildə girov götürüldüyünü, Şuşa həbsxanasında saxlanıldığını, həmin müddətdə işgəncələrə məruz qaldığını, ölən azərbaycanlı əsir və girovların həbsxananın həyətində basdırıldığını deyib.

Ömər Ələkbərov 2020-ci il noyabrın 9-da Xocavənddə yaralandığını, huşsuz vəziyyətdə əsir götürüldüyünü bildirib. O, əsirlikdə olduğu 34 gün ərzində işgəncələrə məruz qaldığını söyləyib.

Hamaya Alıyeva ifadəsində 1992-ci ilin aprelin 8-də Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonunun Ağdaban kəndinə hücum edərkən kənd sakinlərini qətlə yetirdiyini, həmin vaxt həyat yoldaşı Kamal Abıyevin və qızı Ülviyyə Abıyevanın öldürüldüyünü deyib.

Vazeh Qaraşov Ermənistan ordusunun Ağdabana hücumu zamanı kəndin digər evləri kimi onun da evinin talan edildiyini bildirib.

Duman Müseyibov ifadəsində 1992-ci ildə Goranboyda qardaşının Ermənistan silahlı qüvvələri tərəfindən güllələnərək öldürüldüyünü, özünün isə yaralandığını bildirib.

Yalçın Süleymanov ifadəsində 1992-ci ildə Ağdərə uğrunda gedən döyüşlər zamanı əsir götürüldüyünü, 2 il 11 ay Şuşada saxlanıldığını, həmin müddətdə işgəncələrə məruz qaldığını, məcburi şəkildə işlədildiyini söyləyib.

Bayram Kərəmov 2020-ci il noyabrın 8-də Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində yaralandığını, noyabrın 11-də əsir götürüldüyünü, dekabrın 14-də Azərbaycana təhvil verildiyini, əsirlikdə olduğu müddətdə müxtəlif işgəncələrə məruz qaldığını söyləyib.

Elxan Novruzov ifadəsində 1992-ci ildə Kəlbəcərdə yaralandığını və əsir götürüldüyünü bildirib. O, Ağdərə rayonunda saxlanılıb. Əsirlik müddətində döyülüb, çoxsaylı işgəncələrə məruz qalıb, o cümlədən dişləri çəkilib. E.Novruzov 4 il 1 ay əsirlikdə saxlanılıb, 1996-cı il mayın 10-da əsirlikdən azad olunub.

Samir Məcidov ifadəsində bildirib ki, Ağdam rayonu uğrunda gedən döyüşlərdə yaralanıb və Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürülüb, Şuşa həbsxanasına aparılıb. O, 2 ay 6 gün əsirlikdə saxlanıldığı müddət ərzində işgəncələrə məruz qalıb, müxtəlif alətlərlə döyülüb.

Zaur Alıyev ifadəsində 8 ay əsirlikdə saxlanıldığını bildirib. Həmin müddətdə digər əsir və girovlar kimi ona da işgəncə verilib.

Zərərçəkənlər, həmçinin təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını cavablandırıblar.

Məhkəmə prosesində, həmçinin zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmə prosesi iyulun 11-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni, Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Azərbaycan Milli Mətbuatı - 150

**Müasir dünya bir çox mənbədən insanın üzərinə yağan çoxlu məlumat, aramsız informasiya axını ilə xarakterizə olunur: qəzetlərdən və televiziyadan saysız-hesabsız internet saytlarına və sosial şəbəkələrə qədər. Məhz belə bir şəraitdə media savadlılığının əhəmiyyəti artır. Auditoriyanın medianın ötürdüyü mesajları tənqidi şəkildə dərk etmək, onların etibarlılığını və müəlliflərin irəli sürdüyü mümkün məqsədləri müəyyən etmək bacarığı önəmlidir. Bu konsepsiya XX əsrin ikinci yarısında, televiziya, radio və çap mediasının geniş yayıldığı zaman inkişaf etməyə başladı.**



## Rəqəmsal dönəmdə yeni media savadlılığı - manipulyasiyaya qarşı silah



O vaxt tədqiqatçıların əsas məqsədi ictimaiyyətə aldıqları mesajın sətiraltı mətnini görməyi və hər hansı media mesajının arxasında gizlənə biləcək ideoloji və kommersiya maraqlarını sezməyi öyrətmək idi. Dünyanın bir çox ölkəsində media savadlılığı inkişaf edib media tədrisinə olan ehtiyacı üzə çıxarsa da, Azərbaycanda media savadlılığı sahəsində görülən işlərin tarixi çox yenidir. Daha sonra rəqəmsal texnologiyaların və qlobal internetin yaranması ilə media savadlılığına ehtiyac əhəmiyyətli dərəcədə artdı və təkcə informasiyanın təhlili deyil, həm də öz media məzmununu yaratmaq və onun yayılmasının etik, həmçinin hüquqi aspektlərini anlamaq bacarığı da bu sahənin zəruri elementlərinə çevrilməyə başladı.

XX əsrdə əsasən çap materialları - qəzetlər, jurnallar, radio və televiziya ictimai rəyin formalaşmasında əsas rol oynayıb. Kütləvi informasiya vasitələrinin kontent yaradıcıları - jurnalistlər və redaktorlar filtr funksiyasında çıxış edərək hansı hadisələrin işıqlandırılmağa layiq olduğuna, hansı məlumatın isə diqqətdən kənarda qala biləcəyinə qərar verirdilər. Bu dövr mərkəzləşdirilmiş yayım modeli, məzmun istehsalı və yayılması üçün nisbətən yüksək xərclərlə xarakterizə olunurdu. Qəzet biznesi və televiziya kanalları materialların müəyyən siyasət və keyfiyyət standartlarına cavab verməsini təmin edən, lakin eyni zamanda fikir müxtəlifliyini məhdudlaşdıra biləcək böyük redaksiyalar yaratdı.

Tənqidi düşüncə tərzi media savadlılığının əsasını təşkil edir. Bu keyfiyyət media məhsulunu kimin hansı məqsədlə yaratdığı, onun auditoriyaya necə təsir göstərə biləcəyi və informasiyanın hansı faktlara əsaslandığı barədə daim suallar vermək istəyində özünü göstərir. İnsan qəzetdən, televiziyadan, sosial şəbəkədən hər hansı məlumatı aldıqda, onun media savadlılıq səviyyəsi bu məlumatın manipulyasiya, təbliğat və ya xəbər olduğunu seçməyə imkan verir. İnformasiyaya belə skeptik münasibət olmadan saxta xəbərlərin və kliklərin qurbanı olmaq asandır, xüsusən də məzmun emosional və ya səs-küylü başlıqla təqdim olunarsa.

Media savadlılığının digər mühüm aspekti müxtəlif media kanallarının fəaliyyət özünəməxsusluğunu dəqiq başa düşməkdir. Çap mediası, televiziya, radio və onlayn platformalar - hər biri müxtəlif prinsiplər əsasında fəaliyyət göstərir. Televiziya daha böyük kütləvi auditoriyaya yönəlib, tamaşaçıdan dərhal emosional reaksiya almağa çalışır, qəzet isə televiziyadan eşitdiyimiz xəbərin daha ətraflı təhlilini təqdim edə bilər. Sosial media, bloqlar və podkastlar interaktiv xarakterinə görə ikitərəfli ünsiyyəti və mərkəzləşdirilməmiş paylama modelini nəzərdə tutur. Bu spesifikliyi dərk etməklə insan aldığı mesajları daha düzgün şərh edə bilir və zamanla ənənəvi mənbələrin nüfuzunu internetdəki "xəbər ictimaiyyəti"nin populyarlığı ilə qarışdırmır.

Rəqəmsal inqilabın gəlişi ilə ənənəvi medianı anlama bacarıqlarının artıq kifayət etmədiyi aydın oldu. İnternet istifadəçiləri nəinki başqalarının mətnlərini təhlil edir, həm də özləri media məzmunu yaradırlar: bloq yazmaq, foto və videolar yerləşdirmək, başqalarının yazılarına şərh vermək bu qəbildəndir. Məhz buna görə də media savadlılığının sərhədlərinin genişləndiyini müşahidə etmək mümkündür. Daha dəqiq desək, yeni media dövrünə uyğunlaşdırılmış media savadlılığı vacib amilə çevrilib. Bu gün yeni media dövründə media savadlılığına texniki səriştə, analitik düşüncə, etik standartlara bələd olmaq və onlayn məkanda effektiv qarşılıqlı fəaliyyət bacarığı daxildir.

XX əsrin sonu və XXI əsrin əvvəllərində vəziyyət kəskin şəkildə dəyişməyə başladı, İnternetin yaranması və geniş yayılması, sosial şəbəkələr informasiya mübadiləsini daha çevik hala gətirdi, həm də kütləvi kommunikasiya prosesini çoxşaxəli etdi.

Bloqların, podkastların, axın platformalarının yaranması və mobil cihazların çoxalması media məzmununun istehsalı və yayılması prosesini kökündən sadələşdirdi. İndi demək olar ki, internet bağlantısı və əsas texniki bacarıqları olan hər kəs "media istehsalçısı" ola bilər. Buna görə də yeni medianın interaktivliyi onun təməl özəlliyi kimi təsvir olunur: istifadəçi məlumat almaqla yanaşı, həm də dərhal öz fikrini bölüşə, müzakirəyə başlaya və ya öz materialını dərc edə bilər. Beləliklə, yeni media yönləndirmə prinsipi ilə səs, məlumat rabitəsini və kütləvi kommunikasiyanı vahid alətdə - eyni sistemdə birləşdirə bilir. Yeni media eyni bir kanal vasitəsilə audio, video və çap məhsullarını yaya bilir.

Bütün bu imkanlar fərdlərə ətrafdakıların fotoşəkillərini çəkmək, onları sürətlə yaymaq və onlara şərh vermək imkanı verir. Bu zaman fərdlər televiziyaya, qəzetə bağlı qalmadan ətraflarında baş verənlərdən xəbərdar ola, üstəlik, öz xəbərlərini yarada bilərlər. Media məkanında baş verən bu cür köklü dəyişikliklər həm auditoriyaya, həm də peşəkar jurnalistlərə təsirsiz ötüşmədi. Bir tərəfdən, auditoriya daha geniş informasiya mənbələri və formatları arasından seçim etmək imkanı qazandı. Əvvəllər faktiki olaraq xəbər və analitik materialları öz inhisarında saxlayan ənənəvi media orqanları indi təkcə bir-biri ilə deyil, minlərlə müstəqil bloqçu, "Yutub" kanalı və sosial şəbəkələrdəki ictimai səhifələrlə rəqabət aparmalı olurlar. Digər tərəfdən, informasiya mübadiləsində ümumi sürətlənmə müşahidə olunur: xəbərlərin dərcolunma sürəti dəfələrlə artıb və ənənəvi redaksiyaların sosial şəbəkələrdə lentin ani yenilənməsinə öyrəşmiş auditoriyanı saxlaması çətinləşib.

Media sahəsindəki bu yeniliklər bir sıra yeni problemlərin ortaya çıxmasına səbəb oldu. Rəqəmsal platformalarda mərkəzləşdirilmiş redaktə prosesi nəzərdə tutulmadığından yoxlanılmamış məlumatların, dezinformasiyaların və saxtakarlıqların kütləvi dövriyyəsi qlobal miqyas alır. Məhz buna görədir ki, nüfuzunu itirməməyə və ictimaiyyətin etimadını qorumağa çalışan jurnalistlər getdikcə fakt-chekinq üsullarını mənimsəməyə və gündəlik təcrübələrində tətbiq etməyə başlayıblar. Faktın yoxlanması həmişə jurnalistin etik normalarının və peşəkar iş rejiminin əsas aspekti olub. Operativlik uğrunda yarış çox vaxt keyfiyyətli jurnalistikaya əngəl olduğu üçün video, fotoşəkil və mətnlərin çevik və dəqiq yoxlanılmasına ehtiyac artır.

Rəqəmsal əsr təkcə insanların məlumatı yaratma və qəbul etmə üsullarını deyil, həm də bütövlükdə insan həyatının psixoloji mənzərəsini dəyişdi. Yeni media ilə gündəlik həyatımızda sıx təmasdayıq: səhər açılan kimi smartfonlarımızda bildirişləri yoxlayır, söhbət edir, videolara baxır, xəbərlər oxuyur və öz bloqlarımızı yazırıq. Bütün bunlar şəxsiyyətin özünə inamını və düşüncə tərzini formalaşdıran reallığın xüsusi "rəqəmsal təbəqəsini" təşkil edir. Yeni media məkanı ilə bağlı ən mühüm amillərdən biri şəxsiyyətin bu platformada özünü yenidən təqdim etməsi ilə bağlıdır. İnsanlar getdikcə öz imiclərini təkcə oflayn mühitdə deyil, həm də sosial şəbəkələrdə qururlar. Təhsil və iş həyatı ilə bağlı fotoşəkillər, peşə uğurları haqqında yazılar, baş verən siyasi və mədəni hadisələrə dair rəylər - bütün bu elementlər insanın "rəqəmsal portret"inə çevrilir. Bu, bir tərəfdən insanın özünü təqdimatına imkan verir, lakin digər tərəfdən, istifadəçi bu mühitdə fərqli görüntülər içərisində qərar tuta bilməzsə, daxili münaqişəyə və şəxsiyyətin parçalanmasına düçar ola bilər.

Etiraf edək ki, gənclərin formalaşmasında, sosial kimliklərinin cilalanmasında medianın rolu böyükdür. Bəzi gənclər üçün onlayn ünsiyyət hər hansı sosial qrupa aid olmağın yeganə yoludur. Onlayn və oflayn həmyaşıd qrupları ünsiyyəti gənclərə güc, əməkdaşlıq və rəqabət, inam, yaxınlıq və hörmət haqqında bir çox sosial dərsi öyrənməyə imkan yaradır. Yeniyetmələrin internetdə yayılan oyunlara aludə olması, hətta intihara qədər aparması faktları da mövcuddur. Məsələn, 2025-ci ilin fevralında Yardımlı rayonunda 15 yaşlı yeniyetmə intihar etməmişdən qabaq yazdığı məktubda hansısa oyunda ona vaxt qoyulduğunu və o tarixə qədər özünü öldürməli olduğunu qeyd edib. Belə faktlar bir daha yeniyetmələrin mediadan istifadəsində xüsusilə diqqətli olmağın, onlara media savadlılığını aşılamağın vacibliyini göstərir. Qonşu ölkələrin təcrübəsinə əsaslansaq, media savadlılığının orta məktəblərin, həmçinin ixtisas yönümündən asılı olmayaraq ali təhsil ocaqlarının tədris proqramlarına salınması uğurlu nəticələrin əldə edilməsinə səbəb olacaq.

Bu sahədə ciddi problemlərdən biri də başqalarının rəyindən və bəyənmələrdən asılılıqdır. Bəyənmələr və şərhlər çox vaxt şəxsi əhəmiyyətlilik ölçüsü kimi qəbul edilir və kifayət qədər müsbət rəy olmadıqda insanlar narahatlıq keçirir, özünü dəyərləndirmə aşağı düşür və faydasızlıq hissi yaranır. Psixikası hələ də inkişaf etməkdə olan yeniyetmələr bu kimi amillərə xüsusilə həssasdırlar. Sosial media hər kəsin daha yaxşı, daha uğurlu, daha zəngin görünməyə çalışdığı yüksək rəqabət mühitidir.

Medianın təsirindən davranış psixologiyasındakı başqa bir əhəmiyyətli dəyişiklik həddindən artıq yüklənmənin təsiri ilə bağlıdır. Hər gün istifadəçilərin gözü önündən yüzlərlə, hətta minlərlə mesaj keçir: xəbərlərdən, reklam çarxlarından tutmuş şəxsi yazışmalara qədər. Sonsuz məlumat axını altında diqqət bir məlumatdan digərinə sıçrayır və dərin düşünməyə vaxt qalmır. Bu da diqqəti cəmləmək, uzunmüddətli məqsədləri formalaşdırmaq və emosional tarazlığı qorumaq qabiliyyətinə təsir göstərir.

İnternetdə aqressiya və zorakılıq rəqəmsal mühitdə fərdlərin psixoloji zəifliyini üzə çıxaran daha bir təhlükəli məqamdır. Onlayn ünsiyyətin anonimliyi və ya nisbi məxfiliyi bəzi istifadəçilərin kobud, qəddar davranmasına və ayrı-seçkiliyə yol verməsinə səbəb olur. Kiberzorakılıq ciddi psixoloji fəsadlara səbəb ola bilər, çünki internet insanın sosial həyatına, dostluq və hətta ailə münasibətlərinə güclü təsir göstərir. Şayiələr yaymaq, razılıq olmadan fotoşəkillər paylaşmaq və ictimai şərhlərdə başqalarını təhqir etmək, xüsusən də gənclərdə uzunmüddətli emosional gərginliyə səbəb ola bilər. Təbii ki, yeni media savadlılığı olmadan xüsusilə yeniyetmələrə bu mühitdə öz istiqamətini tapmaq asan deyil.

Uzun illər media savadlılığı anlayışı ənənəvi media - qəzetlər, radio, televiziya ilə əlaqələndirilirdi. Əsas məqsəd dinləyicilərə manipulyasiyaya uğramamağın yollarını izah etmək, faktlar və rəylər arasındakı fərqi göstərmək və jurnalistikanın əsas prinsiplərini açıqlamaq idi. Ancaq rəqəmsal inqilabın baş verməsi bu bacarıqların artıq kifayət etmədiyini göstərdi. Əvvəllər sadəcə oxuyub-yazmağı bacarmaq savadlı olmaq üçün kifayət edirdisə, bugünkü texnoloji inkişafın səviyyəsi və yeni imkanlar savadlılığın müxtəlif formalarını gündəmə gətirib. Ən geniş əhatəli savadlılıq hesab olunan media savadlılığı bu gün öz çətiri altında informasiya savadlılığı, kompüter savadlılığı, sosial media savadlılığı kimi alt sahələri də birləşdirir. Media savadlılığı fərdin öz ehtiyacları daxilində kütləvi informasiya vasitələrindən istifadə etmək, bu alətlərdəki məzmuna daxil olmaq, əldə etdiyi məzmunu təhlil etmək, qiymətləndirmək və çatdırmaq bacarığıdır.

İnternet sosial media platformaları, bloqlar, podkastlar, audiovizual məzmun və bir çox digər rəqəmsal resurslarla doludur. Bu rəqəmsal dəryada itib-batmamaq, eyni zamanda doğru hədəfi tapmaq üçün yeni media savadına ehtiyac var. Bu gün yeni media dövründə media savadlılığına texniki səriştə, analitik bacarıqlar, etik standartlar və onlayn məkanda effektiv qarşılıqlı fəaliyyətlə bağlı bacarıqlar daxildir.

Rəqəmsal kommunikasiyalar dövründə insanlar informasiyanı nəinki qavrayırlar, həm də yaradırlar. Öz "Yutub" kanalını və ya "İnstaqram" səhifəni açmaq təkcə yaradıcılıq deyil, həm də hüquqi və etik çərçivələr haqqında məlumatlı olmağı tələb edir. Müəllif hüququ haqqında qanunları və şəxsi məlumatların qorunması vacibliyini, başqalarının fotoşəkillərindən, musiqisindən, videofraqmentlərindən necə düzgün istifadə ediləcəyini, nüfuzun qorunmasını, hətta izləyicilərin davranışına necə təsir edə biləcəyini aydın şəkildə başa düşmək lazımdır. Məhz buna görə də məlumatlı onlayn qrup üzvü hər hansı xəbəri dərc etməzdən əvvəl onun doğruluğunu yoxlamağa çalışır, birbaşa təhqirlərə və ya ayrı-seçkiliyə səbəb olacaq bəyanatlara yol vermir və digər insanın məxfi məlumatlarının icazəsiz ictimaiyyətə açıqlanmamasını təmin edir. Həm də şəbəkələşmiş cəmiyyətlərdə bir çox insanlar üçün onların sosial media təcrübələri yeni platformalara qatılmaq üçün körpü rolunu oynayır.

Şəkil metadatasının yoxlanılmasını, videolarda vaxt möhürlərinin təhlilini, müxtəlif mənbələrin müqayisəsini apara bilən və məzmunu tənqidi qiymətləndirməyi bacaran şəxs media manipulyasiyasından daha çox qorunur.

Rəqəmsal məkanda yaşayan və işləyən jurnalistlər üçün yeni media dövründə media savadlılığı təmələ çevrilir, onsuz auditoriyanın etimadına və öz peşəkar yüksəlişinə ümid etmək çətin olur. Sosial media hesabı olan müxbir bilməlidir ki, onun yazıları minlərlə, hətta milyonlarla insanın hadisəni qavramasına təsir edə bilər. Faktlarla təsdiqlənməyən hər hansı bir səhv və ya tələsik ifadə tez bir zamanda ictimaiyyətə məlum olur, müəllifin nüfuzunu zəiflədir və jurnalistikaya olan inamın ümumi səviyyəsini sarsıdır.

Ümumiyyətlə, yeni media dönəmində media savadlılığı bir-birindən fərqli olan bacarıqların sintezini əhatə edir. Cəmiyyət üçün media savadlı istifadəçi, digər insanların fikirlərinin passiv alıcısı və ya retranslyatoru deyil, məlumat mübadiləsinin aktiv və şüurlu iştirakçısıdır. Media sənayesi peşəkarları üçün bu, rəqəmsal dünyanın sürətlə dəyişdiyi şəraitdə peşənin keyfiyyətinin və davamlılığının təminatıdır.

***Xatirə HÜSEYNOVA,***
***Bakı Dövlət Universiteti,***
***Jurnalistika fakültəsi***
***Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri***

## Qəzet dövrünün tarixidir

Azərbaycan mətbuatı və jurnalistikamızın tarixi xalqımızın qədim mədəniyyətinin ayrılmaz hissəsidir. Təməli "Əkinçi" ilə qoyulan milli mətbuatımızın tarixi bütün varlığı ilə xalqına bağlı olan, onun tərəqqisi naminə hər cür çətinliklərə qatlaşan Həsən bəy Məlikov Zərdabinin adı ilə bağlıdır.

Mətbuatın böyük əhəmiyyətini vurğulayan Həsən bəy "Əkinçi"də yazırdı ki, "hər bir vilayətin qəzetəsi gərək ol vilayətin ayinəsi olsun", "yaxşı-yamanlığını aşkar eləsin", xalqın "hər bir dərdi və xahişi ol qəzetdə çap olunsun ki, ol qəzetə baxan xalqı ayinədə görən kimi görsün".

Böyük maarifçi hər şeydə öz mənfəətini güdənlərə, hamını belə görənlərə müraciət edərək yazırdı: "Dörd ildir ki, qəzet çap etdirməyə izn istəmişik və bu zamanda dünyanı gəzib bir hürufatı tapmışıq. Bu zəhmətlərə heç bir qəzeti öz nəfindən ötrü çap elədən razı olmaz". "Əkinçi" əhalini maarifləndirməyə, sadə insanlarda siyasətə, elmi-texniki yeniliklərə həvəs, maraq oyatmağa çalışırdı. Bunu görəndə isə sevinirdi. Bu gün biz də oxucularımız tərəfindən qəzetimizdə dərc olunan yazılara maraq görəndə eynən sevinirik.



Qəzet cavanlara müraciətlə yazırdı:"Ey elm təhsil edən cavanlarımız! Doğrudur, bizim vətən qardaşlarınız ilə üns tutmaq çətindir... Doğrudur, qeyri-millətlər sizin kamalınızı görüb sizə artıq rütbə verəcəklər, amma insaf deyil ki, beş gün ömrün ləzzətindən ötrü milləti, qardaşlarımızı atıb, onları kor və sərkərdan qoyasınız". 150 il əvvəl yazılmış sözlər indi də aktuallığını itirməyib.

"Əkinçi" milli mətbuatın rolunu çox yüksək qiymətləndirərək yazırdı: "Hər kəsi çağırıram, gəlmir, göstərirəm, görmür, deyirəm, qanmır. Axır gördüm onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri-əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç biri qanan olmasın. Necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir, habelə söz də. Ələlxüsus da doğru söz. Belədə qəzet çıxarmaqdan savayı bir qeyri-əlac yoxdur". Öz ustadlarının vəsiyyətinə əməl edən və doğru sözü fəaliyyətlərində üstün tutan Azərbaycan jurnalistləri müxtəlif ictimai-siyasi şəraitdə bu əqidə ilə yaşayıb-yaradıblar və bu gün də belədir.

"Əkinçi"nin ana dilimizə münasibəti olduqca ibrətamizdir. Azərbaycan jurnalistikasının korifeylərindən olan professor Şirməmməd Hüseynov yazırdı: "Əkinçi" ilə bizim mətbuat dilimiz - üslubumuz yaranmışdır. Zərdabi və onun məsləkdaşları xalqın geniş təbəqələrinin başa düşdüyü sadə, aydın, təmiz ana dilində yazıb yaradırdılar". Professor bildirirdi ki, "Əkinci"nin doğma Azərbaycan dilinə münasibəti, bu dilin saflığı, təmizliyi, varlığı uğrunda böyük səy və qeyrəti, ardıcıl mübarizəsi ən dəyərli tarixi irsimizdir.

"Əkinçi"nin 10-cu sayındakı məqalədə yazılırdı: "Dünyada xəlq olunan millətlər öz lisanlarına ana lisanı deyib ol lisanı ilə... insanlıq edirlər. Bunun üçün bir lisan bir millətin olanda və lisanı dəxi əsası millət olduğundan (hər) bir kişiyə vacibdir ki, daima onun irəli getməsinə canını fəda etsin və millətin xidmətində bulunmayan kişiyə bir kəs yaxşı deməyəcəkdir". Daim millətin irəli getməsinə canını fəda edən dahi şəxsiyyət Ulu Öndər Heydər Əliyev mətbuatın rolunu yüksək qiymətləndirərək, Azərbaycan jurnalistikasının inkişafına böyük töhfələr verib. Azərbaycan milli mətbuatı ilk dəfə olaraq Heydər Əliyevin 1998-ci il avqustun 6-da imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanla birdəfəlik senzuradan azad edilib.

Ulu Öndərin KİV-in inkişafı sahəsində həyata keçirdiyi tədbirlərin nəticəsi olaraq ölkə mətbuatının maddi-texniki bazası möhkəmləndirilib, qəzet və jurnallara güzəştlər edilib. Azərbaycan mətbuatının yubileylərinin keçirilməsi kimi mütərəqqi ənənənin əsası da məhz Ümummilli Lider tərəfindən qoyulub. Hələ 2000-ci ildə Heydər Əliyevin sərəncamı ilə Azərbaycan milli mətbuatının yaranmasının 125 illik yubileyi təntənəli şəkildə qeyd edilib. Həmin tədbirdə Ulu Öndər dərin məzmunlu nitq söyləyərək, mətbuatımızın qarşısında duran vəzifələrdən danışıb.

Bu gün jurnalistlər, ölkə ictimaiyyəti milli mətbuatımızın 150 illik yubileyini qeyd etməyə hazırlaşırlar. Prezidentin "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" 25 aprel 2025-ci il tarixli sərəncamında deyilir: "Ötən dövr ərzində müstəqil siyasi kursun qətiyyətlə və ardıcıl həyata keçirilməsi nəticəsində ölkəmizin dinamik inkişafı təmin edilmiş, qarşıda duran strateji vəzifələr uğurla gerçəkləşdirilmişdir. Azərbaycan Vətən müharibəsində Şanlı Zəfər qazanaraq və unikal antiterror əməliyyatı ilə hərb tarixinə yeni səhifə yazaraq, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdir. Müharibə dövründə mediamız əsl vətənpərvərlik, həmrəylik nümunəsi ortaya qoymuş, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, düşmənin və onun havadarlarının saxta məlumatlarının ifşası üçün xüsusi səy göstərmiş, Milli Ordumuzun, əsgər və zabitlərimizin rəşadəti, qəhrəmanlığı ilə bağlı zəngin salnamə yaratmışdır".

Bu fikirlər 100 ilə yaxın tarixi olan bölgə mətbuatına da aiddir. Rayon qəzetləri əhaliyə daha yaxın olduğu üçün hər bir bölgənin həyatının işıqlandırılmasında, problemlərin üzə çıxarılmasında müstəsna rol oynamışlar. Xüsusən həm Birinci, həm də İkinci Qarabağ müharibələrinin qəhrəmanlıq salnaməsinin yazılmasında yerli jurnalistlər fəallıq göstərmişlər. Dövlət başçısı bölgələrdə çalışan mətbuat işçilərinin əməyini yüksək qiymətləndirərək, müxtəlif illərdə onları fəxri adlarla, yüksək mükafatlarla təltif etmişdir.

Bütün bunlara baxmayaraq, texnologiyanın sürətlə inkişaf etdiyi hazırkı dövrdə bölgə qəzetlərinin fəaliyyəti xeyli çətinləşib. Yalnız jurnalistlərin işə sonsuz həvəsi və oxucu məhəbbəti ilə qəzet nəşr etdirmək asan deyil. Başa düşürük ki, yol yeniliyindir və bu, təbii bir prosesdir. Bununla yanaşı, təsəllimiz də var. Biz müəyyən dövr üçün rayonlarımızın tarixini yazdıq və bu tarix silinməyəcək, yaşayacaq, saralmış qəzet qovluqlarında olsa belə.

İndi isə bizi belə bir sual maraqlandırır, daha doğrusu, rahatsız edir: bəs, görəsən, regionların bu gününün tarixini kim yazacaq? Ən azından, yaxşı halda ayda bir-iki dəfə böyük çətinliklə və çox az tirajla nəşr edilən yerli qəzetlərlə bunu etmək mümkün deyil!

***Svetlana BAĞIROVA,***
***"Yeni Tərtər" qəzetinin redaktoru***



# Mədəniyyət



● İncəsənət

## O, yüksək sənət amalları ilə yaşayırdı

**O, Azərbaycan incəsənət tarixində adı fəxarətlə çəkilməyə layiq rəssamlarımızdandır. Xalq rəssamı İsmayıl Mir Hüseyn oğlu Axundov təsviri sənət tariximizdə özünəməxsus yaradıcılıq yolu olan sənətkarlarımızdandır.**

**İ.Axundov Bakının Maştağa qəsəbəsində anadan olmuşdu. Sənətə gəlişini belə qeyd edirdi: "Mənim incəsənət aləminə gəlməyimə əsas səbəbkar Mirzə Cəlil olmuşdur. Bizim ailəmiz M.Cəlilə və "Molla Nəsrəddin" jurnalına böyük rəğbət bəsləyirdi. Atam axund olmasına baxmayaraq, açıqfikirli bir şəxs idi, elmə, mədəniyyətə yüksək qiymət verirdi" ("Bakı" qəzeti, 27 may 1967-ci il).**



İ.Axundov ixtisas təhsilini Azərbaycan Dövlət Rəssamlıq Məktəbində (1924-1928), sonra isə Moskva Poliqrafiya İnstitutunda (1928-1932) almışdı. O, təsviri sənətin qrafika və teatr dekorasiya rəssamlığı sahəsində davamlı bədii yaradıcılıq fəaliyyəti göstərərək, bir-birindən maraqlı, diqqəti cəlb edən və yüksək bədii estetik məziyyətə malik əsərlər qalereyası ərsəyə gətirmişdi. İ.Axundov həmçinin uğurlu ictimai fəaliyyəti ilə də ölkəmizin mədəniyyət tarixində silinməz iz qoymuşdur. O, Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin direktoru (1937-1940), Azərbaycan Rəssamlar İttifaqının ilk sədri (1940-1944, 1947-1952), Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin yaradıcılarından, muzeyin direktoru və baş rəssamı (1940-1969) olmuşdu. Sadalanan nüfuzlu sənət ocaqlarında rəssam özünün yüksək təşkilatçılıq qabiliyyəti ilə çalışaraq, xalqımızın minilliklərlə formalaşdırmış olduğu incəsənətə sevgisini və bağlılığını sübut etmişdi.

İ.Axundov Moskvada təhsilini başa vurub Bakıya qayıtdıqdan sonra "Azərnəşr"də rəssam, qrafika şöbəsinin müdiri vəzifəsində çalışmış, "Molla Nəsrəddin" və "Kirpi" jurnalları üçün satirik və yumoristik karikaturalar çəkmiş, II Dünya müharibəsi illərində 100-dən çox agitpəncərə və plakatlar hazırlamışdı.

Əhatəli və gərgin fəaliyyəti dövründə rəssam daim yüksək yaradıcılıq əzmi ilə çalışaraq diqqəti cəlb edən sənət nümunələri yaratmışdı. Onun akvarel texnikasında yaratdığı "Mənzərə" (1927), "Köhnə Bakı" (1928), "Qəzet oxuyan qadın" (1928), "Pionerlərin yığıncağı" (1928), "Çoban" (1928) adlı əsərlər şərti-dekorativ, siluet formasında işlənilib. Rəssam yaradıcılığının birinci mərhələsində kontur xətt, cizgi, kontrastlıq və lokal rəng qammasına üstünlük verib. İ.Axundovun ötən əsrin 60-cı illərində yaratdığı akvarel əsərlər isə səlis işlənilmə, professional perspektiv və kolorit həlli ilə diqqəti cəlb edir. Sadalanan xüsusiyyətləri rəssamın "Atabəy məqbərəsi", "Şirvanşahlar Sarayında məscidin portalı", "Divanxana. Şirvanşahlar Sarayı", "Qrafik rəsm", "Mənzərə" və s. akvarel əsərlərinə aid edə bilərik. Rəssam tuşla şair M.P.Vaqifin olduqca bədii ifadə və güclü emosional təsir qüvvəsinə malik portretini yaratmışdır. Akvarellə işləmiş olduğu "M.Ə.Sabirin portreti" (1962) əsərində o, bənzərsiz satirik şair Sabirin xarakterik xüsusiyyətlərini, onun pisixoloji obrazını ustalıqla yarada bilmişdir.

İ.Axundovun M.Ə.Sabirin "Hophopnamnə" (1934), N.Gəncəvinin "İsgəndərnamə" (1940) və "Molla Nəsrəddin lətifələri" (1958) üçün çəkdiyi illüstrasiyalar özünün məna-məzmun dolğunluğu, lokonik ifadəliyi ilə seçilir, mətnin süjeti ilə təsvirin bağlılığı diqqəti cəlb edir və oxucunun zövqünü oxşayır.

İsmayıl Axundov yaradıcılığının əhəmiyyətli hissəsini teatr dekorasiya rəssamlığına həsr etmişdi. Onu teatra məşhur rejissor Adil İsgəndərov dəvət etmişdi. O, bir çox teatr tamaşasının səhnə tərtibatını və geyim eskizlərini hazırlamışdı. Buna nümunə olaraq Akademik Milli Dram Teatrında M.F.Axundzadənin "Müsyo Jordan və Dərviş Məstəli şah" (1938), C.Məmmədquluzadənin "Ölülər" (1939), (1948), O.Balzakın "Ögey ana" (1939), Z.Xəlilin "İntiqam" (1942), A.N.Ostrovskinin "Tufan" (1945), C.Cabbarlının "Yaşar" (1947), M.F.Axundzadənin "Lənkəran xanının vəziri" (1949), S.Rəhmanın "Aydınlıq" (1949), C.Cabbarlının "Solğun çiçəklər" (1949), "Dönüş" (1960), N.Hikmətin "Şöhrət" (1960), S.Rəhmanın "Əliqulu evlənir" (1961), M.Hüseynin "Alov" (1961), H.Cavidin "Siyavuş" (1963), Musiqili Komediya Teatrında Ü.Hacıbəylinin "Məşədi İbad", S.Rüstəmovun "Durna" (dramaturq S.Rüstəm) (1959), F.Əmirovun "Gözün aydın" (1966) (dramaturq M.Əlizadə), N.Məmmədov və T.Bakıxanovun "Məmmədəli kurorta gedir" (1970, dramaturq A.Zeynallı) və başqalarını göstərmək olar.

Rəssam teatr rəssamlığı ilə bağlı fəaliyyəti haqda "Ədəbiyyat və incəsənət" qəzetinin 27 oktyabr 1962-ci il tarixli nömrəsində yazırdı: "Böyük dramaturqumuz M.F.Axundzadənin pyeslərindəki obrazlar silsiləsi hər bir tərtibatçı rəssamın yaradıcılığı üçün tükənməz ilham mənbəyidir. Bu pyeslərdə cərəyan edən hadisələrin səhnə tərtibatı da rəssamın həyata müdaxiləsinə böyük material verir. Axundovun pyeslərinin tərtibində sadəcə olaraq etnoqrafiyanı nəzərə almaqla kifayətlənmək olmaz. Bu obrazlar silsiləsi, bu zəngin material rəssam təhlilində dövrün ictimai ziddiyyətlərini dərk etmək üçün ən etibarlı çıxış nöqtəsidir". Sənətşünaslıq doktoru Mürsəl Nəcəfov rəssamın yaradıcılığı ilə bağlı "Ümumiyyətlə, yaradıcılığında satira və yumor motivləri güclü olan rəssam M.F.Axundzadə və C.Məmmədquluzadənin satirik surətlərini olduqca real, sözün əsl mənasında milli formada təsvir etmişdir", - deyə qeyd edirdi.





İsmayıl Axundovun muzey işi və ictimai təşkilatlarda göstərdiyi fəaliyyətinin əsas mayasında incəsənətimizə milli bağlılıq dayanırdı. Rəssam "Ədəbiyyat" qəzetinin 17 sentyabr 1960-ci il nömrəsində dərc olunmuş məqaləsində Teatr Muzeyi ilə bağlı "Təşkilat işlərini gücləndirmək, eksponatlar üzərində geniş və ətraflı elmi iş aparmaq, daimi ekspozisiya yaratmaq üçün muzey kollektivini elmi kadrlarla təmin etmək vaxtı gəlib çatmışdır", İncəsənət Muzeyi haqqında isə "Muzeyin Azərbaycan şöbəsi üzrə daimi ekspozisiya yoxdur", - deyə ürək yanğısı ilə əsl vətənpərvər, ziyalı mövqeyini sərgiləyirdi.

Məşhur ədəbiyyatşünas alim Abbas Zamanov rəssam dostu haqqında demişdir: "İsmayıl müəllim Nizami muzeyinin yaradıcısı və rəhbəri idi. Ana öz balasının üzərində necə əsərsə, İsmayıl müəllim Nizami muzeyinin üzərində elə əsirdi. İsmayıl müəllim Nizami muzeyi üçün canını qurban verməyə hazır idi".

Akademik Həmid Araslı rəssamın 60 illik yubileyi ilə bağlı "Ədəbiyyat və incəsənət" qəzetində (22.04.1967) dərc etdirdiyi "Gözəl tərtibatçı" adlı məqaləsində yazmışdır: "İ.Axundov sərgilərin bədii tərtibatında respublikamızda xüsusi məktəb yaratmış bir rəssamdır. Bu isə rəssamın yazıçıların üslub xüsusiyyətlərini bir ədəbiyyatşünas kimi gözəl bilməsi, bədii axtarışların, müasirlik duyğusunun və ümumi biliyinin qüdrəti ilə yaranmışdır. İ.Axundov həmişə axtaran, öyrənən, narahat bir sənətkardır".

Ayrı-ayrı tanınmış sənət adamlarından gətirdiyimiz sitatlar bir daha Xalq rəssamı İ.Axundovun həyatı və yaradıcılığı haqqında oxucuda dolğun təəssürat yaradır. Rəssamın çoxşaxəli bədii yaradıcılığı və ictimai fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, Əməkdar incəsənət xadimi, Xalq rəssamı kimi fəxri adlara, SSRİ Dövlət mükafatına layiq görülüb.

Xalq rəssamı Böyükağa Mirzəzadə 1956-cı ildə rəssam dostu İsmayıl Axundovun diqqəti cəlb edən portretini ərsəyə gətirib. Biz bu əsərə tamaşa edərkən kresloda iş masası qarşısında düşüncələrə dalmış vəziyyətdə əyləşmiş rəssam və ictimai xadimin bədii obrazı ilə qarşılaşırıq. Yüksək sənət amalları ilə yaşayan və daim xalqının işıqlı gələcəyi üçün çalışan Xalq rəssamı İ.Axundovun adı təsviri sənət tariximizdə əbədi yaşayacaq.

*Əsəd QULİYEV,*
*Azərbaycan Rəssamlar İttifaqının üzvü, sənətşünas*

● Səhnə xadimləri

## "Sözün həqiqi mənasında teatr adamı idi"

**O adamlar böyük sənətkar olurlar ki, şəxsi həyatlarında yaşadıqlarını - kədəri, sevinci, hətta arzularını, xəyallarını belə sənətə çevirə bilirlər. O, 1940-cı il iyulun 31-də Bakıda dünyaya göz açıb. Gözünü açar-açmaz yalnız Bakının yox, zamanın qaynar havası sanki onu ağuşuna alıb.**



Müharibənin ağrı-acısı, zamanın çətinlikləri, ailə qayğıları müharibə dövrünün uşaqlarını vaxtından əvvəl yetişdirirdi. "Tez böyüyən olur müharibə uşaqları. Sənət yoldaşları deyirlər ki, sakit, həlim təbiətli, qətiyyətli, uzaqgörən adam idi Vaqif Əliyev. Dostları, onu tanıyanlar aktyoru qısaca belə xarakterizə edirlər: "Ondan sözü kəlbətinlə çəkib alardın. Həyatda qaradinməz, səbirli, sənətində işinin peşəkarı idi".

Söhbət görkəmli teatr və kino aktyoru, Xalq artisti Vaqif Məzahir oğlu Əliyevdən gedir. Vaqif Əliyev Bakıdakı 199 saylı orta məktəbdə təhsil alıb. Kiçik yaşlarından teatra maraq göstərib, dram dərnəklərinə gedib. Aktyorun sənət yoldaşı, Teatr Xadimləri İttifaqının sədr müavini, professor Azad Şükürov Vaqif Əliyev haqqında belə deyirdi: "Vaqif Əliyev çox maraqlı adam, gözəl də aktyor idi. Səmimi münasibətimiz var idi. Hərdən oturub söhbət edəndə zarafatla deyərdi ki, mən səhnəyə çıxanda sən hələ dünyaya gəlməmişdin. Bu məsələdə o, tamamilə haqlı idi. Mən 1959-cu ildə anadan olmuşam. Vaqif müəllim isə səhnə həyatına 1958-ci ildə Azərbaycan Dövlət Dram Teatrında başlayıb".

Xatırladaq ki, Vaqif Əliyev Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram və kino aktyorluğu fakültəsini bitirib. Sənətkar yaradıcı fəaliyyətinə 1968-ci ildə Sumqayıt Dövlət Dram Teatrında başlayıb və 33 il bu sənət ocağında çalışaraq 100-dən artıq tamaşada müxtəlif obrazlara səhnə ömrü verib. Səhnə fəaliyyətinə görə "Əməkdar artist" fəxri adına layiq görülüb.

Azad Şükürov daha sonra əlavə etmişdir: "Vaqif Əliyev aktyorluq sənətinə kütləvi səhnələrdə çıxış etməklə başlayıb. Sonra epizodik rolların ifaçısı kimi səhnəyə çıxıb. Onun fəaliyyətinin böyük bir dövrü Sumqayıt Dövlət Dram Teatrı ilə bağlı olub. Bakı Bələdiyyə Teatrı artıq 7 il idi ki, fəaliyyət göstərirdi. O zaman, yəni 2000-ci ildə Amaliya xanım Vaqifi bizim teatra dəvət etdi və bir yerdə çalışmalı olduq. Bir neçə tamaşada tərəf-müqabili də olmuşuq. "Nadir Şah"da Kəndli obrazını Vaqif, Nadir Şahı mən, Cəfər Cabbarlının "Dönüş" əsərində Şövqü Sapandı, "Ölülər"ərdə Məşədi Orucu, Əziz Nesinin "Tənha qadınlar"ında - Qazabaxan, A.Babayevin "Oğul"unda Qəzənfər, A.Məmmədovun "Dəli Domrul"unda - Ata, N.Hikmətin "Damokl qılıncı"nda Kar, R.İçərişəhərlinin "Vətənə igidlər gərəkdir"ində Seyidağa, S.Rəşidinin "Mənim Ərdəbilim"də Əmir, Ə.Əliyevin "Cırtdan, Məlikməmməd və üç gözəl"ində Dədə Qorqud, "Unutqanlıq qorxunc bəladır"da Rus Zabiti, A.Qurbaninin "Türk sancağı"nda Ağsaqqal, H.Cavidin "İblis"ində Xaxam rollarını məharətlə yaradaraq tamaşaçıların rəğbətini qazanıb.

Professor Azad Şükürov onu da vurğuladı ki, Vaqif Əliyev həm də çox gözəl yol yoldaşı olub: "Biz Vaqif Əliyevlə Türkiyədə, İranda qastrol səfərlərində olmuşuq. Birlikdə cəbhə bölgələrinə gedib əsgərlərimiz qarşısında çıxışlar etmişik. Vaqif həm sənətkar, həm də vətəndaş olaraq böyük insan, alicənab, Vətənə bağlı ziyalı idi. Qarabağ problemini sanki öz şəxsi dərdi hesab edirdi. Teatrımızın 10 illiyində - 2002-ci ildə Vaqifin əməyi dövlət tərəfindən yüksək qiymətləndirilərək ona Azərbaycan Respublikasının Xalq artisti fəxri adı verildi. Vaqif Əliyev xarakterik, maraqlı, sadə bir aktyor idi. Ona hansı rolu versəydin, sözsüz-söhbətsiz ifa edərdi. Qəti özünü qabağa versin, "gözə girməyə" çalışsın, söz-söhbət yaratsın, bunu onda görmək olmazdı. Sözün həqiqi mənasında teatr adamı idi. Sadə, görkəmli, reklamı sevməyən, iddiasız bir insan idi".

Vaqif Əliyev həm də kino aktyoru kimi kinosevərlərin yaddaşında qalıb. Aktyor "Ağ atlı oğlan", "Yük", "Biz qayıdacağıq" filmlərində, eləcə də "Mozalan" satirik jurnalında rəngarəng obrazlar yaradıb.

Görkəmli səhnə ustası Vaqif Əliyev 2001-ci ildə 81 yaşında ürək xəstəliyindən vəfat edib.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## "Nəvə" sənədli filminin çəkilişləri başlayır

"Nəvə" sənədli filminin çəkilişləri cari ilin sentyabrında başlayacaq və təxminən on üç ay davam edəcək.

Filmin iki versiyada - böyük ekran üçün 72 dəqiqəlik, teleekran üçün isə 52 dəqiqəlik versiyanın hazırlanması planlaşdırılır. "Navis" MMC tərəfindən istehsal edilən ekran işinin rejissoru və ssenari müəllifi Afaq Yusifli, prodüserləri isə Nicat Dadaşov və Murad Allahverdidir. Kamera arxasında həm müəllif, həm də Oktay Namazov yer alıb. Ekran işinin musiqi tərtibatı bəstəkar Nigar Süleymana həvalə olunub. "Nəvə" ailə içində yaşanan duyğuların sadə, amma dərin təfərrüatlarını sənədli kinonun imkanları ilə reallaşdıracaq.



## Gənclər Kitabxanasında Xalq yazıçısı Sabir Əhmədlinin xatirəsi yad edilib

Xalq yazıçısı, Əməkdar incəsənət xadimi, Azərbaycan nəsrinin görkəmli nümayəndəsi Sabir Əhmədlinin anadan olmasının 95-ci ildönümü tamam olur. Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Xalq yazıçısının həyat və zəngin yaradıcılıq yolundan bəhs edən biblioqrafik icmal və videomaterial hazırlanıb. Bu barədə kitabxanadan məlumat verilib.




Bildirilib ki, kitabxananın rəsmi saytında yerləşdirilən biblioqrafik icmalda Əməkdar mədəniyyət işçisi Vaqif Yusiflinin "Sabir Əhmədli: nəsr ustası" adlı məqaləsinin tam mətni, elm, mədəniyyət, ədəbiyyat, mətbuat sahəsinin nümayəndələrinin, ictimai-siyasi xadimlərin onun haqqında söylədikləri dəyərli fikirlər yer alır. Biblioqrafik icmalda Sabir Əhmədlinin əsərləri, "Ön söz" yazdığı kitabların, haqqında qələmə alınan nəşrlərin, məqalələrin biblioqrafik icmalı, yazıçının dövri mətbuatda dərc edilən yazılarının siyahısı verilir. Kitabxana əməkdaşları tərəfindən hazırlanan icmalda müəllifin müxtəlif illərdə dərc edilən "Yazılmayan yazı", "Kütlə" "Gedənlərin qayıtmağı", "Mavi günbəz", "Yasamal gölündə qayıqlar üzürdü" və haqqında qələmə alınan "Yasaq ədəbiyyatın yaradıcısı", "Sabir Əhmədli yaradıcılığında dissident motivlər və müstəqillik" kimi 20-dən çox kitabın qısa annotasiyası və biblioqrafik təsviri təqdim edilir.

"Xalq yazıçısı Sabir Əhmədli 95" adlı videomaterialda yazıçının tələbəlik illəri, ilk ədəbi yaradıcılıq nümunələri, "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında 30 ildən çox çalışdığı fəaliyyəti haqqında məlumat verilir. Materialda Xalq yazıçısı Sabir Əhmədlinin yüksək vətəndaşlıq hissləri ilə qələmə alınmış əsərlərinin ədəbiyyatımıza böyük xidmət göstərməsi və gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində mühüm rol oynaması diqqətə çatdırılır. Kitabxana əməkdaşları tərəfindən hazırlanan materialda Sabir Əhmədlinin müxtəlif illərdə səfərlərdə və görüşlərdə lentə alınan görüntüləri də sərgilənir.

"Xalq yazıçısı Sabir Əhmədli 95" adlı videomaterial kitabxananın rəsmi saytında yerləşdirilib.

## Şuşa Dövlət Musiqili Dram Teatrında "Ümid işığı" tamaşasının premyerası keçirilib

Şuşa Dövlət Musiqili Dram Teatrında Əməkdar jurnalist, yazıçı-publisist Zemfira Məhərrəmlinin 70 illik yubileyi münasibətilə müəllifin qələmə aldığı "Ümid işığı" pyesi əsasında hazırlanan tamaşanın premyerası keçirilib.

Birhissəli tamaşanın nümayişindən əvvəl çıxış edən Azərbaycan Yazıçılar Birliyinin (AYB) İdarə Heyətinin üzvü Əsəd Cahangir səhnə əsəri ilə bağlı fikirlərini bölüşüb.

O bildirib ki, "Ümid işığı" müəllifin dramaturgiya sahəsində ilk cəhdidir və bu əsərin dramatik quruluşu, dolğun obrazları və sosial konfliktləri təbii və uğurlu şəkildə təqdim edilib.



"Əsərdə hər bir insanın həyatdakı "ümid payı", bu ümidin arxasınca gedənlərin yaşadığı daxili ziddiyyətlər və həyata bağlılıq hissləri poeziya ilə dolu dillə təqdim olunur. Tamaşanın sonunda isə klassik sonluqdan fərqli olaraq, final açıq və sual işarəsi ilə bitir, tamaşaçını düşünməyə vadar edir", - deyə Əsəd Cahangir əlavə edib. Tamaşanın quruluşçu rejissoru, Əməkdar artist Nazir Rüstəmov əsərin gənclərə və cəmiyyətə dəyərli mesajlar ötürdüyünü vurğulayıb.

Müəllif Zemfira Məhərrəmli qeyd edib ki, əsər yalnız bir dramaturji təcrübə deyil, eyni zamanda onun illərlə qəlbində yetişdirdiyi duyğuların, düşüncələrin və həyat fəlsəfəsinin poetik ifadəsidir.

Lirik-psixoloji dram janrında hazırlanan əsər gənclərin həyatda qarşılaşdıqları çətinlikləri, məhəbbəti və sosial maneələrlə mübarizələri əks etdirir. Tamaşa gənclərin duyğularını, cəmiyyətlə münasibətlərini və arzulara doğru gedən yollarını bədii şəkildə təqdim edir.

"Ümid işığı"nda əsas obrazları Zəhra Salayeva, Sürahi Əliməmmədova, Emin Sevdiməliyev və Cavidan Kəsəmənli canlandırıb. Səhnə əsərinin quruluşçu rəssamı Valeh Məmmədov, musiqi tərtibatçısı Azər Məmmədovdur.

# İlk dəfə Şuşa şəhərindən poçt vasitəsilə Avropa və ABŞ-yə məktub göndərilib

Bu gün dünyaşöhrətli MTP (Most Traveled People) beynəlxalq səyahətçilər klubunun 30 nəfərlik heyəti Qarabağ və Şərqi Zəngəzura səfəri çərçivəsində Şuşa şəhərinə gəlib.



AZƏRTAC xəbər verir ki, səfər zamanı səyyahlar Şuşa şəhəri poçtundan Avropa və Amerikaya məktub göndəriblər. Belə ki, filippinli Rhodora Burton Legaspi Nyu Yorka, irlandiyalı David Joseph Langan isə İrlandiya və Kanadaya məktub göndəriblər.

Qeyd edək ki, beynəlxalq səyyahların yer aldığı heyətə MTP klubunun təsisçisi, amerikalı Çarlz Vili rəhbərlik edir.

Heyətin 3 gün ərzində Füzuli-Xocavənd-Şuşa-Xankəndi-Xocalı-Ağdam-Kəlbəcər-Laçın-Zəngilan-Cəbrayıl marşrutu üzrə hərəkət etməsi planlaşdırılır. Bu səfər işğaldan azad edilmiş ərazilərin "dark tourism" çərçivəsində tanıdılması, nəhəng bərpa-quruculuq işlərinin nümayişi üçün böyük imkan yaradır.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Həm təbiəti, həm də tarixi ilə diqqətçəkən məkan - **Qax rayonu**





**Qax ölkəmizdə turizmin inkişafı üçün geniş imkanlara malik rayonlardandır. Buranın mülayim və saf dağ iqlimi, zəngin mineral şəfa bulaqları, əsrarəngiz təbiəti var.**

AZƏRTAC xəbər verir ki, qədim tarixə və mədəniyyətə malik bu diyarın hər bir guşəsi turistlər üçün əsl istirahət məkanıdır. Bu mənada səliqə-sahmanı, yaşıllığı və tarixi-memarlıq üslubu ilə seçilən Qax şəhəri və Böyük Qafqaz sıra dağlarına sığınan qədim İlisu kəndi yerli və xarici turistlərin daim diqqətini cəlb edir.

Böyük Qafqazın cənub yamacında yerləşən bu qədim şəhərin hər küçə, döngə və dalanı fərqli bir mənzərəyə açılır. Yerli memarlıq üslubunda həyata keçirilən işlər isə görənlərin marağına səbəb olur.

Qax şəhərinin qədim tarixi məhəlləsində yaradılan "İçəribazar" Turizm Mədəniyyət Mərkəzi rayona gələn qonaqlar üçün əsl istirahət məkanına çevrilib. XVI əsr memarlıq abidəsi olan Qala qapıları və divarları şəhərin mərkəzində yerləşir. Buradan vaxtilə karvanlar keçib, həmçinin qədim ticarət mərkəzi olub. Əslində, qaxlılar buranı İçəribazar adlandırırlar.

Kompleksin ərazisində mükəmməl layihə əsasında açıq səma altında 300 yerlik teatr yaradılıb, sənətkarlar üçün 10 emalatxana, o cümlədən tətbiqi sənət, ağacoyma, toxuculuq, Şərq şirniyyatı, təndirxana inşa olunub. Burada fəaliyyət göstərən tətbiqi sənət nümunələrinin satış mərkəzində yerli sənətkarların hazırladıqları milli suvenirlər, rəngkarlıq və qrafika əsərləri, ağac üzərində oyma, daş üzərində təsvirlər, toxuculuq məmulatları, suvenir xalçalar nümayiş etdirilir.

Görkəmli bəstəkar, ictimai xadim Müslüm Maqomayevin atası usta Məhəmməd kişinin dəmirçi emalatxanası 1880-ci illərdə burada yerləşib. Hazırda "İçəribazar" şəhər sakinlərinin, eləcə də rayona gələn yerli və xarici turistlərin ən çox üz tutduqları istirahət məkanlarından birinə çevrilib.

Qaxa gələn yerli və xarici turistlərin ilk üz tutduğu məkanlardan biri də qədim İlisu kəndidir. Bu kənd özünün flora və faunası ilə yanaşı, tarixi-memarlıq abidələri ilə də zəngindir. Tarixi irsi qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək məqsədilə artıq 20 ildən çoxdur ki, "İlisu" Dövlət Tarix-Mədəniyyət Qoruğu fəaliyyət göstərir.

İlisuda bu günümüzə qədər gəlib çıxmış Sumuq qala, Ulu körpü, Ulu məscid, Qalaça, Qala kompleksi, Cinli qala və epiqrafik abidələr bu qədim kəndin qəhrəmanlıq tarixinin şanlı səhifələrində özünə yer tapıb.

# Ermənistanda dərin siyasi böhran yaşanır

Ermənistanda mövcud hakimiyyətlə keçmiş iqtidar təmsilçiləri arasında qarşıdurma və ziddiyyətlər getdikcə daha kəskin xarakter almağa başlayır. Belə bir şəraitdə keçmiş hakimiyyət təmsilçilərinin törətdikləri çoxsaylı cinayətlər iqtidara onlara qarşı hüquq müstəvisində cəza tədbirləri tətbiq etməyə əlverişli şərait yaradıb. Elə bunun nəticəsidir ki, onların bir çoxu həbsə atılıb.



Ermənistanın Milli Təhlükəsizlik Xidməti "Daşnaksütyun" partiyasının üzvlərinin evlərində axtarış həyata keçirib. Axtarışlar partiya üzvü, parlamentin deputatı Qeqam Manukyan, partiyanın ali orqanının aparat rəhbəri Vaqan Matinyan, "Yeğvard" icması şurasının üzvü, Ermənistan "Daşnaksütyun" Gənclər İttifaqının Mərkəzi İdarəsinin sədri Gevorq Muradyanın evlərində aparılıb. Əməliyyatın gedişində Qeqam Manukyanın telefonu müsadirə olunub, oğlu Taron Manukyan isə saxlanılıb.

Ermənistanın İstintaq Komitəsindən verilən məlumata görə, terror aktlarının hazırlanması faktı ilə bağlı başlanmış cinayət işi üzrə 7 nəfər saxlanılıb. Faktla bağlı təxirəsalınmaz istintaq və prosessual hərəkətlər aparılır. Ermənistan Respublikası İstintaq Komitəsinin İrəvan şəhərinin İstintaq İdarəsində Ermənistan Respublikası Cinayət Məcəlləsinin terrorizmə hazırlıq faktı üzrə 43-308-ci maddəsinin 1-ci hissəsində və 335-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş cinayətlər əsasında başlanmış cinayət işi çərçivəsində həyata keçirilmiş genişmiqyaslı istintaq və prosessual hərəkətlər nəticəsində, o cümlədən odlu silahın, onların hissələrinin, döyüş sursatının və digər materialların, cihazların, əşyaların, bir sıra ünvanlarda aparılan axtarışlar zamanı qanunsuz dövriyyədə olan məsafədən işə salınması üçün nəzərdə tutulmuş elektrik partlayıcı (detonator), onun komponentləri, döyüş qumbarası, döyüş qumbaraatanlarının (qoruyucu) qanunsuz dövriyyəsi, barıt, radiorabitə avadanlıqları və təhqiqat üçün maraqlı olan digər əşyalar və obyektlər aşkar edilib.

Bu fonda Ermənistan parlamentinin "Hayastan" fraksiyasının katibi Artsvik Minasyan deyib ki, parlamentin plenar iclas zalında baş verən dava təsadüfi deyil. Hakimiyyət müxalifətə qarşı genişmiqyaslı hücuma keçib. İclas zalında baş verən insidentlə bağlı danışan Minasyan bildirib ki, "Hayastan" fraksiyasının üzvü Artur Sarkisyanın hakimiyyətin hərəkətlərini, mövcud vəziyyəti tənqid edən çıxışından sonra hakim partiyanın üzvləri çıxıb hay-küy salmağa başlayıblar və bunun ardınca "Vətəndaş Müqaviləsi" fraksiyasının üzvləri dava salıblar.

Deputat qeyd edib ki, Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) əməkdaşlarının davranışı qəzəb doğurur: "Onlar zorakılığı dayandırmaq əvəzinə, nəinki müdaxilə etmirdilər, hətta müxalifəti cilovlamağa çalışırdılar, hakim partiyanın nümayəndələrinə aqressiyalarını davam etdirməyə imkan verirdilər. Üstəlik, MTX təxribatlarda iştirak edən və özlərini qəbuledilməz aparan mülki geyimli şəxslərin zala daxil olmasına icazə verdi".

Onu da qeyd edək ki, müharibədə məğlubiyyətin səbəbləri ilə əlaqədar Ermənistanda hər gün müxtəlif səpkidə fikirlər səslənməkdədir. Bu mövzuda Paşinyan hakimiyyəti ilə keçmiş iqtidarların təmsilçiləri arasında kəskinləşən qarşıdurma yeni siyasi çəkişməyə səbəb olub. Belə ki, keçmiş baş nazirin müavini Armen Gevorqyan Qarabağdakı müharibənin səbəbləri və erməni tərəfinin məğlubiyyəti ilə bağlı məqalə yazıb. Qeyd edib ki, Nikol Paşinyan və komandası Qarabağ probleminin həllini Ermənistan iqtisadiyyatına sürətli investisiyaların cəlb edilməsinin və möhkəmlənməsinin qarantı kimi gördü.

Ermənistan rəhbərliyinin səhvlərindən danışan Gevorqyan bildirib ki, Paşinyan hakimiyyətdə olduğu illərdə bir neçə strateji səhv edib. Bu səhvlər isə hazırda məlum olan nəticələrə gətirib çıxarıb. O, Paşinyanın Qarabağ məsələsində "sürətli və dinc həll yolu"na getməsini ilk səhv hesab edir. Gevorqyanın fikrincə, ikinci səhv isə Paşinyan və komandasının Qarabağ məsələsinin detallarını ictimaiyyətdən gizlətməsi və barışıq üçün ictimai rəy hazırlamamasıdır.

Gevorqyan baş nazirin strateji tərəfdaş məsələsində düzgün seçim edə bilmədiyini də düşünür. Buraya Qərbin bəzi ani vədlərinə görə, Rusiya ilə illərdir qurulmuş münasibətlərin soyuması daxildir: "Paşinyan və onun komandası Ermənistandakı Rusiyapərəst düşüncəli işgüzar elitanın imkanlarını məhdudlaşdırmağa, onları "köhnə hakimiyyətin şəriki" kimi qələmə verməyə başladı, paralel olaraq Qərb tərəfdaşları hökumət üçün maliyyə yastıqları yaratdılar".

Bütövlükdə bütün bunlar Ermənistanın böyük tənəzzül yaşadığını göstərir. Görünən budur ki, işğal siyasətinin qurbanı olan bu ölkə üzləşdiyi problemlərdən hələ uzun müddət xilas ola bilməyəcək.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Lerikdə Hamarmeşə-Bibiyani avtomobil yolu yenidən qurulur

Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, vətəndaşların rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Lerik rayonunun Hamarmeşə-Bibiyani avtomobil yolunun yenidən qurulmasına başlanılıb. Layihə mindən artıq sakinin yaşadığı iki yaşayış məntəqəsini əhatə edir.

Agentlikdən AZƏRTAC-a bildirilib ki, uzunluğu 5,2 kilometr olan və çınqıl örtüyə malik mövcud yol xüsusilə payız-qış mövsümündə nəqliyyat vasitələrinin və piyadaların hərəkətində ciddi çətinliklər yaradırdı. Bu səbəbdən yolun əsaslı şəkildə yenidən qurulması zəruri hesab olunub. Hazırda yol 4-cü və 5-ci texniki dərəcələrə uyğun olaraq təkmilləşdirilir, eni isə 10 metrədək genişləndirilir.

Layihə çərçivəsində torpaq işləri, qazma, əks-dolğu və yol yatağının tikintisi üzrə texnoloji ardıcıllığa əsaslanan işlər davam etdirilir. Eyni zamanda suların ötürülməsini təmin etmək üçün mövcud dəmir-beton borular bərpa olunur, zəruri ərazilərdə isə müxtəlif diametrli yeni suötürücü borular quraşdırılır. Bundan əlavə, layihənin birinci kilometrində yeni körpünün və ehtiyac duyulan sahələrdə istinad divarlarının tikintisi də nəzərdə tutulur.

Yenidənqurma işlərinin son mərhələsində yol-cizgi və yolgöstərici xətlərinin çəkilməsi planlaşdırılır.



# Bu gün hava əsasən yağmursuz olacaq

**Milli Hidrometeorologiya Xidmətiindən AZƏRTAC-a verilən məlumata görə, iyulun 11-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin iyulun 10-dan 11-nə keçən gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 20-25, gündüz 31-36 dərəcə isti olacaq. Atmosfer təzyiqi 757 millimetr civə sütunu, nisbi rütubət gecə 65-70, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25, gündüz 33-38, dağlarda gecə 8-13, gündüz 20-25 dərəcə isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Umud Rəhimoğlu, Murad Muradov, Əli, Sirac, Yusif, Vidadi, Rafiq, Arif, Həşim və Nail Hüseynovlar, Əlövsət Əliyev, İlham İbrahimov və İlham Həsənov Sədi və Habil Musayevlərə qardaşları

**HAFİZ CƏLİL OĞLU MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Umud Rəhimoğlu, Murad Muradov, Əli, Sirac, Yusif, Vidadi, Rafiq, Arif, Həşim və Nail Hüseynovlar, Əlövsət Əliyev, İlham İbrahimov və İlham Həsənov Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru, akademik Vaqif Abbasova əzizi

**HAFİZ CƏLİL OĞLU MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3398**
**Sifariş 1407**

**Qiyməti 60 qəpik**